# Sənət Fədaisi

*İradə Abdullayeva*





***Bu kitabın ərsəyə gəlməsində mənə mənəvi və maddi dəstək olan hər kəsə :***
*"Üfüq-S"MMC-yə,*
*"DOST TAXİ" şirkətinə*
*Tahirə Sultana,*
*Həlimə Məmmədovaya,*
*Laləndər Novruzovaya,*
*Samirə Yevdokimovaya,*
*Səadət Hacıyevaya*
***və Fərman haqqında xatirə yazanların hər birinə öz minnətdarlığımı bildirirəm.***

*İradə Fərman Abdullayeva*

# SƏNƏT FƏDAİSİ

# *Ön söz*

*Kitab, 2013-cü il mart ayının 5-də dünyasını dəyişmiş dəyərli aktyorumuz Fərman Şəkilinin (Abdullayev) 60 illiyinə həsr olunmuş xatirələr toplusudur. Bu kitabı yazmaqda məqsədim həyat yoldaşım, ömrünü teatra həsr etmiş, Azərbaycanın yeganə "Sənət Fədaisi" adına layiq görülmüş, istedadlı aktyor Fərman Abdullayevin həyat və yaradıcılığı ilə oxucuları tanış etməkdir. Və fürsətdən istifadə edərək, tövsiyə etmək istəyirəm ki, gəlin, sənətə dəyər verməyi öyrənək! Xüsusi ilə də aktyorlara. Hər sənətin, hər bir peşənin öz köməkçi alətləri var. Hətta əgər bədəninin hansısa bir üzvü çatışmazsa: gözləri zəif görərsə, müəyyən şikəstliyi varsa, dilində qüsuru, səsində problemi olarsa, yaddaşı zəifdirsə, görünüşündə ciddi problemi varsa, savadı yetərincə deyilsə hər kəs müvafiq bir işlə məşğul ola bilər. Amma, aktyor ola bilməz.*

*Aktyorluq yeganə sənətdir ki, sadaladığımız bütün bu şeylər onda vəhdət təşkil etməli, mükəmməl olmalıdır. Onun aləti fərdin Özüdür. Görünüşü, nəfəsi, səsi, savadı, intellekti və bütün həyatı, ömrü və sair, və sair...*

*Elə buna görə də aktyor sənətini Müqəddəs, səhnəni isə Məbəd adlandırırlar. Kitabı oxuyarkən bütün bunların müqabilində aktyorun qazancı nə olur? Görəcəksiniz. Onlara hörmət və rəğbət bəsləmək, Fərman kimi "Sənət Fədaisi"nin xatirəsini əziz tutmaq bizim borcumuzdur. Əgər belə olmazsa, bu ədalətsizlik ola bilər.*

*Mən bu xatirələr toplusunu Azərbaycan teatrında çalışıb, dünyasını dəyişən və bu gün də Azərbaycan teatrını yaşadan hər bir aktyora həsr edirəm!*

*Fərman haqqındakı nağıl başqa nağıllara bənzəmir. Bu nağıl çox-çox fərqlidir. Adətən nağıllar beynin məhsulu olan fantastik hekayələrdir. Bu isə reallıqdan, sevgidən doğan məhsuldur. Əslində nağıllar kimlərinsə şirin-şirin danışdığı hekayətdir. Bu nağıl isə qəhramanın acı reallığından danışır. Nağılda "biri var idi, biri yox idi" deyilir. Bu nağılda isə biri var idi, yenə də var və həmişə var olacaq deyirik. Nağıllımız burada bitmir, ancaq formatını dəyişir. Yaddaşlara həkk olunur, yaşayır və yaşayacaqdır!*

*Müəllif: İradə Fərman (Abdullayeva)*

# ŞƏNƏT FƏDAİSİ

Baaa!.. Xoş-beş- on beş! Nətərsooz, a qaqaşdar! Sözoozu balnan kəsirəm, balalaroozun toyunda, əzizləroozun xeyir işdərində. Şəkililər demişkən, sözoozu unutmiyin, dərdoozu unudun! Sizə gözaydınnığı verif diyrəm çi, habı Ədəbi Dram verilişdəri redaksiyasında "Xoş-beş-on beş" addı yumor verrişi açilir. Mən də nətər diyəllər habı verrişin bir növ yol göstərəniyəm. Hah! Di gəl danışma.! Yolgöstərən didim yadıma düşdü.

Bir gün Ceyranoğlu Bakıda küçəni keçəndə polis onu saxliyif diyir: "Vətəndaş, siz cərimə olunursuz. Kücəni düz kecmədiz."

Ceyranoğlu hövsələdən çıxıb diyir: "Sən nə bildin ki, mən küçəni düz keşdim, yoxsa səhv keşdim. Sən fala baxan zatsan çi, mənim hara getdiyimi biləsən? Sən kimsən çi? Polis: -Mən küçətənzimləyicisiyəm, yol göstərənəm!" Ceyranoğlu şaqqanax çəkif: "Ə, habı səhər-səhər öydən çıxan anası ölmüş bilmir çi, hara geyəsidi, sən ona yol göstərirsən? Mən də heylə!"

Sizə də məslaatım odu ki, mənnən aralanmiyin. Mənnən qalsaaz ziyan tappazsoz. Ziyan tapmamax özü də, habı bahalıxda yekə qazaşdı. Diyrəm, sizin canouzu yiyim, o boyda SSRİ loxma tikə oldu, mən hələ də Şəkiliyəm çi, Şəkili! Bilirsooz niyə?! Məndə sizə söyliyəsi o qədər daddı, məzəli lətifələr var ki, danışmaxnan qutarmaz.....

Fərman Şəkilinin müəllifliyi və aparıcılığıyla AZ TV-də uzun müddət yayımlanmış, televiziya verilişləri arasında böyük reytinq qazanmış ,,Xoş –beş –on beş,, verilişindən bir parça.

## "TARİXLƏŞƏN" TARİXLƏR

Biri var imiş, biri yox imiş. Dünyanın uzaq bir nöqtəsində, uca dağların ətəklərində, qalın meşələri, soyuq bulaqları, bir sözlə gözəlliyinin tayı-bərabəri olmayan, təbiəti göz oxşayan, sözü-söhbəti dillər əzbəri olan, qonaqpərvər, şirin ləhcəli, şirindilli sakinləri, duzlu, məzəli lətifələrin məkanı olan bir məmləkət var imiş. Bu məmləkət duzlu məzəli lətifələriylə dünyada məhşur olmağıyla yanaşı, adət ənənəsiylə də başqa məmləkətlərdən seçilirmiş. Hər küçənin sakinləri tərəfindən verilmiş özünəməxsus adı, hər kəsin öz ləqəbi var imiş. Bu məmləkətdə balacadan böyükdən-kiçiyə hamının incə yumor hissetmə qabiliyyəti var imiş. Tarixən qəhrəmanlıqları ilə dillər əzbəri olan bu məmləkətin adı Nuxa imiş.

Nuxa şəhərində saf, ülvi bir məhəbbət üzərində qurulmuş gənc bir ailə var imiş. Abdulcabbar və Natella xanım. Abdulcabbar el adəti ilə qonşu eldən gəlin gətirdiyi ingiloy qızı Natellanı çox sevər və o qərib olduğu üçün birə beş qayğısına qalarmış. Hər kəs bu ailənin mehribançılığına həsəd apararmış. Üstəlik də qərib ingiloy qızının misli görünməyən gözəlliyi, ədəb-ərkanlı davranışı, mərifəti onu görənləri heyran qoyarmış. Abdulcabbar Natellanı əsl təmiz məhəbbətlə sevər, onu dünyanın ən xoşbəxt qadını etmək ücün gecə-gündüz calışıb-vuruşarmış. Həqiqətən də onlar çox mehriban və xoşbəxt imişlər.

1954-cü il noyabr ayının 4-də bu bəxtəvər ailənin ilk övladı Fərman dünyaya gəlir. Oğlunun dünyaya gəlişi Abdulcabbara qol-qanad verir. Balaca Fərman dunyada onun ən böyük sevinci imiş. Hamıdan çox sevinən isə ata nənəsi olan Cahan xanım imiş. Ailədə hər kəs: bibiləri, xalaları bu körpənin qayğısıına sevə-sevə qalarmış. Xüsusilə Cahan nənəsi onun nazıyla çox oynayarmış, bir sözünü iki eləməzmiş. O Fərmanı bir dəqiqə gözündən kənara qoymazmış. Bir sözlə, Fərman bu ailənin ən sevimlisi imiş. Hər kəsin sevgisi onun üzərindəymiş. Hamı onu ancaq əzizləyərmiş, ona görə də o çox dəcəl, ərköyün, sevimli bir uşaq kimi böyüyürmüş. Abdulcabbarın merli-meyvəli həyəti, bacası var imiş. Həyətin bir tərəfində gözəl su hovuzu da var imiş.

Cahan nənəsi həmişə Fərmanı həyətdə, su hovuzunun yanında oynadar, onu yedizdirərmiş.

Fərman böyükləri diqqətlə izləyər, onlardan gördüyü hər şeyi təkrar etməyi xoşlayarmış.

Günlərin bir günündə artıq 2 yaşına catmış balaca Fərman, evdən aralıda paltar yuyan anasından içmək ücün su istəyir. Anasının əlləri sabunlu olduğu ücün onu, nənəsinin yanına yollayır. Nənəsinin yanına gedərkən balaca Fərmanın gözü həyətdəki su quyusuna sataşır. Su quyusunun yanındakı dolçanı götürüb, quyudan su götürmək məqsədiylə quyuya əyilir. O böyüklərin tez-tez belə etdiklərini görmüşdü. Onun əlindəki dolça su ilə dolarkən ağırlaşmağa başlayır və getdikcə iki yaşlı uşağın onu saxlamağa gücü çatmır. Balaca Fərman əlindəki dolça ilə bərabər üzüaşağı quyuya yıxılır.

Bu məqamda onu dünyalar qədər sevən Cahan nənəsinin ürəyinə nəsə damıbmış kimi, oturduğu yerdən qalxıb gözüynən uşağı axtarır. Uşaq gözünə sataşmayanda, həyətin başqa səmtində başı paltar yumağa qarışan gəlinindən soruşur ki, "Uşaq sənin yanındadır?" Çaş-baş qalan Natella həyacanla: "Yox, mən onu sənin yanına göndərdim." – deyir. Cahan nənənin ağlı başından çıxır: "Allah məni öldürsün, yəqin yol qapısı açıq qalıb, uşaq doqqaza çıxıb"- deyərək yola qaçır. Natella da təlaş içində onun ardınca gedir. Amma ikisi də görür ki, yol qapısı bağlıdır. Bu vaxt onların təlaşı daha da artır. Uşaq hara gedə bilərdi? Bəlkə evdə təkbaşına oynayır? Dəcəl Fərman üçün bu da təhlükəli idi. Qarmaqarışıq fikirlərlə tələsə-tələsə geri dönən Natellanın gözünə birdən hovuzun içində Fərmanın əynindəki şalvarın balağının ucu sataşır. O qışqıra- qışqıra quyuya yaxınlaşır. Belə vəziyyətdə özünü itirən gənc ana uşağa yardım etmək əvəzinə, elə hey qışqırır və oradaca huşunu itirir. Uşağı Cahan nənə dartıb hovuzdan kənara çıxarır. Bütün bunlar qısa bir məqamda baş verir.

Uşağın qarnı su ilə təmamilə dolubmuş. Onda heç bir həyat əlaməti yox imiş. Haray-həşirə qonum-qonşular yığılıbmış. Yaşlı qonşular: “Uşağın üzünü qibləyə çevirin, onun canı çıxıb”- deyiblərmiş. Bu vaxt qonşuluqda yaşayan gənc bir qadın: “Siz nə danışırsız? Çıxmayan cana ümid çoxdur!”- deyib, uşağı qucağına götürüb qaçir. İlk rastına çıxan maşını saxlayıb, xəstəxanaya sürdürür.

Bu zamanlar Abdulcabbar Mərkəzi xəstəxananın Təcili yardim şöbəsində sürücü işləyirmiş. Xəstəxananın baş həkimi Əsəd həkim artıq işdən evə getməyə hazırlaşırmış. O, biləndə ki, ağır vəziyyətdə azyaşlı xəstə gətiriblər, tez ağ xalatını geyinib işə başlayır. Xəstənin vəziyyətinin çox kritik olduğunu, onun yaşamaq ehtimalının çox az olduğunu bildirir. Müayinə otağına heç kim buraxılmır. Əsəd həkimin uzunmüddətli səyi nəticəsində, gecdən-gec uşağı ayıldırlar. Elə bu vaxt xəstəxananın həyətinə Təcili Yardım maşını ilə daxil







olan Abdulcabbar eşidir ki, xəstəxanaya çox ağır vəziyyətdə bir uşaq qəbul ediblər. Xəstəxananın dəhlizi ilə gedərkən tanış sifətləri, onların arasında anasını və yoldaşını ağlayan görəndə, sanki onun beli qırılır. Göz yaşlarını saxlaya bilmir. Özünü həkimin otağına necə atdığını da xatırlamır. Oğlunun başından ölüm qorxusunun çəkildiyinə, onun sağ-salamat olduğuna əmin olandan sonra sevincindən həkimin qarşısında diz çöküb, uşaq kimi hönkür-hönkür ağlayıbmış...

Həkimlərin səyi ilə yenidən dünyaya qayıdan balaca Fərmana ailədə diqqət, qayğı və məhəbbət daha da artır. Atası onun hər ad gününü toy-bayram kimi qeyd edirmiş. Baxmayaraq ki, onun balaca bacısı dünyaya gəlir, ailənin ona qarşı olan sevgisi heç dəyişmir, evdə hər şey onun adı ilə bağlı olur. Onun istəyi əsas tutulur. Xüsusilə də atası, onu o qədər sevirmiş ki, fürsət tapan kimi oğlunun yanında olmağa, əksər vaxtını onunla keçirməyə çalışırmış. Onu özünə dost, arxa, dayaq sanarmış. Fərman da onu çox sevərmiş. Hər gecə atası evə gələnəcən gözünə yuxu getməzmiş.

Beləcə sevgi əhatəsində böyüyən Fərman məktəb yaşına çatır. Onu böyük təmtaraqla Şəki şəhərindəki on nömrəli məktəbə yola salırlar. İlk müəlliməsi Starə xanım Fərmanın zəkasına, qabiliyyətinə mat qalarmış. Amma dəcəlliyindən tez-tez şikayət edərmiş. Starə müəllimə Abdulcabbarı bir yaxın qonşu kimi yaxşı tanıdığından fikirləşirmiş ki, Fərman eynilə atasına çəkib. Abdulcabbar çox istedadlı insan imiş. Çox gözəl əl qabiliyyəti, şəkil çəkmək bacarığı var imiş. Şəkidə o, konstruktor kimi ad-san qazanıbmış. Bütün bunlara rəğmən çox tərs adam imiş. Demək dəcəllikdə də, qabiliyyətində də Fərman atasına oxşayırmış. Məktəbdə oxuduğu bu illər o, sinifdən-sinfə xüsüsi "Tərifnamə" ilə keçirmiş.

Beləliklə, sevgi içərisində böyüyən Fərman, gözlənilmədən həyatının ən xoşbəxt uşaqlıq illərində, məktəbin beşinci sinfində oxuyarkən bu yaşına qədər heç vaxt rastlaşmadığı etinasızlıq, laqeydlik, kobudluq, ehtiyac və çətinliklə üzləşməli olur. Həm də kim tərəfindən? Həmişə sevgi, qayğı gördüyü, qürur duyduğu, güvəndiyi, örnək götürdüyü, həyatda ən çox sevdiyi, inandığı və etibar etdiyi atası tərəfindən.

Atası Abdulcabbar kişi dünyalar qədər sevdiyi, sinəsinə döyüb el adətiylə qərib eldən gəlin gətirdiyi dünyalar gözəli Natella xanımını, onlardan uzaqda olarkən dözə bilmədiyi üç övladını, həmişə hörmət, izzət gördüyü, hər kəsənin həsəd apardığı isti ocağını tərk edib, başqa qadının yanına gedir. Bu gözlənilməz zərbə bütün ailəni sarsıdır. Ən çox sarsılan isə Fərman olur. Yaşının ən kövrək dövründə atasının belə bir hərəkəti onun həyatını alt-üst edir. O atasının bu hərəkəti ilə heç cürə barışa bilmir. Yavaş-yavaş

məktəbdən yayınır, dostlarından uzaqlaşır. Artıq anasının, özündən balaca bacı və qardaşının qayğısına nə cür qalacağı barədə düşünməyə başlayır. Heç vaxt çətinlik görməyən, bu vaxta qədər qayğısız böyüyən bir yeniyetmə üçün birdən-birə zərif çiyinlərinə ailənin ağır yükünü götürmək çox çətin idi. O, həyatın acı reallığı ilə üzbəüz qalır. Balaca Fərman özünü unudur, yaşına uyğun olan hər bir əyləncədən, məktəbdən, dostları ilə oynamaqdan vaz keçir, on iki yaşında ikən ailənin başçısı kimi, bir kişi kimi özünü bu yükün altına atır. Məktəbi atıb, ailə üçün çörək qazanmağa başlayır. Bu vaxtlar Gürcüstandan Şəkiyə gələn yolçəkən geodizist mühəndislərlə işləməyə başlayır, çünki qayğıkeş ata bir qəddara çevrilmişdi. O, ailəsinə baxmır, ailənin dolanışığı ilə maraqlanmamağı azmış kimi, əlində sənəti, diplomu olan xanımına işləməyi qadağan edir. O, bilirdi ki, Natella xanım onun sözündən çıxa bilməzdi. Buna onun cəsarəti çatmazdı. Ailədə söz-söhbətin olmaması üçün ailənin ehtiyacını Fərman ödəməyə çalışırdı, amma necə?...

Bu vaxtlar Fərmanın heç xatırlamaq istəmədiyi bir dövrlər idi. Atası yeni ailəsi üçün üç mərtəbəli ev tikdirir. Fərmanın sevimli “Zim bala” maşını başqasının həyətində dayanır. “Sevimli” atası onları görmək istəmir. Fərmanın anası, bacı və qardaşı çox böyük ehtiyac içində yaşayır. Atası isə o biri ailəsini səyahətlərə: Soçiyə, Yesentukiyə, Nalçikə, Minvoda aparır. Həm psixoloji, həm mənəvi, həm maddi, həm də fiziki sıxıntılara dözmək qeyri-mümkün idi.

Birtəhər, təsəvvür olunmaz çətinliklərlə, gündüz işləyib, axşam oxumaqla gecə məktəbini bitirir. Bu arada isə teatra olan marağı onu Şəki İpək kombinatının nəzdində olan dram dərnəyinə aparmışdı. Fərman, bibisinin, xalasının köməkliyi ilə bacının və qardaşının məktəbdən yayınmasına imkan vermir. Özü isə çox dərin, keşməkeşli bir “həyat məktəbi”ni bitirib, Moskvaya yollanır. Rusiyanın tanınmış rejissoru M.Vasilyevin aktyorluq kursunda təhsil almağa başlayır. Ailəsini ehtiyac içində, başsız qoyduğunu düşünən Fərman orada heç cür qərar tuta bilmir. Axır ki, təhsilini yarımçıq qoyub Şəkiyə qayıdır. Arzusu necə olursa-olsun aktyor olmaq idi. (Hələ uşaq yaşlarından o, bu sənəti sevirdi.) Öz real həyatından ayrılmaq, özündən, uşaqlığındfFan uzaqlaşmaq idi. Öz emosiyalarını obrazların hissləri ilə üzə çıxarmaq, başqalaşmaq, bir az yüngülləşmək, uşaqlığında xəyal etdiyi arzularına çatmaq idi. Ancaq yaratmaq onu yaşadırdı.

Bu arzu ilə 1975-ci ildə Şəki Xalq Teatrına işə düzəlir. Bu vaxtlar Şəkidə Dövlət Dram Teatrı açılır. Onu qrimyor vəzifəsinə işə götürürlər. Az müddət keçəndən sonra onu Opera və Balet Teatrına təcrübə kursuna göndərirlər. Müvəffəqiyyətlə kursu bitirib geri dönən Fərmanın, elə həmin ildəcə dram teatrının tanınmış istedadlı baş rejissoru Vaqif Abbasov bacarığını və














perspektivini görüb, ona tamaşalarda obrazlar verməyə başlayır. Onun hər bir rolu ustalıqla oynadığını görəndə V.Abbasov yanılmadığını başa düşür. Fərmanın ifası, onun fitri istedadı təkcə V. Abbasovu deyil, hər kəsi heyran qoyurdu. Onun plastikası, səhnə hərəkətləri, oyun texnikası qeyri- adi idi.

### *Ömür verilən obrazlar*

Fərmanın teatr səhnəsindəki ilk obrazlarından biri S. Vurğunun "Yeddi oğul istərəm" tamaşasındakı Qaçaq obrazı olub. Tərəf-müqabili Xanlar Haşımzadənin dediyinə görə bu rolun bir kəlmə belə sözü yox imiş. Amma Fərman onu necə canlı, şirin oynayırmışsa, bu personaj səhnədə olan müddətdə tamaşaçının diqqəti ancaq bu qaçaqda olurmuş və bu balaca epizodik rolu xüsusi alqışlayırlarmış. Səhnəyə ilk qədəm basdığı gündən tamaşaçıların ən sevimli aktyoruna çevrilir.

O, uzun illər boyu Şəki Dövlət Dram Teatrının aparıcı və sevimli aktyoru idi. Orada işlədiyi müddətdə yüzlərlə tamaşada oynayıb. Onun oynadığı obrazlar janrına görə bir-birindən fərqli idi. Amma Fərman onların hər birini böyük ustalıqla yaradırdı. Çünki o, ampluası olmayan aktyor idi. O, tragediyanı da, melodramanı da, komediyanı da eyni ustalıqla oynayırdı. Onun ifasına oynamaq demək azdır o, öz obrazlarından rəssam kimi əsər yaradırdı. Obrazlarını texniki deyil, orqanikası, psixikası, mənəviyyatıni özünə assimilyasiya edirdi. Fərman oynayacağı obrazlara fərqli üslubda yanaşırdı. Onun qrimi, plastikası, səs tembri, rekvizitləri, ən xırda detalları belə obrazın görünüşünü, xarakterini tamamlamalı idi. Gənc yaşlarından oynadığı S. Qədirzadənin "Şirinbala bal yığır"da Rəcəb, V. Şekspirin "Kral Lir"ində Təlxək, M. F. Axundzadənin "Xırs Quldurbasan"ında Fransız, R. Stayanovun "Ustalar"ında Şər, F. Dürrematın "Meteor"unda Ogul, Ş. Petefinin "Pələng və Kaftar"ında Təlxək, B.Brextin "Arturo Ui"də Emst Rem, "Arvadımın ərin"də Elbrus, S.Rəhmanın "Aşnalar"da anbar Hüseyn, R.Əlizadənin "Kəndimizin narları"nda tamaşanı idarə edən aparıcı, M.F.Axundzadənin "Lənkəran xanının vəziri"ndə Vəzir, N. Dumbadzenin"Ağ bayraqlar"da Zaza, Ç Aytmatovun "Əsrə bərabər bir gün"də Oğul, V.Şekspirin Romeo və Cülyetta"sında Merkusio, K. Marlenin "Teymurləng"ində Teymurləng, H. Cavidin "Knyaz"ında Şakro və başqa obrazları heç vaxt tamaşaçıların yaddaşından silinməyəcək. Moskvadan teatr tənqidçiləri S. Larin, Solnseva xüsusi olaraq onun tamaşalarına baxmaq üçün Moskvadan birbaşa Şəki teatrına gəlirdilər. Onlar Fərmanın oyun tərzini çox bəyənirdilər. O, öz məharətli ifası ilə hamını heyrətləndirirdi. Dəfələrlə Şəki

tamaşaçılarının dilindən eşitmişəm ki, "Afişada Fərmanın adını axtarırdıq. Onun oynadığı tamaşalar o qədər xoşumuza gəlirdi ki, eyni tamaşaya birneçə dəfə baxırdıq. Onun oynadığı tamaşalarda zal tamaşaçılarla dolu olurdu." O vaxt Moskvada dərc olunan "Teatralnaya Jizn" jurnalında dəfələrlə Fərmanın fitri istedadı haqqında məqalələr (N.Solnseva "Teatralnaya Jizn" 1984, 1986. S. Larin "Teatralnaya Jizn" 1983."Veçernyaya Moskva" qəzeti 1984) dərc olunurdu. Onun sənət dünyasının mərkəzində teatr dayanırdı. Teatr onun əsas məsləyi idi.

O, teatrda işlədiyi dövrdə teatrın baş rejissoru Hüseynağa Atakişiyev orada çox gözəl yaradıcı şəraitə imkan yaratmışdı. Bu vaxt Fərmanın "Eksperimental aktyor studiyası" var idi. Teatrın kiçik səhnəsi onun ixtiyarında idi. Mən deyərdim ki, Şəki teatrında fəaliyyət göstərən aktyorların əksəriyyəti bu studiyada püxtələşmişdilər. Hal-hazırda Şəki teatrının ən aparıcı, sevilən istedadlı aktyorlarından Xanlar Haşımzadə, Əbülfət Salayev özlərini Fərmanın yetişdirməsi hesab edirlər. Bu aktyor studiyasında əsasən eksperimental tamaşalar hazırlanırdı. Görkəmli yazıçı, dramaturq Anarın "Yaxşı padşahın nağılı", B. Vahabzadənin "Eskaryal", "Dar agacı", Əziz Nesinin "Sən qara deyilsən", "Çox gülməli faciə", Məmməd Şəkilinin "Yaşıl işıq", "Kölgədən qorxan Əhməd" nağılı, Peter Turrininin "Mişovul ovu", Fərmanın müəllifi olduğu "Dahi", "Tövbə", "Olum, ya ölüm?!", "Cəllad" və bir sıra əsərlər müvəffəqiyyətlə tamaşaya qoyulmuşdu. Tamaşaların quruluşçu rejissoru əsasən Fərmanın özü idi. Moskvada çalışan istedadlı rejissor Mərdan Feyzullayev Gürcü drammaturqu Nodar Dumbadzenin “Ağ bayraqlar” tamaşasını da burada hazırlamışdı. Bu əsərdə Fərman Zazanı böyük müvəffəqiyyətlə oynayırdı. Əsər çox böyük tamaşaçı rəğbəti qazanmışdı. Bu studiyanın tamaşaları festivallarda iştirak edərək, birinci yerlərin nominantı olurdular. “Dahi” (aktyorlar: Fərman, Xanlar Haşımzadə və Ayşad Məmmədovun ifasında), “Cəllad” əsəri (Fərmanın ifasında) Eksperimental tamaşalar festivalında, “Əyri ağac” əsəri (Xanlar Haşımzadənin ifasında), “Olum, ya Ölüm” (Fərmanın ifasında) Respublikada keçirilmiş mono tamaşalar festivalında birinci yeri qazanıbdır. “Cəllad” əsərinə görə isə Azərbaycan Mədəniyyət Nazirliyi tərəfindən o “Sənət fədaisi” adına layiq görülübdür. Fərman Azərbaycanda ilk və yeganə olaraq “Sənət fədaisi” adina layiq görülmüş aktyordur.

Onu da qeyd edim ki, Azərbaycan Teatr Xadimləri İttifaqının o vaxtki sədri Xalq Artisti Həsənağa Turabovun Fərmana xüsusi rəğbəti var idi. Azərbaycanda monofestivalların keçirilməsinin təşəbbüskarı da elə Fərmanın özü olub. Bu təklif H.Turabovun xoşuna gəlib, qəbul edib və festivalın hər il keçirilməsinə qərar verib. Belə festivalların keçirilməsi aktyorları motivasiya

edirdi, öz üzərlərində daha da ciddi işləməyə sövq etdirirdi. H.Turabov çox istəyirdi ki, Fərman Bakıya gəlsin, aktyorluq fəaliyyətini burada davam etdirsin. Fərman üçün Şəkidən, doğma teatrından ayrılmaq çox çətin idi. O bu kollektivə, Şəkiyə çox bağlı idi.

Nəhayət Gürcüstanda Sovet dönəmində tanınmış rejissor M. Tumanişvilinin teatr kursunu bitirdikdən sonra bu təklifdən bir il yarım keçəndən sonra 1995-ci ildə Bakıya köçməyə qərar verdi. Bizim ailəmiz üşün çətin bir vəziyyət yarandı. Bakıya köçəndən sonra bizim çox çətinliklərimiz oldu. İki uşaqla, evsiz...

Lakin bütün çətinlikləri Allahın köməkliyi ilə özü həll edə bilirdi. Heç vaxt kömək üçün kiməsə ağız açmazdı. Həm də bu ərəfədə H.Turabovun ailəsində faciə baş vermişdi. Onun oğlu şəhid olmuşdu. Fərman sosial məsələlərlə ona müraciət etməyi məqsədəuyğun hesab etmirdi. Əslində, Bakıya gələndə o həm filmdə çəkilirdi, həm də televiziyada özünün müəllif olduğu verilişdə aparıcılıq edirdi. Bütün teatrların qapıları onun üzünə açıq idi. Mən şahid idim ki, dəfələrlə onu müxtəlif teatrlarda işləməyə dəvət edirdilər. Əslində o, Akademik Dövlət Dram Teatrında işləməyə başlamışdı, amma bu müddət çox qısa sürdü. O teatrı (açıqlamaq istəmədiyi səbəblərdən) tərk etdi. Başqa teatrlardan yenə də dəvətlər olurdu. Amma o, heç vaxt heç bir teatrı seçmədi.  Səbəbini isə heç vaxt demək istəmədi.

Fərman cox vətənpərvər idi. O Vətənini, xüsusilə də Şəkini cox sevirdi. Onun ali məqsədlərindən biri də Şəki lətifələrini təkcə Azərbaycanda deyil,







dünyada tanıtmaq idi. Bu məqsədlə minlərlə lətifə toplamışdı ki, müxtəlif dillərdə çap etdirsin. Təəssüflər olsun ki, o buna da nail ola bilmədi.
Mən cəsarətlə deyə bilərəm ki, Fərman Respublikamızda lətifə janrı ilə peşəkarcasına məşğul olan yeganə şəxs idi. Çoxları onu yumor ustası kimi təqdim edirdilər. O lətifənin tədqiqatı ilə məşğul idi. O, lətifənin əsil incəliklərini ictimaiyyətə öyrədirdi və bunu elə sevdirmişdi ki, onun şifahi xalq ədəbiyyatının bir nümunəsi olduğunu praktiki şəkildə təsdiq eləmişdi. Xalqda, tamaşaçılarda lətifəyə xüsusi maraq və rəğbət oyatmışdı. Onun proqramlarından sonra televiziya kanallarında, xüsusilə də el şənliklərində lətifəyə xüsusi yer verilirdi. Onun lətifələri duzlu-məzəli, mənalı, düşündürən, öyrədən, incə yumorlu, ozünün dediyi kimi lətif idi. Televiziyada bir sıra "Xoş-beş-on beş", "Şəki lətifələri", "Şəbədə", "Baməzələr", "Komediya səhnəsi" və s. kimi verilişlər yaratmışdı. Respublika radiosunda "Şəkinin gülüş payı", "Bəzəmələr", "Lətifə yarışması" və başqa bir sıra verilişlərin müəllifi olmuşdur. Televiziya məkanında məktəblilər üçün heç bir elmi, əyləncəli , intellektual proqramların yayımlanmadığı bir vaxtlarda Space TV-də Fərmanın müəllifliyi ilə vaxtaşırı olaraq "ERUDİT", "Teleskonvord", "Ariflər" verilişi tamaşaçılar tərəfindən böyük maraqla seyr edilirdi.

Fərman yeniliyi, tərəqqini elə gənc yaşlarından sevirdi. O, Şəkidə cürbəcür əyləncəli intelektual oyunlar, maraqlı diskatekalar təşkil edirdi. 1978-1988-ci illər üçün belə proqramlar səciyyəvi deyildi. Qədim əyalət və şəhərlərin əhalisi də nisbətən konservativ olduqları üçün, Şəki kimi rayonda bunlar böyük bir irəliləyiş, yenilik idi. Həm Fərman cəsarətli idi, həm də Şəkililər Fərmanı bir aktyor kimi çox sevir və ona etibar edirdilər.

Fərman Şəkililərə sevinc bəxş eləməkdən doymurdu. O, Rusiyanın RTR televiziya kanalında yayımlanan "Pole Çudes" oyununun canlı variantını Şəkidə yaratmışdı. İnsanlar böyük həvəslə bu oyunda iştirak etməyə can atırdılar.

1982-ci ildə Şəkidə Respublika səviyyəsində "Gülüş Bayramı" qeyd edilmişdi. Bu bayramda gülüş şəhəri kimi tanınan Qabrova (Bolqarıstan) ilə Şəkini qardaşlaşmış şəhər elan etmişdilər. Bu bayramın geniş və maraqlı özünəməxsus proqramı var idi. Şənlik proqramının ən maraqlı hissəsi Fərmanın tərtib etdiyi, hamının marağına səbəb olan "Şəkicə-Azərbaycanca" lüğət idi. Bu hissə hələ də orada tamaşaçı qismində iştirak edənlərin xatirəsindədir. Fərman bu tarixi hadisənin həm təşkilatçılarından , həm də iştirakçılarından biri idi.

Aktyor və zaman... Nə qədər sadə səslənsə də bu sözlərin məna yükü, bir dönəmdən başqa dönəmə, sənətkardan sənətkara dəyişilməsi həmişə davam

edəcəkdir.

Bəs Fərman və zaman?! Onlar nə qədər bir-biri ilə uzlaşırdı?

Fərman zamanın aktyoru deyildi. O, zamanı qabaqlayan aktyor idi. Bu səbəbdən də öz zamanında onu qəbul edə bilmirdilər. O hamının dediyini demirdi, o fərqli deyirdi. Hər kəsin etdiyini etmirdi, o fərqli edirdi. Zamanın nəbzini tutmağı yox, gələcəyi mövcud zamanına daşımağı önə çəkirdi. Üstünlüyü daha da irəliyə baxmağa verirdi.

Bir sözlə, Fərman zamanla uzlaşmağa çalışmırdı. O, zamanı ardınca aparan aktyor idi. Addımlarını yerində, ya da geriyə atmaq onun motivi deyildi. Onun motivi dinamika, proqres, eksperiment, tərəqqi, yenilik, stil idi. Onun işlərinə baxanda bütün bunları aydınca görmək mümkündür. Əfsuslar olsun ki, onun oynadığı tamaşaların çox az qisminin video yazılarını tapmaq mümkündür.

Bəs aktyor və məkan?! Bəs aktyor və seçim?! Bax, burda onun bəxti heç gətirməmişdi. Fərman nə zamanının, nə də məkanının aktyoru idi. Heç seçim də onun ixtiyarında deyildi.

Bunlar məni həmişə ciddi düşündürən suallardır. Nə vaxt, harada və necə? Hər bir sənətkarın həyatında bu məfhumların üçü də bir-birini tamamlayarsa, mütləq müvəffəqiyyət əldə oluna bilər. Bu üçlüyün vəhdət şəklində olması çox mühüm amildir. Fərman öz yaradıcı həyatında bu üç məfhumun qeyri-vəhdət olduğundan əziyyət çəkirdi. Onun hadisələrə vərdiş olunduğundan fərqli : real, geniş və azad aspektdən yanaşması, onu fərqli edir və bəzi fərdlər tərəfindən nəinki başa düşülməz, hətta qəbul edilməz edirdi. Amma onun amalı konkret idi: maarifləndirmək, inkişaf etdirmək! O, bənzəri olmayan bir şəxsiyyət idi!

Fərman mütaliədən doymurdu. Onun yazdığı əsərləri oxuyarkən, onların bir gənc tərəfindən yazıldığına inanmaq çətindir. Onun "Əyri ağac" (Tövbə), "Dahi", "Cəllad", "Olum, ya ölüm", "Daun", "Özünlə təkbətək", "Alfa və Omeqa", "Qurban" və s. əsərlərinin hər biri dəyərli bir xəzinədir, örnəkdir, böyük bir həyat yoludur. Dərin fəlsəfəsi olan, mənalı, peşəkarcasına qələmə alınmış bədii əsərlərdir.

Mən Fərman haqqında həmişə qürurla, iftixarla, fəxrlə danışmışam. Kaş bu cümləni kədərlə, təəssüflə, keçmiş zamanda davam etməzdim. Həmişə ümidlə gözləyirdim ki, Fərman daha hansı yenilikləri əlavə edəcək öz rəngarəng, çoxsaylı, maraqlı yaradıcılıq siyahısına?! Görəsən bu gün mənə hansı yeni ideyasından danışacaq?!

Bəli! Çox böyük cəsarətlə mən bu sözləri deyirəm. İncəsənət sahəsi mənim də həyatımın bir hissəsi, bu sahə üzrə ali təhsilim və müəyyən təcrübəm olduğu üçün buna mənim haqqım çatır. Başqa bir tərəfdən də analoqu olmayan yaradıcılıq həyatı "yaşamış", əgər buna yaşamaq demək olarsa, Azərbaycanın

mədəniyyət, ədəbiyyat, teatr, ümumiyyətlə, incəsənət sahəsinə böyük töhvələr vermiş, yeniliklər gətirmiş, lakin dəyərləndirilməmiş, öz zəhmətinin haqqını yeməmiş, təvazökarlıq ucbatından həmişə kölgədə qalmış dahi aktyor, ssenarist, bir neçə dəyərli pyeslərin, felyetonların müəllifi, eksperimental tamaşaların rejissoru, festivallar laureatı, bir cox analoqu olmayan telelayihələrin yaradıcısı, psixoloq, filosof, avanqardist, Azərbaycanda "Sənət fədaisi" adına layiq görülmüş yeganə aktyor, unikal insan Fərman Abdullayev (Şəkili) bu sözlərə, bu təqdimata layiqdir! Fərmanı tanıyan, sənətə dəyər verməyə qadir olan hər bir oxucu, tamaşaçı xüsusilə də sənət adamları mənim bu sözlərimi təsdiqləyərlər. Onu tanımayanlar üçün isə çalışacam ki, Fərmanı, yaratmaq eşqiylə gecə-gündüz alışıb-yanan, elə öz alovundaca özü əriyən Böyük sənətkar Fərmanı necə var idisə eləcə düzgün tanıdam. Ömrünü sənətə həsr etmiş əsl "Sənət fədaisi"nin həyat və yaradıcılığını tanıtmamaq məncə ədalətsizlik olardı. Üzücü olsa da bu missiyanı yerinə yetirmək mənə qismət olub. Mən də çalışacam ki, layiqincə bu işin öhdəsindən gəlim.

Fərmanı tanımaq üçün az müddət kifayət edə bilməzdi. Onun daxili aləmi o qədər zəngin idi ki, qısa müddətli ünsiyyətlə onu dəqiq tanımaq qeyri-mümkün idi. O məntiqli, iti zəkaya malik, düzgünlüyü sevən, genişürəkli, mərd, verdiyi sözün arxasında dayanan, dostluqda etibarlı, həssas, alicənab, xəyanətə qarşı olduqca sərt, ilk baxışda sakit görünən lakin çılğın xarakterli, qeyri- adi savadı olan bir şəxs idi. Ona elmin hansı sahəsindən sual verilsəydi , düzgün və dolğun cavab hazır idi. Mənim üçün çox təəccüblü idi ki, o, hər bir elmi dərindən necə və nə vaxt öyrənə bilmişdi? Onun özünə inamından irəli gələn daxili azadlığı var idi. Bu onun yaradıcılığına çox sirayət edirdi. Məhz bu, onu unikal edirdi. Fərman proseslərin doktrininə və traktovkasına ümumu deyil, fərdi yanaşırdı. Mütləq mənalı olmalı və nəsə öyrədilməlidir, tamaşaçılara düzgün ötürülməli, qəbuledilən və anlayışlı olmalı idi.

O qədər düzgün və ədalətli idi ki, hətta öz işlərinin gedişatına mane olsa belə, nə düşünürdüsə, onu da deyirdi. Həqiqəti dəyişməzdi. Olduqca səmimi idi. Heç kimdən köməyini, biliyini əsirgəməzdi.

İstedadlı və bacarıqlı idi. Bəlkə də onun istedadı birtərəfli olsa idi, onun özü üçün də asan olardı. O, həm yazır, həm tamaşaya qoyur, həm özü oynayır, həm də maraqlı xırda ixtiralar edirdi. Ona işləmək üçün sutka kifayət etmirdi. O, hec vaxt darıxmazdı. (Amma həmişə tələsərdi. Elə bil qorxurdu ki, nəyisə çatdıra bilməsin) Hər dəqiqəsinə dəyər verər, vaxtını boş keçirməzdi. Təbiətdə olan hər şeyə yaradıcı gözlə baxırdı. Onun istedadının başqa tərəfləri də var idi. Çox gözəl əl qabiliyyəti var idi. Onun öz əlləri ilə düzəltdiyi milli kəmərlər, çikankalar (dəmirdən döymə üsulu ilə bəzək düzəltmək üsulu),

velomobillər,  pape-maşedən mebel üzərində düzəltdiyi cürbəcür arnament bəzəklər (pape-maşe kağızı müəyyən prosedurlardan keçirdikdən sonra plastilin halına gətirilən materialdır). Onun ən dəyərli ixtirası isə "Təkərüstü səhnə" idi. Səhnənin uzunluğu on üç metr, eni isə doqquz metr idi. O, bu səhnə ilə Azərbaycanın ucqar yerlərində haradakı teatr binası yoxdur, orada təmənnasız olaraq tamaşalar, konsert proqramları göstərirdi. Bu səhnə bəzi xarici iş adamlarını da maraqlandırmışdı. Amerikadan gəlmiş bir qrup musiqiçi ilə Bakı ətrafı kəndlərdə, Daşkəsən, Zagatala, Balakəndə konsertlər təşkil etmişdi. O, bir çox təşkilatlara "Təkərüstü səhnə" haqqında məlumat verib bildirmişdir  ki, teatr, ya da hər hansı inzibati binası olmayan bölgələrdə, qaçqın şəhərciklərində, ehtiyacı olan hər bir məkanda  hansısa bir tədbir üçün bu səhnədən istifadə edə bilərlər. Bu böyük səhnənin quruluşu elə idi ki, onu iyirmi beş dəqiqəyə söküb yığmaq mümkün idi.




Fərman haqqında danışmağa hamıdan çox mənim haqqım çatır, çünki mən sözün əsl mənasında “Sənət Fədaisi”nin acı sənət taleyinin canlı şahidiyəm. Ona ürək-dirək verən, onu ruhlandıran, uydurduğum xəyallara özümü inandıran bir xanımam.

Fərmanın ideyaları bitib tükənmirdi. Bu barədə onun heç bir çətinliyi yox idi. Həmişə yeni fikirlər, yeni layihələrlə lazımi yerlərə müraciət edərdi. Onun təkrarçılıqdan xoşu gəlmirdi, amma bu avanqard fikirlərini dəstəkləyən, yardımçı olan insanlar, qürumlar tapılmırdı ki, tapılmırdı. Çünki o, həmişə zamanı qabaqlayırdı, uzaqgörən idi. Tərəqqipərvər, yenilikçi idi. Yeniliyi qavramaq isə o qədər də asan deyildi. Axı bizim adətən yeknəsək, təkrarolunan, çox düşündürməyən, heçnə öyrətməyən, mənasız, yüngül proqramlara









baxmaqdan xoşumuz gəlir. Nə etmək olar xislətimiz belədir. Yeniliyi çətinliklə qəbul edirik. Əlbəttə, mən öz münasibətimi bütün xalqa şamil etmirəm, amma əksəriyyətmiz beləyik. Fərman isə maarifpərvər, yenilikçi idi.

Heyf Fərmandan! O Fərmandan ki, yaratmaqdan usanmırdı, yorulmurdu. Sənətini hər şeydən: ailəsindən, övladlarından, qohum əqrəbasından, sağlamlığından, canından, şan şöhrətdən, var-dövlətdən, bir sözlə həyatından irəli tuturdu. O, özünün vəfasız sənətinə yaman çox etibar edirdi. Axırda isə qazancı yalan vədlər, oğurlanmış layihələr, başqaları tərəfindən mənimsənilmiş qanararlar, qadağa qoyulmuş şərtlər, özünə qarşı olan biganəlik, pozulmuş əsəblər, stres, depressiya... və s. oldu. Ömrünün sonuna qədər başa düşə bilmədi ki, niyə belə edirlər?

Teatr sənəti qeyri-adi taleyi, xarakteri olan insanları çox sevir. Fərman da belələrindən idi. O, Sənətə və sənətkara dəyər verməyi bacarırdı. Sənətlə əyləncə, biznes xatirinə məşğul olan "sənətçilərlə" barışa bilmirdi. Özü kimi qurbanları sevirdi. Belələrini isə barmaqla saymaq mümkündür. O, çox çalışırdı ki, heç olmasa onun ideyalarından bəhrələnsinlər. O, açıq-açığına öz ideyalarını təmənnasız bağışlamağa həmişə hazır idi. Təki yaratmaq olsun. O, ancaq yaradanda yaşayırdı. Sənət onun varlığı idi. Sənətsiz o, yox idi. Necə ki, indi yoxdur! Onsuz da onun ideyaları tükənmirdi. O, özünə çox arxayın idi. Onun ehtiyacı yox idi, kimisə ideal seçsin, kimdənsə oğurlasın, kimisə təkrarlasın. O, çox qürurlu və mərd idi, yaddaşlarda da mərd kimi qaldı.

O, həmişə belə dua edirdi:

*Xudaya, sən bizə hövsələ ver ki, dəyişə bilmədiklərımizə tab gətirə bilək!*
*Bizə qüvvət ver ki, dəyişə biləcəklərimizi dəyişə bilək!*
*Bizə idrak ver ki, yaxşı ilə pisi biri-birindən ayıra bilək!*
*Bizə qabiliyyət ver ki, iblisi aramıza buraxmayaq! AMİN!*

Onun Allahla olan münasibəti də incə, müdrik, səmimi hisslərlə bağlı idi. O, həmişə bunu deyirdi: “O yol ki, səni məbədə, Allaha aparmır, o yoldan dön! O yolla getmə!” O, həmişə deyərdi ki, “Əgər gördüyün işdə Allah sevgisi olmazsa, o adama yapışmayacaq, çiy olacaq”. Paxıllıq, qibtə, hərislik hissləri ona yad idi.

Fərmanın fəlsəfəsinə görə insanı bütün heyvanlardan ayıran və dünyanın bütün sirrlərinə vaqif edən dörd şeydir: Hikmət, Ağıl , Təmkin və Ədalət.

Alimlik, savad və hər şeyi düşünə bilmək Hikmətə; tədbir, səbr, nəzakət, mərhəmət Ağıla; həya, alicənablıq, özünü ələ almaq və özünü dərk etmək Təmkinə; doğruluq, vədi yerinə yetirmək, yaxşı işlər görmək və xoş xasiyyətli olmaq Ədalətə daxildir. Fərman öz həyatında həmişə çalışırdı ki, bu qanunlara

əməl etsin.

Onu yaxından tanıyan hər kəs bilirdi ki, Fərmanın yeganə çatışmayan cəhəti onun səbirsizliyi idi. Amma, o kəmhövsələ olmasına baxmayaraq, sənətinə qarşı çox təmkinli idi. Sənətinin nazı ilə çox böyük səbrlə oynayırdı. Vəfasız sənətinin səmimiliyinə necə etibar edirdi, necə də ümidlə nələrisə gözləyirdi. Belə olmasaydı yəqin ki, çoxdan əlini sənətindən üzərdi. Amma hər gün qulağı səsdə idi. Hər daim nələrisə məşq edir, özünü bir aktyor kimi formada saxlamağa çalışırdı. Bütün varlığını ancaq yaradıcılığına həsr etmışdı.

Həyat Fərmanı çox sınaqlardan keçirirdi. O isə mətinliklə hər şeyə tab gətirirdi. Teatr onun məsləyi idi. Onun sənət dünyasının mərkəzində teatr dayanırdı. Onun ən böyük arzusu fərqli yaradıcılıq dəsti xətti olan bir eksperimental teatr "Kölgə teatrı" yaratmaq idi. Teatrın nizamnaməsi, adı ("Evrika") bütün sənədləri hazır idi. Bildiyimə görə Mədəniyyət Nazirliyi tərəfindən təsdiqini gözləyirdi. Fərman həmişə incəsənət aləminə yeniliklər gətirməyi xoşlayırdı. Təkrarçılıq Fərmanlıq deyildi. Ümumiyyətlə, o, kütlə arasında itib-batmağı, əriməyi, say bitirmək xatirinə ortalıqda olmağı heç vaxt sevməzdi. Ya birinci, ya da heç kim! O belə idi! Doğrudan da Allahtaala ona elə qabiliyyət vermişdi ki... Gördüyü işi ustalıqla, mükəmməl edirdi. Heyif ki, hər şey onun səlahiyyətində deyildi. O, ancaq yaradıcılıq sahəsinə cavabdeh ola bilirdi.

Həddən artıq vəfalı, etibarlı, xeyirxah, ürəyiyumşaq, kövrək idi. O, atəşkəsdən əvvəl, Respublikada müharibə vəziyyəti olarkən dəfələrlə teatr truppası ilə döyüş bölgələrində olmuş, cəzaçəkmə məntəqələrində, hərbi hissələrdə, uşaq evlərində, qaçqın düşərgələrində təmənnasız olaraq maraqlı proqramlarla çıxış edirdi. Amma heç vaxt etdiklərini car çəkib şişirtməz, bu haqda heç yerdə qeyd etməzdi.

Fərman yalan və xəyanəti heç vaxt bağışlamırdı. Özü də heç vaxt yalan danışmazdı. Həddən artıq punktual idi. Gecikməyi, verdiyi sözə əməl etməməyi sevməzdi. Belə adamlarla nəinki işləməyi, ünsiyyətdə olmağı belə sevmirdi.

Fərman sənətində müəyyən qədər tanındığı və sevildiyi, öz sözünü dediyi bir vaxtda birdən-birə onun yaradıcılığında uşaq personajı "Şurum-Burum" meydana gəldi. Fərmanın bu tapıntısı onun sənət dostlarını həm təəccübləndirdi, həm də təəssüfləndirdi. Onlar Yaradıcılıq uğurlarına görə bir mükafat kimi Şəkidən Bakıya dəvət olunmuş, festivallar laureatı, böyük ideyaların, maraqlı əsərlərin müəllifi, böyük obrazların yaradıcısı gözlənilmədən uşaq obrazı , gülməli kloun obrazını ortaya çıxaran Fərmanı heç cürə başa düşə bilmirdilər. Onlar Fərmandan daha maraqlı, daha böyük yeniliklər gözləyirdilər. Sənət adamları bununla heç cür razılaşa bilmirlər və "Şurum-Burumu" Fərmanın

sənətində edə biləcəyi ən kiçik bir iş kimi dəyərləndirirlər.

Mən onların bu fikirləri ilə qismən razılaşıram. Əlbəttə, Fərman kimi bir aktyorun uşaq personajı yaratmaqla öz reputasiyasını aşağı salması təqdirəlayiq deyildi. Amma o belə fikirləşsəydi, Fərman olmazdı ki... Fərmanın unikallığı onun fərqli düşünməsində idi. Baxmayaraq ki, kənardan o, özündən razı kimi görünürdü, Fərman heç vaxt öz müvəffəqiyyətlərinə qeyri-adi bir şey kimi, aşağıdan yuxarıya baxmırdı. Onları adi qəbul edirdi. Fərmanın elə bu hərəkəti də onun dahiliyindən, sadəliyindən, təvazökarlığından, yaradıcılıq sərhəddinin olmamasından, fədailiyindən, sənətinə olan vurğunluğundan irəli gəlirdi. Yaxşı diqqət etsək görərik ki, o vaxt “Şurum-Burum” obrazının yaranması nə qədər labüd idi. Bu kloun obrazı nə vaxt doğulur? Azərbaycanda sovet idealogiyasının demokratik idealogiyaya çevrildiyi bir keçid dövründə.

Fərman bu çevrilişi qəbul edərək, onu sürətləndirməyə kömək etmək məqsədiylə bu obrazı meydana gətirmişdir. Hər birimiz şahid idik ki, Respublikada gedən bu proseslərdə necə böyük xaos yaranmışdı. Belə vəziyyətdə ən çox əziyyət çəkən isə uşaqlar idilər. Televiziyada, radioda, qəzetlərdə daha çox siyasət, müharibə mövzusu yer tutur, bu haqda verilişlər yayımlanırdı. Demək olar ki, uşaqlar təmamilə yaddan çıxmışdı. Fərman həmişə sənətdə yeniliklər etməyi, ehtiyacları görməyi bacarırdı, boşluqları doldurmağı sevirdi. Onun təkrarçılıqdan xoşu gəlməzdi. O zaman uşaq proqramlarının yeri boş idi. Uşaq verilişləri yox səviyyəsində idi. Bu obraz sənət adamlarını təəssüfləndirsə də, uşaqları çox sevindirmişdi. Fərmanın özü, ümumiyyətlə, uşaqları çox sevirdi. O, həmişə: "Yaşlıların sovet psixologiyasını dəyişmək qeyri –mümkündür, amma uşaqları biz demokratik, azadfikirli böyüdə bilərik!"- deyirdi. O, bu devizini əsas tutaraq öz tərəfindən bu ideyaya bu cür dəstək verməyi məqsədəuyğun hesab edirdi.

O, müdrikcəsinə bilərəkdən özünü "kiçiltdi" ki, Vətəninə gələcəkdə böyük insanlar verə bilsin: Azad təfəkkürlü, geniş dünyagörüşlü, öz sözünü deməyi bacaran, savadlı, intellektual səviyyəsi yüksək olan, sərbəst övladlar böyüsünlər.

“Şurum-Burum” obrazı əslində Azərbaycan mədəniyyətində bir tarıx yazdı. Bu obrazla o, Klounada janrını gətirdi. Şurum-Burum öz təsdiqini Aərbaycan Respublikası Müəllif Hüquqları Agentliyi tərəfindən alıb. (Şəhadətnamə №712) Onun minlərlə pərəstişkarı var. Tamaşaçıların dediklərindən bir nümunə: (Deyilənləri ümumiləşdirərək yazmışam)

"Bizim bəxtimiz gətirmişdi. Biz "Şurum-Burum"la böyümüşük. O, bizə nə qədər şeylər öyrədirdi. Biz onu çox sevirdik, onu özümüzə ən yaxın dost bilirdik. Həsrətlə o verilişi gözləyirdik. Veriliş vaxtı heç kim bizi ekrandan ayıra bilməzdi. Ona məktub yazıb dost kimi hər fikrimizi bölüşürdük. İndi də biz

uşaqlıq xatirələrimizi "Şurum-Burum"suz təsəvvür etmirik! Öz uşaqlarımıza həmişə onun haqqında danışırıq. Böyüyəndən sonra da Fərman müəllimlə görüşməyimizə çox məmnun olurduq. O, bizim ilk dostumuz idi, biz ondan dost olmağı öyrənmişdik. O, bizim ilk müəllimimiz idi. Mən yol hərəkəti qaydalarını, küçədə, metroda, hətta evdə özümüzdən böyüklərlə, kiçiklərlə özümüzü necə aparmağı, cürbəcür bilmacələri, tapmacaları, məntiqi, dünya xalqlarının nağıllarını, planetləri, cürbəcür oyunları, coğrafiya, biologiya haqqında, bulmacalar, uşaq lətifələri haqqında ilk dəfə "Şurum-Burum"dan öyrənmişəm. O, bizə cəsarətli olmağı, özümüzün fikirləşib tapmağımızı, özümüzün nəyisə düzəltməyimizi öyrədirdi. İlk dəfə cürbəcür klounlari, başqa nağıl qəhrəmanlarını biz o verilişdə görmüşük. O, bizə Vətəni, valideynləri, dostlarımızı, təbiəti, kitabları sevməyi ötrədirdi. Bizim dörd-beş yaşımız olanda coxlu tapmacalar bilirdik. İndiki uşaqlar, ümumiyyətlə, tapmacanın nə olduğu barədə heç təsəvvürləri yoxdur.

Onun "Uy da!"... kəlməsi hələ də dilimizdədir. "Şurum-Burum" mənə o qədər yaxın idi ki, onu ailəmizin bir üzvü kimi bilirdim. Buna görə Fərman





# Fadderskapsrapport

ger både de ansatte og barna som bor der. Men Normisjons utsending Marion Gunvilde Seierstad, som er der ofte på besøk, sier at mange av disse barna har ressurser som de ikke får utviklet og brukt, så en del av dem er klart feilplassert. Tenk å bo på et slikt sted når du vet at du er frisk og skulle vært et annet sted! Det er ett klasserom på barnehjemmet, så bare noen få får undervisning.



**Lærer og elever i 3. klasse ved skoleinternatet i Sheki**



**Klovnen Shurum-Burum sammen med noen av barna på Merdekan barnehjem**

Den norske hjelpen til dette barnehjemmet startet da Anne Johanne Retterholt var Santalmisjonens utsending i Aserbajdsjan i 1994-95. Ektefeller til norske Statoil-ansatte i Baku har også gjort en stor frivillig innsats opp gjennom årene, ved hjelp av støttespillere i Norge. Nå drar Marion Seierstad til Merdekan to ganger hver uke. Hun har med seg 40 store, varme, ferske brød som blir delt i fire, slik at hvert barn får sin del. Ved siden av deler hun ut epler, agurk, tomater eller andre frukter og grønnsaker som passer etter årstiden. Da hun en dag fortalte at hun ville ta med tomater neste gang, var det ei jente som ble så glad at hun hoppet og danset rundt på golvet!

Marion har også et lite lager med klær og sko som hun deler ut når noen trenger det. Hun kjøpte joggesko i fjor høst og sommersko i sommer.

## Normisjonsansatt klovn

De siste månedene har barnehjemmet hatt jevnlig besøk av en kristen profesjonell skuespiller, Ferman Abdullayev Shekili. Han spiller ... Shurum-
Burum på barne...
kjent av barna, ...
helt. Normisjon h...
en dag i uka, og ...
barnehjemmet ...
sjon. Disse ba...
samfunnet, og ...
ressurser på ...
kommer, er d...
han lager ...
dem. Han si...
*leker og spil...*
*til å forstå, ...*
*seg. De tr...*
*uttalen si...*
*prosjekter...*
*prøver å ...*
*en sin. N...*

*fortellinger, ber jeg barna tegne figurene de har hørt om. Den største vanskeligheten er det skiltet de har rett foran øynene sine der det står "mentalt tilbakestående barn". De tenker hele tida: Jeg er tilbake-...ende, jeg forstår ingenting.*

*...m fra*
*... meg*
*... dem,*
*...t vil si*
*... - men*
*... egen*
*...et eget*
*...e barna.*
*...til å få et*
*...il fullver-*
*...neter. Jeg*
*...ing i flinke*
*...r ha mulig-*
*...ligheter. Og*
*...esultater og*



müəllimə çox minnətdarıq. Allah ona qəni-qəni rəhmət eləsin! Doğrudan böyük sənətkar idi. Onun özündə o qədər təmiz, müsbət enerji var idi ki... Kaş indi bizim uşaqlarımız üçün də belə bir canlı personaj olardı. "Şurum-Burum" kimi sevimli, mehriban, uşaqların dilini bilən, valideynlərimiz bizimlə etdiyi kimi , biz də öz uşaqlarımızla hər istəyimizi "Şurum-Burum"un adından istifadə edib, həyata keçirərdik. Onları öyrədərdik. Onların da onun kimi etibarlı, güvəncli dostu olardı!..."

Vüqar Nağıyev, Məryəm Əliyeva, Rəvan Məmmədov, Təranə Nəsirova, Elgiz Novruzov, Vüsalə Həsənova, Sənan Heydərov, Xəqani dursunov, Gülşad Bəhrili, Günel, Fəxri və Xəyalə Cüməliyevalar... və s. Biz bu siyahını istədiyimiz qədər artıra bilərik.

Bu obraz haqqında cürbəcür münasibətlər, fikirlər çox səslənirdi. Əslində "Şurum-Burum" maska altından tərbiyələndirirdi, öyrədirdi və maarifləndirirdi. Yadınızdadırsa, verilişin formatı özü də bir yenilik idi. Bu verilişə qədər efirdə uşaqlarla birbaşa telefon əlaqəsi yaratmaq, onlarla dialoq qurmaq heç vaxt təcrübədən keçirilməmişdi. Xüsusilə də, uşaq verilişləri əvvəlcədən hazırlanıb, efirə verilirdi. Çünki uşaqlar özlərini kontrol etməyə bilərlər, onlara etibar yoxdur. Uşaqlarla işləmək aparıcıdan xüsusi bacarıq tələb edir. Amma Fərman buna risk etdi və çox müvəffəqiyyətlə də istəyinə nail oldu. Bu verilişdə uşaqlara çox sərbəstlik verilirdi, müxtəlif yollarla onların istedadı üzə çıxarılırdı. Uşaqların özlərinin heç xəbəri olmadan axtarışda olurdular. Fərman tapmaca janrından istifadə etməklə onların məntiqli fikirləşmək qabiliyyətlərini inkişaf etdirir, yaradıcılıq qabiliyyətləri artırdı. Bu veriliş efirdə gedən vaxt "Şurum-burum"a minlərlə cürbəcür dizaynlı, uşaqlar tərəfindən əllə düzəldilmiş suvenirlər, müxtəlif cür çəkilmiş şəkillər göndərirdilər. Uşaqlar özləri orijinal tapmacalar, bilməcələr tapıb göndərirdilər. Efirdə gedən hər veriliş onlar üçün sevimli bir bayrama çevrilirdi.

Mən şahidi idim ki, hətta valideynlər efirə düşə bilməyəndə evimizə zəng edib, ona öz təşəkkürlərini bildirirdilər. Küçədə uşaqlar onu görəndə sevincləri yerə-göyə sığmırdı. Onunla ünsiyyət qurmaq, şəkil çəkdirməyə çox şad olurdular. Bütün bunlar göstərirdi ki, "Şurum-Burum"u sevirdilər. Təkcə uşaqlar deyil, böyüklər də onu sevirdilər. Əgər sevilirdisə deməli lazımlı idi. Mən belə düşünürəm.

Bu vaxta kimi "Şurum-Burum" qədər reytinq qazanan uşaq verilişi olmayıbdır. (Bu statistik bir məlumatdır.) Fərman bu verilişi ilə heç bir yerdə belə xatırlanmayan tapmaca janrına yeni nəfəs vermişdi. Dəfələrlə ekrandan tapmaca yarışması keçirmişdir. Dəfələrlə Moskva sirki ilə birgə arenada çıxış etmişdir. O, Milli parkdakı yay teatrında "Şurum-Burum" və uşaqların

Hərbi Dəniz Qüvvələri

# FƏXRİ FƏRMAN

## TƏLTİF OLUNUR

*Aktyor*

***FƏRMAN ABDULLAYEV***

*Hərbi Dəniz Qüvvələrinin şəxsi heyətinin hərbi- vətə*

*tərbiyəsində fəal işt... ...qulluqçular q*

*maraqlı s...*

---

Azərbaycan Respublikası
Daxili İşlər Nazirliyi
Təchizat İdarəsi

...n Respublikası Daxili İşlər Nazirliyinin Təchizat ...rliyi şəxsi heyət adından İdarə kollektivi qarşısında ...-kütləvi tədbirdəki nümunəvi çıxışına görə aktyor ...n Abdullayevə dərin təşəkkürünü bildirir.

Qambay Zeynalov

---

NEW YORK PRODUCTIONS
art is freedom

Sadri Alisik Sk. No:...
Kat:4 Daire:...
Taksim ISTANBU...
TURKEY

...ullayev,

03 October 2008

...r, Azerbaijan

...mpany we would like to thank you for organizing 3 events for us ...rbaijan, September 2008. It was an enriching experience and a joy ...found everyone most helpful, the accommodation was excellent ...great.

...ailer is a very creative initiative. Well done!

...u again in the future.

---

Azərbaycan Respublikası
Təhsil Nazirliyi

Kar uşaqlar üçün 3 saylı
Respublika xüsusi
internat məktəbi

Tel: 423-36-17, 423-36-18

Bakı şəhəri; M.Şərifli küçəsi 3.

"17" dekabr 2007 il

№ 52

Kar uşaqlar üçün 3 saylı
xüsusi internat məktəbinin
direktoru B.Kərimova tərəfindən

13 dekabr Yeni il şənliyinin keçirilməsində fəal çıxışlarına görə aktyor və rejissor Fərman Abdullayeva öz adımdan və bütün kollektiv adından öz dərin minnətdarlığıma bildirirəm.

B.Kərimova

---

AZƏRBAYCAN RESPUBLİKASI
MÜDAFİƏ NAZİRLİYİ
HƏZİ ASLANOV ADINA
MƏRKƏZİ ZABİTLƏR EVİ
"22" 01 2008 il
№ 15
Bakı şəhəri

AKTYOR
FƏRMAN ABDULLAYEVƏ

*Hörmətli Fərman müəllim!*

SİLAHLI QÜVVƏLƏRİN HƏRBİ HİSSƏLƏRİNDƏ MÜTƏMADİ OLARAQ ŞƏXSİ HEYƏTİN ASUDƏ VAXTININ SƏMƏRƏLİ TƏŞKİLİ MƏQSƏDİ İLƏ KEÇİRİLƏN TƏDBİRLƏRDƏ MARAQLI VƏ RƏNGARƏNG ÇIXIŞLARINIZA GÖRƏ SİZƏ DƏRİN TƏŞƏKKÜRÜMÜ BİLDİRİRƏM.

ÜMÜDVARAM Kİ, BUNDAN SONRA DA HƏRBÇİLƏRİMİZ QARŞISINDA MARAQLI PROQRAMLARLA ÇIXIŞ EDƏCƏKSİNİZ.

HÖRMƏTLƏ,

Rəhman SADIQOV
H.ASLANOV adına
MƏRKƏZİ ZABİTLƏR EVİNİN RƏİSİ

iştirakı ilə maraqlı şou proqramları təşkil etmişdir. O, Mərdəkandakı üç saylı uşaq evində xüsusi qayğıya ehtiyacı olan uşaqlarla reabilitasiya məqsədiylə məşğələlər keçirdi (1998-2007). Bu xəstə uşaqlarla professional səviyyədə elə bir musiqili tamaşa qurub hazırlamışdı ki, izləyənlər bu uşaqların əlil olduqlarına inanmamışdılar. AZ TV-də bu tamaşa yayımlanmışdır. Əslində hər bayramda Fərman təmənnasız olaraq bu uşaqlarla görüşür, fərqli-fərqli proqramlarla çıxış edirdi. Oradakı uşaqlar onu artıq tanıyırdılar və çox sevirdilər. Bundan sonra Norveçin iş adamları onun yaradıcılığı ilə maraqlandilar və onun bəzi tamaşalarının hazırlanıb həm Bakıda, həm də digər bölgələrdə göstərilməsinə sponsorluq etmişdilər. Onu, hətta Norveçdə çıxış etməyə belə dəvət etmişdilər. Bu məqsədlə Fərman İngilis dilini də öyrənməyə başlamışdı.

"Şurum-Burumu" Norveçdə də yaxşı tanıyır və sevirdilər. Orada çap olunan "Giver Glayd" jurnalında onun haqqında Toniye E.Steffenzen tərəfindən geniş bir məqalə yazılmışdır. Bu yazıdan sonra Cənab Tore Seierstadın rəhbərlik etdiyi Norveçin Danvik İncəsənət kollecindən 2003-cü ildən sonra hər il Fərmanla bir qrup Norveçli tələbə müəyyən vaxtlıq aktyor sənətindən dərs alırdılar. Fərmanın Norveç, Finlandiya, Amerika, Koreya, Cənubi Afrika, Almaniya, İngiltərə, Hindistan, İran və Niderlanddan olan dostları onun sənətinə görə ona çox dəyər verirdilər.

Onun yarımçıq qalmış arzularından biri də, uşaqların göndərdiyi tapmacaları toplayıb, göndərənlərin adlarını saxlamaq şərtiylə kitab şəklində çap etdirmək idi.

Qeyd etməyə bilmərəm ki, hal-hazirda Rusiyadan yayımlanan İNTER AZ. telekanalını açmaq üçün ilk ezam olunanlardan biri də Fərman idi. O, 2003-cü ildə Moskvada yeni açılan bu kanalda qısa müddət fəaliyyət göstərsə də , açılmasında səylə çalışanlardan biri idi.

Fərmanın teatr, televiziya, radio sahəsindəki fəaliyyətindən əlavə, yadda qalan filmləri də var. Onun ilk debütü 1986-cı ildə kino rejissor Fərhad Yusifovun çəkdiyi "Aşkarsızlıq şəraitində" filmidir. O bu filmdə əsas obraz olan müsrəntiq rolunu oynayır. Bu obrazı çox səmimi, inandırıcı oynayır. Bu filmdən sonra ardıcıl olaraq "Ölümə dəvətnamə"- əmioğlu, "Zirzəmi"- rəssam, "Vokant yer"- musiqiçi, "İstanbul reysi", "Otel otağı"- ofisiant, "Həm ziyarət, həm ticarət"- qardaş, "Sarı gəlin"- Samvel, "Fransız"- fransız, "Yalan"- çoban rollarında və bir sıra kino və televiziya filmlərində çəkimişdir. Çəkildiyi filmlərin əksəriyyətində baş rolları ifa etmişdir. Filmlərdə yaratdığı rollarının hamısını müvəffəqiyyətli hesab etmək olar. Fərmanın yaratdığı bu obrazlar bir-birindən təmamilə fərqli olmasına baxmayaraq, onun təcrübəsi, bacarığı



və istedadı sayəsində sevilən, təbii, tamaşaçılar tərəfindən qəbul edilən və yaddaqalan olubdur.

***Hər dəfə tamaşaçılar bizim necə tanış olmağımızla maraqlanırlar. Bunu nəzərə alaraq bir az bu haqda yazmağı qərara aldım.***

Mən 1982-ci ildə İncəsənət İnstitutunun dram-kino aktyorluğunu bitirib, bir qrup tələbə yoldaşlarımla birgə teatrlar arasında ən yaradıcı teatr olan Şəki Dövlət Dram Teatrına təyinatla işləməyə gəlmişdim. Əslində bu teatrın kollektivini , xüsusilə Fərmanı bizim institutun məzunları yaxşı tanıyırdılar. O, artıq teatr aləmində yetərincə tanınan bir aktyor idi. Mən hələ orta məktəbin yeddinci sinfində oxuyarkən S. Qədirzadənin “Şirinbala bal yığır” komediyasında (Rəcəb) Fərmanın oyununa baxmışdım. Bir aktyor kimi onu tanıyırdım. İnstitutda oxuyarkən Şəki teatrı Bakıya qastrola gəlmişdi. Aktyorluq fakultəsinin tələbələri olaraq onların tamaşalarını izləyib, müzakirə edirdik. Mən ilk dəfə Fərman haqqında bu müzakirələrdə eşitmişdim. O vaxt o hələ çox gənc idi. Onun haqqında dahi aktyor, məhşur aktyor, istedadlı aktyor, fərqli aktyor kimi fikirləri eşitmişdim. Ən çox Fərmanın oynadığı rollar, onun plastikası, texnikası, ustalığı hamının marağına səbəb olmuşdu. Hətta teatrın truppası ilə tələbələr arasında görüş də keçirildi. Mən Fərmana böyük bir











sənətkar kimi baxırdım. Nə vaxtsa onunla ailə quracağımı təsəvvürümə belə gətirməzdim.

Yadımdadır: İki-üç gün idi ki, teatrda işə başlamışdıq, teatrın foyesində üzbəüz gəldik. O salam verdi, mən də salamını aldım. Amma o, mənə aidiyyəti olmayan suallar verməyə başladı. Mən öz-özümə düşünürdüm ki, yəqin o çoxdan ailəlidir. Yaxşı aktyordur, amma yaxşı insan deyil. Hər dəfə məni görəndə yersiz söhbətlərlə uzun uzadı danışmaq istəyirdi. Mənim onun bu hərəkətlərindən heç xoşum gəlmirdi. Bu səbəbdən də çalışırdım ki, ondan uzaq gəzəm, gözünə görünməyəm. Həmişə də o, gözlənilməyən yerdən mənim qarşıma çıxırdı. İşə başladığımız gündən mənim əvəzimə hamıya cavab verirdi, mənim əvəzimə hər şeyi həll edirdi. Mən təəccübümü bildirəndə mənə "narahat olmayın, hər şey əladır" deyirdi. Heç bir ay olmazdı ki, biz birlikdə işləyirdik, mənə yaxınlaşdı ki, anamla bacım bu gün səninlə tanış olmaq üçün teatra gələcəklər. Məəttəl qaldım ki, bu nə deməkdir. Özü hər şeyi mənsiz planlaşdırıb, həyata keçirirdi. Getdikcə onun özündən baş açmasam da, oynadığı rollarının vurğunu olurdum. Səhnədə o bambaşqa bir şəxsiyyət idi. Mənim üçün iki standart Fərman var idi. Gənc Şəkili oğlan Fərman, istedadlı aktyor Fərman. Doğrudan da onun istedadına biganə olmaq mümkün deyildi. İlk olaraq mən onun sənətinə vuruldum. Sonra özünü tanımağa başladım. Onu yaxından tanıdıqca həyata baxışım dəyişirdi. Mən anlayırdım ki, o çox böyük insandır. Maraqlı, fərqli bir gəncdir. Tanış olduqdan səkkiz ay sonra el adəti

ilə nişanlandıq, bir ilə də ailə qurduq. Əlbəttə, mənim bəxtim gətirmişdi ki, belə bir maraqlı insanla ömür sürürdüm. O, təkcə sənətkar olduğu üçün deyil, ümumuyyətlə, onun dünyaya baxışı çox fərqli idi. Hərəkətinin yerini bilən, mənə qarşı çox diqqətli, qayğıkeş idi. Onun söylədiyi hər söz əsaslı, məntiqli idi. Mən onunla birlikdə olarkən özümü çox rahat, qayğısız, etibarlı, arxalı, təhlükəsiz hiss edirdim. İndi mənim üçün çox çətindir, çünki mən hər şeyi onunla məsləhətləşərdim, onsuz qərar verməzdim. O, mənə həmişə düzgün yol göstərirdi. Həyatının hər anı kimi bu anı da qeyri-adi oldu. Gözlənilmədən onsuz qaldım. Mən onu tanıyandan bəri heç bir gün belə xəstələnməyən insan, birdən-birə bu ağır xəstəliyə tutuldu. Heç vaxt dərman qəbul etməyən insan, birdən-birə ağır dərmanlar, kimya terapiyaları qəbul etməli oldu...

Otuz illik ailə həyatımın hər günü mən onunla fəxr eləmişəm. Heç vaxt ona görə utanıb, təəssüf hissi keçirməmişəm. O, çox mərd, düzgün, halallıq sevən, etibarlı, ailəcanlı, gözütox, savadlı, mədəni, uzaqgörən, ədalətli, alicənab, çox pozitiv insan idi. Həmişə inkişafa, tərəqqiyə, yeniliyə can atırdı. Yalan, paxıllıq, xəyanət ona yad olan sifətlər idi. Övladlarının hər ikisini də bu cür böyütdü. Hər ikisindən: Edqardan da, Elvindən də də razı idi. Şükür Allaha ki, 2007-ci ildə böyük oğlumuz Edqarı evləndirmişdik. Yaxşı ki, nəvələrini: Türkanla, İsanı görmək, onlarla az müddət də olsa sevinmək ona nəsib oldu. O, nəvələrini, nəvələri də onu həddindən artıq çox istəyirdilər. Nəvələri hələ də onu xatırlayır, haqqında danışırlar. O, ailəmizin ən dəyərli və sevimli üzvü idi... Çox təəssüf...







МЕТЕОР





# YADDAŞLARDA YAŞAYAN SƏNƏTKAR

***Azərbaycan xalq Artisti, rejissor Cənnət Səlimova:***

Fərman kim idi? Şəxsən mənim üçün 1982-ci ilə qədər Fərman hansısa bir işi ilə fərqlənməyən, sıradan olan gənc bir aktyor idi. Amma o zamanlar onun adı çox böyük perspektivi olan bir gənc kimi tez-tez hallanırdı. Həm də sonralar bildim ki, istedadlı rejissor Vaqif Abbasovun, Əməkdar incəsənət Xadimi Hüseynağa Atakişiyevin Şəki Dövlət Dram Teatrında istedadına və parlaq gələcəyinə ən çox inandıqları birisi imiş. Doğrudan da sonralar bu təxmin özünü doğrultdu. Fərman sözün əsl mənasında Şəki Teatrının ən kreativ və aparıcı aktyoruna çevrildi. Onun oynadığı hər bir obraz tərifə layiqdir. Onun Şekspirin "Kral Lir"indəki Təlxəyi, R.Stayanovun "Ustalar"ındakı Şər obrazı, Dürrematın "Meteor"undakı B.Brextin, Aytmatovun əsərlərindəki obrazları, Şekspirin "Romeo və Cülyetta"sındakı Merkusio, Kristofor Marlonun "Böyük Teymurləng"indəki Teymurləngi, M. F. Axundzadənin "Lənkəran xanın vəziri"ndəki Vəzir obrazı həqiqətən yaddaşlarda iz qoymuş əsərlərdir. Onlar nəinki yaddaşlarda, teatr tariximizdə iz qoymuş əsərlərdir. Heç bir kəs Fərmanın oynadığı obrazları bu cür bitkin oynaya bilməzdi. Onun oynadığı obrazlara artırılmalı, düzəliş verilməli heç nə qalmırdı. Ancaq izləyib həzz almaq qalırdı. Onun obrazlara xüsusi yanaşma üslubu var idi. O sözlə plastikanın vəhdətini emosiyalarda cəmləyib, tamaşaçıya təqdim edirdi. Həm də çox düzgün, çox peşəkarcasına. Çox təəssüf, çox! Biz yetərincə ondan istifadə edə bilmədik! Biz, yəni mən həm sənət adamlarını, həm də tamaşaçıları nəzərdə tuturam. Artıq qiymət verməyi öyrənməliyik. Bəsdir itirdikdən sonra təəssüflənmək! Bəsdir həyatdan köçəndən sonra haqqında tərifli sözlər söyləmək! Sağlığında insana dəyər verməyi, qədrini bilməyi öyrənməliyik.

1982-ci ildə Azərbaycan Teatr tarixində ilk dəfə "Mono festival" keçirilirdi. Mənim üçün də bu tamaşaları izləmək maraqlı idi. Mən Fərmanı burada kəşf etdim. Onun oynuna heyran oldum. V.Şekspirin "Hamlet" əsərinin motivləri əsasında özünün yazdığı "Olum, ya Ölüm" mono tamaşasında onun

zəkasına, yazmaq bacarığına vuruldum. O vaxt Fərman çox gənc idi. İyirmi yeddi yaşlı gəncin belə dolğun bir psixoloji drammatik əsəri yazması üçün yüksək elmi bazası, yüksək intellekti, istedadlı yazıçılıq qabiliyyəti ən əsası da həyat təcrübəsinin olması lazım idi. Gənc olmasına baxmayaraq, bütün bu keyfiyyətlər Fərmanda cəmləşmişdi. Yazmaq bir yana, bəs bu çətin psixoloji vəziyyəti oynamaq?! Fərman, əsərindəki həyat yoldaşı tərəfindən körpəsi ilə bərabər tərk olunaraq, evdən qovulmuş bədbəxt aktyoru necə böyük ustalıqla oynayırdi. Heyrətamiz idi. Tamaşaçı da onunla bərabər bu vəziyyəti yaşayırdı. Onun aktyorluq qabiliyyəti təmamilə fərqli bir üslub idi, hansı kı, öz tapıntısı idi və bundan müvəffəqiyyətlə yararlanırdı. O, obrazının ən incə məqamlarını ustalıqla nümayiş etdirərək, bütün çılpaqlığıyla tamaşaçıya ötürməyi bacarırdı. Və haqlı olaraq o, bu festivalda ən yüksək mükafatı "Qran pri"-ni qazandı.

Bundan sonra mən onun yaradıcılığını izləməyə başladım. O, ardıcıl olaraq bir neçə dəfə festivallarda birinci yeri tutmuşdu. Bu məni sevindirirdi. Çünki bilirdim ki, Fərmanın bizim teatrımızda xüsusi yeri olacaqdır. O, böyük potensialı olan bir aktyor idi. Aktyora lazım olan hər bir şey onda var idi: plastika, orqanika, bilik, fantaziya, impravizasiya.

Mən onu necə görürdüm? O, bu Dünyaya sığmırdı. Onun öz dünyası var idi. Onun o qədər geniş yaradıcılıq imkanları var idi ki... Onun üçün "Bəsdir, bu qədər!" fikri yad idi. O qədər enerjisi var idi ki, işləməkdən yorulmurdu... O, əvəzolunmaz bir sənətkar idi. O, heç bir teatra sığmırdı. Doğrudan da onun öz teatrı olmalı idi. Necəki o özü bunu istəyirdi. Aktyorları da xüsusi olmalı idi, özü kimi! O, bunun üçün çox çalışırdı.

Fərman kimi aktyorlara hər dövrdə ehtiyac var. O, yaratmaqdan doymayan, yorulmayan bir aktyor idi. Əbəs yerə deyildi ki, ardıcıl olaraq festivallar laureatı oldu. Bütün bu müvəffəqiyyətləri o, dəyərli sənətiylə qazanmışdı. Əslində bunlar Fərmanın sənətinə verilən çox kiçik dəyərlər idi, o daha yüksək qiymətləndirilməli idi.

Biz hərdənbir görüşürdük. Onun həmişə çox orijinal ideyaları var idi. Əsil yaradıcı insan idi. Onun düşüncə tərzi həmişə təəccübləndirirdi. Fantaziyası, qeyri-adi ideyaları, tapıntıları, traktovkaları, kontekstləri... Sanki o, bu dünyadan deyildi. Yaradıcılıq prins və metodları da fərqli, amma maraqlı idi. Öz obrazlarını dəqiq, təmiz, bitkin bir heykəltaraş kimi yaradırdı. Sözün əsl mənasında, Fərman kimi dahi bir aktyoru yaddaşlardan silmək böyük itki, hətta günah ola bilər. O, heç bir tərəddüd edilmədən dünya arenasına çəsarətlə çıxa biləcək bir aktyor idi. Belə aktyorlar bugünkü teatrlarımızda çox azdır. Əgər Fərmanın qayğısına qalıb, ona imkan yaradılsaydı, Fərman hələ çox əsərlər yaradardı.

O, çox yeniliklərlə bizi təəccübləndirib. Daim axtarışda idi.

Monotamaşaları, Eksperimental tamaşaları... Bu tamaşaların festivallardakı uğurları. Müəllifliyindən əlavə tamaşalara maraqlı quruluşlar verməsi. P.Terrininin "Mişovul ovu" əsərini hətta film kimi çəkməsi. Onun "Cəllad" əsərinə görə "Sənət Fədaisi" adına layiq görülməsi və s. O, özünün yazdığı və 1990-cı ildə tamaşaya qoyduğu "Dahi" əsəri ilə pantomima janrını Azərbaycan teatrına gətirir. Əsər Fərmanın rejissorluğu ilə başdan axıra qədər pantomima üzərində qurulmuşdur. Ən təəccübləndirəni odur ki, gənc olmasına baxmayaraq peşəkar aktyor, peşəkar rejissor, peşəkar dramaturq kimi özünü təsdiq etdirmişdi. Doğurdan belə əsərləri yazmaq üçün uzun ömür, həyat təcrübəsi yaşamaq lazım idi. Bütün bunlardan əlavə onun yaratdığı " Təlxək", "Merkusio", "Vəzir", "Teymurləng" kimi nəhəng obrazlardan sonra uşaq obrazı "Şurum-Burum". Bütün bunlar Fərmanın peşəkar, yaradıcılıq potensiyalının və azadlığının, nə qədər bol olmasını göstərir. Onun yaradıcılğının sərhəddi yox idi. O, hansısa bir ampluayla məhdudlaşmış aktyor deyildi. Hər bir janrın öhdəsindən böyük ustalıqla gələ bilirdi. Sevilə və sevdirə bilirdi. Əsl peşəkar idi.

Televiziyadakı fəaliyyəti haqqında deyə bilərəm ki, onun yumoristik səpkidə olan verilişləri də tamaşaçılar tərəfindən çox sevilirdi. Çünki orada da özünəməxsusluq var idi. O, filmlərdə də bir-birindən fərqli çox kalaritli, sevimli obrazlar yaradıb. Yaratdığı hər bir obrazı Fərman kimi, mükəmməl yaradırdı. Doğrudan da onun pis işi yoxdur. O, azərbaycan tamaşaçıları tərəfindən yetərincə tanınan və sevilən bir aktyordur.

Görünür, biz Fərmanı belə tez itirəcəyimizi ağlımıza gətirmirdik. Məni ən çox təəssüfləndirən odur ki, Fərman yetərincə dəyərləndirilmədi.

Ona "Allah rəhmət eləsin" deməyə dilim gəlmir. O, bunun üçün hələ gənc idi. Onun həyatı belə yarıda bitməməli idi. Çox təəssüf! O, yaratmaq eşqiylə alışıb yanırdı. İndi başa düşürəm ki, nə üçün onda bu qədər yaratmaq istəyi var idi? ! Sən demə, bizləri, sənətini tez tərk edəcəkmiş. Hələ onun bizə, tamaşaçılara təqdim edəcək çox işləri var idi! Biz onu unuda bilmərik, buna haqqımız yoxdur. Onu yaxşı dost, istedadlı həmkarımız kimi həmişə xatırlayacağıq.

***Azərbaycan Respublikasının xalq artisti, Akademik Milli Dram Teatrının aktyoru Fuad Poladov:***

Mən Fərmanı lap gənc yaşlarından tanımışam. Mənim Fərmana bir istedadlı aktyor kimi böyük hörmətim var idi. O bizim yaxın dostumuzdur. Onun

haqqında keçmiş bir xatirə kimı danışmaq məni mütəəssir etməyə bilməz. Onun kimi aktyorlara teatrlarımızın böyük ehtiyacı var.

İlk dəfə mən Fərmanı 1976-cı ildə S. Rəhman adına Şəki Dövlət Dram teatrının Bakıya qastrolu zamanı M. F. Axundzadənin "Müsyö Jordan və Dərviş Məstəli Şah" tamaşasındakı Fransız obrazında görmüşəm və çox xoşuma gəlmişdir . Onun oyun tərzi, onun istedadı, onun qabiliyyəti hamı kimi mənim də diqqətimi çəkmişdir. Bu vaxtdan sonra mən maraqlı yaradıcılıq dəst-xətti olan istedadlı gənc aktyor kimi Fərmanı həmişə izləyirdim. Teatr aləmində bir- neçə aktyor var idi ki, onların oynadığı obrazlar həmişə yaxşı mənada maraqlı disskusiyaya səbəb olurdu. Bunlardan biri də Fərman idi. Onun yaradıcılıq üslubu, obraza yanaşma tərzi çox maraqlı idi.

Adətən obraz üzərində işləyərkən onun psixoloji tərəfinə daha cox diqqət yetirməsini vacib sayırdı. Fərmanı fərqləndirən ən əsas cəhət bu idi ki, o obrazlarını həm də ona uyğun plastikası ilə tamamlayırdı. Bu onda çox gozəl alınırdı. Hər dəfə biz onun yeni tamaşalarına baxanda maraqlı yeni bir şey görəcəyimizə əmin idik.

O, mənim üçün başqalarından plastik bir aktyor olması və obrazlarının bitkinləşməsi üçün uyğun olaraq ondan necə ustalıqla istifadə etməsi ilə fərqlənirdi. Onun obrazlarını yaddaqalan və daha maraqlı edən, onun rola uyğun olaraq plastikanı düzgün tapması və yerində düzgün istifadə etməsi idi. Plastika və sözün vəhdəti onun yaratdığı obrazları daha da mükəmməl edirdi.

Fərman bizim teatrımıza gərəkli idi, teatrımızda özünəməxsus yeri olan bir aktyor idi. 1979-1993-cü illəri onun üçün ən məhsuldar illər hesab etmək olar. O, festivallarda hər dəfə bir-birindən maraqlı tamaşalarla iştirak edirdi. O, dəfələrlə monofestivalların, eksperimental tamaşalar festivalının laureatı olmuşdur. Mən onun hər bir tamaşasından sonra hər dəfə səhnə arxası onu şəxsən təbrik edirdim. Onun müvəffəqiyyətlərinə çox sevinirdim, çünki o buna layiq idi. Bizim bir-birimizə qarşılıqlı hörmət və səmimi münasibətimiz var idi.

Hansı obrazı yaradırdısa öz dəst-xətti ilə: maraqlı, fərqli, koloritli, tamaşaçıya zövq verən, Fərmansayağı möhürləyirdi. Onun geniş fantaziyası və yaradıcılıq potensialı onu heç vaxt darda qoymurdu. Yeniliklər etməyi sevirdi. Onun pis işi yox idi.

Uzun müddət Şəki teatrında fəaliyyət göstərdikdən sonra onun Bakıya dəvətlə olsa belə gəlişi, yaradıcılığında böyük bir dönüş yaratdı və mən deməzdim ki, bu müsbətə doğru oldu. Sonralar bu onun səhhətində özünü göstərdi.

Əslində biz çox tez-tez görüşmürdük. Tədbirdən tədbirə görüşərdik, hərdənbir zəngləşərdik. Bir-birimizə böyük rəğbət bəsləyən sənət dostları idik.

O, son dərəcə öz işinə qarşı diqqətli, ciddi və punktual idi. Onun hər hansı bir əsərin traktovkasına başqa aspektdən yanaşma tərzi tamaşaları maraqlı və fərqli edən cəhət idi. Bu baxımdan onun mənə etdiyi iş təklifinə razılıq vermişdim. O, V.Şekspirin III Riçard əsərini birlikdə işləməyi təklif etmişdi. Bununla əlaqədar Az. Dramanın direktoru İsrafil İsrafilov ilə görüşüb, söhbətlər aparmışdıq. Artıq məşqlərə başlamaq qərarına gəlmişdik. Elə bu ərəfədə eşitdik ki, Fərman xəstələnib. Tez-tez zəng edib, səhhəti ilə maraqlanırdım. Xəstəliyinin ciddi olduğunu biləndə, Az. Teatr Cəmiyyətinin direktoru Azərpaşa Nemətova bildirdim ki, zəng edib Mərkəzi Ankoloji Xəstəxanaya Fərmanı dəqiq, daha diqqətlə müayinə və müalicə etmələrini tapşırsın. Sağ olsun Azərpaşa müəllim belə də etdi. Buna görə özü də hər ikimizə çox minnətdar idi. Onun bu vaxtsız xəstəliyinə mən çox təəssüf edirdim, çünki doğrudan Fərmanın hələ qarşıda çox yaradıcılıq planları var idi. O, özünü realizə etməyə imkan tapmadı. Onun çox maraqlı ideyaları vardı. Çox bacarıqlı idi, amma heç bir teatrda fəaliyyət göstərmirdi. Bunun səbəbini bir neçə dəfə soruşmuşdum, hər dəfə də o, bu suala cavab verməkdən yayınırdı. Mən daha soruşmadım. Düşündüm ki, yəqin bir səbəb var, ya da onun özünün başqa planları var.

Axır vaxtlar mən onda teatrlaramı, rejissorlaramı qarşı bir inciklik hiss edirdim. Düzdür, o, istedadlı idi. Heyif ki, bizim sənətimizdə bu qaçılmazdır ki, hər bir aktyor rejissordan bir növ asılıdır. Onu da deyim ki, Fərmanın imkanlarından teatr rejissorları yetərincə istifadə etmədilər.

Biz ondan daha çox şeylər gözləyirdik. Çünki o, çox şeylər etməyə qadir idi. Buna onun talantı və potensialı imkan verirdi. Ona nə mane oldu ki, o belə ruhdan düşdü, dayandı? Mənim üçün bir sirr olaraq qaldı. Mənim sənət dostum Fərman əvəzolunmaz aktyor idi! Ruhu şad olsun!

***Azərbaycan Ziyalılar İttifaqının Sədri Eldəniz Quliyev***

Dostum Fərman haqqında fikir bildirmək onu tanıyanların hər biri üçün şərəfdir. Əvvəla onu qeyd edim ki, Fərman Azərbaycan teatr və estrada sənətinə orijinal və təkrarsız eksentrik, fağır, eyni zamanda təmiz bir İNSAN obrazı bəxş etdi. Fərman qeyri populyarlıqdan çəkinmədən, ona qədər olan bir çox aktyor streotiplərini sındırdı və ifa üslubunu "həyata bənzər" likdən "sənətə bənzər"lik mərhələsinə yüksəldə bildi. Sən demə, yalan olduğunu, oyun oynanıldığını bilib də, inanmaq, qəbul edib katarsis keçirmək mümkünmüş! Bax, Fərman Abdullayev aktyorluq sənətinə bu estetikanı gətirdi. Həm bir

insan, həm də bir sənət fədaisi kimi. Axı o Azərbaycanın həqiqətən də "Sənət Fədaisi" fəxri adını özü halalca haqq etmişdi. Fərman istər kloun qiyafəsində, istər sadə insan rolunda, istərsə də rejissorluq təcrübələri apararkən, həmişə orijinal, həmişə qəribə dünyaduyumlu ağıllı şəxsiyyət təsiri bağışlayırdı. Və bu, həqiqətən belə idi. Nə edirdisə ürəkdən edirdi, az qala yüz faiz özünü müqəddəs saydığı işinə, sənətinə qurban verir və bütün bunları tam təmənnasız edirdi!... Elə bil şam olduğunu və bu missiyanın ona Tanrı tərəfindən tapşırıldığını sövq-təbii surətdə duyur... tələsirdi, tələsirdi. Elə bil qorxurdu, qorxurdu ki, tapşırığı yerinə yetirməyə ömrü çatmayacaq...

Məncə qibtə ediləcək intellektə, dərin dünyagörüş və savada malik, eləcə də uşaq kimi sadəlövh və təmiz qəlbli Fərman Abdullayev Azərbaycan teatr və kinosevərlərin xatirində həmişə VAR olacaq.

Biz hamımız, o cümlədən mən, Fərmanın ruhu qarşısında borcluyuq. Bu gün onun yeri qaysaq bağlamış yaranı xatırladır, yada saldıqca ağrıdır... Fərman yaşamalıydı, yaratmalıydı . Allah qəbrini nurla doldursun! Amin!

***Bakı şəhəri 56 saylı tam orta məktəbin direktoru Hicran Qəhrəmanova:***

Mən Bakıda yaşamağıma baxmayaraq, Şəkini çox sevirəm, oraya çox bağlıyam. Şəkidə yeddi yaşıma qədər yaşasam da, tez-tez orada oluram. Ora mənim vətənimdir. Şəkiylə bağlı olan hər şey mənim üçün maraqlıdır. Xüsusi ilə də mənim sevimli aktyorum Fərman Şəkilinin aqibəti. Mən onun pərəstişkarı idim və onun yaradıcılığını mütəmadi izləyirdim. Onunla bütün Səkililər fəxr edirdik. Onun müvəffəqiyyətlərinə sevinirdik. Birdən birə biz Fərmanı ortalıqda görmədik. Ara-sıra hansısa televiziya verilişində gecdən gec görünərdi. Təəccüblü idi.

Fərman bütün Şəkililərin sevimlisi və fəxridir. Elə bir şəkili tapılmaz ki, onu tanımasın. Mən Fərmanı lap gənc yaşlarından tanıyırdım. Hər dəfə Şəkiyə gedəndə onun tamaşalarına baxırdım. Ümumiyyətlə, Şəki camaatı teatr sevəndir. Xüsusilə də Fərmanın tamaşalarını həvəslə izləyirdilər. Mən də o cümlədən. Biz həmişə afişada Fərmanın adını axtarırdıq. Doğrudan da onun iştirak elədiyi tamaşalar maraqlı olurdu, ona görə də zal tamaşaçılarla dolu olurdu. Onun oynadığı rollar hələ də yadımdadır. Şəki teatrında istedadlı aktyorlar çoxdur, amma Fərmanın yerini heç kəs verə bilməz. O, Şəki teatrının gözü idi. Çoxları Fərmanın Şəki teatrından gedişinə təəssüflənirdilər. Həqiqətən də elə bil teatrın dadı-duzu tamam getmişdi. Mən düşünürdüm ki, Bakıya gəlməsi Fərmanı daha da ucaldacaq. Amma, deyəsən belə olmadı.

Təzə gələn vaxtlar onun iştirakı ilə televiziyada cürbəcür verilişləri izləyirdim. Həqiqətən də sevinirdim. Xüsusilə Şəki lətifələri haqqında olan verilişlərinə baxanda elə sevinirdim ki... Düşünürdüm ki, O Şəkiyə, onun folkloruna nə qədər dəyər verir. Ancaq yurdunu, xalqını sevən, uzaqgörən adam belə onun dəyərlərini bütün ölkədə tanıtmaqla məşğul ola bilər.

Ancaq onu sevənlərin onun xəstə olmasından xəbəri yox idi. Bu məni çox incitdi. On bir ay ağır xəstəlikdən əziyyət çəkən Fərman kimi dəyərli bir aktyor haqqında mediada heç nə deyilməməsi ağlasığmazdır. Hətta dünyasını dəyişməsini də sakit qəbul etdilər. Belə bir sənətkarın vaxtsız aramızdan getməsi sakit deyil, səs-səda doğurmalı idi. O, dünyasını dəyişmək üçün hələ cavan idi. O, lazımı qurumların laqeydliyindən, depressiyaya düşərək, bu dərdi tapdı, bu dərəcəyə gəlib çıxdı. Dünyasını dəyişməzdən bir il əvvəl olardı, mən onu küçədə bir-neçə dəfə görmüşdüm. Çox fikirli, başıaşağı, elə bil bütün dünyanın dərdi onun çiynində idi. Ailəsini tanımasaydım onun bu vəziyyətinə görə onları günahlandırardım. Mən bilirəm ki, ailə tərəfdən onun bəxti gətirmişdi. Çox mədəni ailəsi, qanacaqlı, nümunəvi, savadlı uşaqları var. Onun nigarançılığı ancaq sənətiylə bağlı idi. Onu sevənlərin hamısına bəlli idi ki, axır vaxtlar onu axtarmırdılar. Aktyor üçün yaradıcılıqdan kənar, durğun həyat tərzi dözülməzdir. Əlbəttə, hər kəs onu başa düşə bilməzdi. O, dahi sənətkar, böyük insan idi.

Şəkidən çıxan məhşur adamlar çoxdur. M. F. Axundzadə, Sabit Rəhman, Lütfəli Abdullayev, Emin Sabitoğlu, Bəxtiyar Vahabzadə, Şəfiqə Axundova, Rasim Ocaqov və başqaları. Mən bir ziyalı kimi Fərman Abdullayevin də bu sırada adının çəkilməsini uyğun görürəm. Çünki o, böyük sənətkar idi. O, ulduz sənətkarların sırasında olmağa layiq olan bir aktyor idi. "İncəsənət xalqa məxsusdur"- deyirlər. Bu xalqın bir nümayəndəsi də mənəm. Mən və mənim kimi minlərlə ziyalı insan Fərmanı ən yüksək zirvələrə layiq bilirik. Onun rəsmi olaraq hər hansı bir titulunun olmamasına baxmayaraq, biz onu Bizim artistimiz, Xalqın artisti hesab edirik! Onun teatrdan əlavə filmlərdə yaratdığı obrazları, uşaqlar üçün yaratdığı sevimli "Şurum-burum" obrazı nə qədər insanlara sevinc bəxş edirdi. Onun Şəki üçün etdikləri heç vaxt yaddaşlardan silinməyəcək. O Şəki lətifələrini xalqa sevdirməyi bacardı. Şəkini daha da tanıtdı. Heyif ki, sağlığında yetərincə onun qayğısına qalmadılar, qədrini bilmədilər, dəyər vermədilər. Əgər dəyər verilsəydi, inanıram ki, Fərman hələ çox yadda qalan obrazlar yaradardı, çox işlər görərdi. Buna onun potensialı çatırdı. Şəkini Azərbaycanda tanıtdığı kimi, eləcə də Azərbaycanı bütün dünyada tanıtmağa qadir olan bir aktyor idi.

Allah sənə rəhmət eləsin! Ruhun şad olsun! Sən bizim hamıya gülüş bəxş

edən ölməz sənətkarımızsan! Nə qədər bizim ömrümüz olacaqsa, sən bizim qəlbimizdə daim yaşayacaqsan!

***Şəki Dövlət Dram Teatrının aktyoru Xanlar Haşımzadə:***

İnsan var ki, dünyadan köçəndə onun ölümünü qəbul eləyirsən, adi qarşılayırsan, yoxluğu ilə barışırsan, Allah bilən məsləhətdir deyib, özünə təskinlik verirsən, Tanrıdan ona rəhmət oxuyub getdikcə sakitləşirsən. Amma bu sözləri Fərman haqqında söyləmək, Allah bilən məsləhətdir deyib, onun yoxluğu ilə barışmaq mümkün deyil. Əksinə, içimdə Allaha qarşı bir etiraz var... Çünki o Fərmana qıymamalıydı... Çünki Fərman ölümə layiq insan deyildi. Fərman o qədər enerjili, həyatsevər, çılğın, istedadlı, işgüzar, zarafatcıl, ürəyi arzularla dolu bir oğlan idi ki, onun həyatdan getməsini heç cür qəbul edə bilmirəm. Üstündən bu qədər vaxt ötsə də, mənə elə gəlir ki, o zarafat eləyir, haradasa buralardadı, bir gün yolda qabağıma çıxacaq, ya da hansısa bir çayxanada yekə bir çayniki qabağına qoyub çay içən görəcəyəm. Axı o çox çay içən idi, özü də qəndsiz...

Mən Fərmanı Şəki İpək kombinatının klubunda açılan dram dərnəyində tanımışdım. Mən orta məktəbi bitirdikdən sonra kombinatda işləyirdim. Fərman isə bir gürcü yol mühəndisi ilə işləyirdi. İşdən sonra hər ikimiz dərnəyə gəlirdik. Elə ilk günlərdən mən Fərmanı yaşının az olmasına baxmayaraq, həyat haqqında artıq öz fikri olan istedadlı bir oğlan kimi tanıdım. Sonra əsgəri xidmətə getdik. Fərman əsgərlikdə xidmət vaxtı qolunu ağır zədələdiyi üçün ordudan tərxis olundu. Elə o vaxtlar Şəkidə dövlət dram teatrı açıldı. Mərhum, çox istedadlı rejissor V. Abbasov bu teatra baş rejissor təyin olundu. Vaqif müəllim Fərmanı teatra qrimyor vəzifəsinə işə götürdü. Mən ordudan qayıdandan sonra hər ikimiz kütləvi səhnə aktyorluğuna qəbul olunduq. Adətən kütləvi səhnə aktyorları rejissor tapşırığını yerinə yetirir, özlərindən heç nə gətirmirlər. Fərman isə S. Vurğunun „Komsomol poeması"nda yaratdığı qaçaq obrazı ilə Vaqif müəllimin rəğbətini qazandı və aktyor dərəcəsi aldı. Rejissor ona səhnədə adicə bir qaçaq kimi oturmaq tapşırığı vermişdi. Fərmanın obrazı səhnədə bitlənməyə, qaşınmağa başladı. Bu da həmin qaçağın öz evindən çoxdan ayrıldığına, uzun müddət yuyunmamasına işarə idi. Sonra əsir alınmış Gülcamal onun yanından ötüb su gətirməyə gedərkən Fərmanın obrazı Gülcamalı görüb ona baxmamağa çalışsa da özünü saxlaya bilməyib qızın üstünə cumur və Gəray bəy tərəfindən güllələnir. Fərman bu rolu o qədər canlı oynadı ki, o obrazın balaca epizod olması yaddan çıxdı...

Fərman az müddət ərzində tamaşaçıların sevimlisinə çevrildi. Tamaşaçılar tamaşaya gələrkən Fərmanın tamaşada oynayıb-oynamaması ilə maraqlanırdılar. Biləndə ki, Fərman da oynayır, çox məmnun olurdular. Allah istedadı Fərmana hərtərəfli vermişdi. Onda gözəl aktyorluq bacarığı olmaqla bərabər, həm də rejissorluq qabiliyyəti vardı. Bundan başqa Fərmanın yazdığı bir neçə dram əsəri onun dramaturqluq talantını da üzə çıxardı. Onun yazılarını oxuyanların hamısı Fərmanın gözəl fantaziyaya malik olduğunu qeyd edirdilər.

1992-ci ildə respublika paytaxtında keçirilən monotamaşalar festivalında Şəki teatrı Fərmanın yazdığı iki tamaşa ilə çıxış edirdi. Bunlardan biri „Hamlet" əsəri, arvadının körpə uşağını üstünə atıb getdiyi bir aktyorun iztirablarından, „Əyri ağac" əsəri isə qayğısız bir qoca tabutçunun həyat tərzindən bəhs edirdi. Fərman „Hamlet" tamaşasında aktyoru, mən isə Fərmanın özünün yazdığı „Əyri ağac" da qoca tabutçunu oynayırdım. İşin çətinliyi onda idi ki, biz festivala yollanarkən Fərmanın oynayacağı „Hamlet" tamaşası hələ hazır deyildi. Bu tamaşanı festival günlərində, bir neçə gün ərzində gözəl aktyor və rejissor Cahangir Novruzov Fərmanla qurmalı idi. Cahangir müəllim Fərmanın bu yazısına çox həssaslıqla yanaşdı. (Fərmanın yazdıqlarını oxuyanların hamısı onun yazdıqlarına Cahangir müəllim kimi diqqət göstərsəydilər, bəlkə Fərman bir dramaturq kimi də püxtələşə bilərdi... ) Mən məşqlərdə oturub onların bu tamaşa üzərində necə iştahla, canfəşanlıqla işləmələrinə baxırdım. Cahangir müəllim əsərin hər sözünün, hər cümləsinin üzərində diqqətlə dayanır, Fərmana tapşırıqlar verirdi. Fərman da onları bacarıqla yerinə yetirirdi. Bu iki istedadlı insan əl-ələ verib, üç-dörd günün içərisində gözəl bir tamaşa yaratdılar. Tamaşa da çox uğurla keçdi. Fərman öz oyunu ilə hamını valeh eləmişdi. Tamaşa qurtaranda hamının gözləri yaşla dolu idi... Hamı festivala hazır tamaşa ilə gəlmişdi. Fərman isə „Əyri ağac"ı mənimlə qurmuşdu, „Hamlet" tamaşasını isə hansı ki, özü oynayacaqdı qura bilməmişdi. Tərslikdən həmin günlər də rejissorlardan heç kim teatrda yox idi. Onda Fərman Şəki Teatrından gedib artıq Bakıda yaşayan Cahangir müəllimə müraciət etdi. Nəticə də gözəl oldu. Bir neçə günün içərisində yalnız Fərman kimi aktyor peşəkarlıqla rejissor tapşırıqlarını yerinə yetirə bilərdi. Fərmanın „Hamlet"i festivalın bütün tamaşalarını üstələdi. Gözəl rejissor və gözəl aktyor işi... İstedadın təntənəsi. „Hamlet" tamaşası festivalın qalibi oldu... Fərman belə bir talant sahibi idi. Onunla küçədə rastlaşan hər kəs Fərmana böyük rəğbət hissilə baxır, hörmət eləyirdi. Mən həm Şəki, həm də Bakı küçələrində Fərmanla gəzişdiyimiz vaxt bunun şahidi olmışam... Amma Fərmanın özünə mane olan bir cəhəti vardı ki, o da onun tünd xasiyyəti idi. Bir adamdan xoşu gəlmədisə, öz münasibətini ona hiss etdirməliydi... Çox səbrsiz idi. Həmişə

tələsirdi. Hansı işdən yapışsa istəyirdi ki, o tez başa gəlsin. Hiyləgər, saxtakar adamlara nifrət eləyirdi. Hətta onlardan işi aşsa belə onlar tərəfə getmirdi. İstedadsız adamları (əsasən aktyorları) sevməzdi. Qəlbi paxıllıqdan uzaq idi. Amma individuallığa çox qaçırdı. İstəmirdi kimsə ona rəhbərlik eləsin. Özü-özünün ağası olmaq istəyirdi. Neçə dəfə özünə demişdim ki, Fərman, gəlsənə bir teatra girəsən... Amma o sərbəst yaradıcılığı daha üstün tuturdu. Fərman kimi aktyorun üzünə bütün teatrların qapıları açıq idi. O, "Sara" TV-də uşaq verilişini apararkən bütün uşaqların, həm də böyüklərin sevimlisinə çevrilmişdi. Hamı onunla şəkil çəkdirirdi, avtoqraf alırdı, ona hədiyyə bağışlayırdı.

Fərmanın personajının işlətdiyi "Uy daa" frazası bu gün də dillərdən düşməyib. Fərmanın Şəki teatrından çoxdan getməsinə baxmayaraq həmişə onun haqqında, oynadığı obrazlar haqqında aramızda söhbət düşür. Ümumiyyətlə, mən Şəki səhnəsində Fərmanın uğursuz obrazını görməmişəm. Mən özümü də bir aktyor kimi Fərmanın köməyi sayəsində tapmışam. Mən ondan çox şey öyrənmişəm. Onun "Lənkəran xanının vəziri" tamaşasında oynadığı vəzir obrazını heç kim onun kimi oynamayacaq. Raço Stoyanovun "Ustalar" tamaşasında oynadığı Şər obrazını heç kim Fərman səviyyəsində yarada bilməz, hansı ki, tamaşadan sonra hamı Fərmanın Şər obrazından danışırdı. Onun nə Teymurləngini, nə "Kral Lir"dəki Təlxəyini, ya da başqa obrazlarını unutmaq mümkün deyil. Onlar unudulmazdır Fərmanın özü kimi... Sirayətedici gülüşü kimi. Fərman güləndə o qədər ürəkdən, o qədər iştaha ilə gülürdü ki, gözlərindən yaş sel kimi axırdı. Hamı baş verən gülməli hadisəyə yox, Fərmanın gülüşünə baxıb gülürdü. Ona görə də zarafatla deyirdilər ki, filan iş oldu və Fərman başladı "ağlamağa", yəni gülməyə... Hətta nəfəsi kəsilmək dərəcəsinə çatırdı güləndə. Qarnını tutub, bir tərəfdə çömbəlib qalırdı... Onun gülüşü özü bir tamaşa idi. Dünyadan hər şeydən məlumatlı idi... Dünya xalqlarının adət-ənənəsindən, yeni yaranan ədəbi janrlardan, qolf oyununun fəlsəfəsindən. İspaniyadakı öküz döyüşünün nə məna kəsb etdiyindən danışırdı, hind filmləri niyə bu stildə çəkilir, real janrda çəkilmir-bunların mənasını, səbəbini bizə izah eləyirdi. Hamımız təəccüblənirdik ki, ay Fərman, sən bunları haradan bilirsən? Biz Fərmanın düz danışdığına heç bir şübhə eləmirdik. Sadəcə təəccüblənirdik ki, o bütün bunları harada və nə vaxt oxuyur?! Axı o, həmişə bizim yanımızda idi. Gənclik illəri idi. Teatrdakı məşqlərdən sonra evə getmirdik. Ya teatrın həyətində, ya hansısa çayxanada 7-8 nəfər uşaq oturub söhbət edirdik, zarafatlaşırdıq. Gecə saat 11- 12-də evə dağılışırdıq. Fərman bizim liderimiz idi. Fərman yaşa dolduqca həyat haqqında şəxsi fikri formalaşan filosofa çevrilirdi, hansı ki, bir çox sənət adamında bu

cəhət çatışmır. Fərman teatrdan getməsinə baxmayaraq həmişə onun haqqında söhbətlər düşürdü. Ya onun oynadığı rollar haqqında, ya Fərmanın həyatda işlətdiyi hansısa frazası barədə danışırdıq. Bu gün də danışırıq. Çünki Fərman unudulacaq sıravi adamlardan deyil. Çox təəssüf ki, Fərman Şəki teatrından gedəndən sonra Bakıda heç bir teatrda işləmək istəmədi. Bayaq qeyd elədiyim kimi, bütün teatrların qapısı ona açıq idi. Bununla da Bakı tamaşaçısı çox heyif ki, Fərman kimi dahi aktyoru teatr səhnəsində görməkdən məhrum oldu. Fərman azad sənətkar yolunu tutdu... Bir də heyifsinirəm ona görə ki, Fərmanın çox sevdiyi gözəl rejissor Vaqif Abbasov artıq dünyadan köçmüşdü. Vaqif müəllim sağ olsaydı, heç vaxt Fərmanın tək işləməsinə, teatrdan uzaqlaşmasına imkan verməyəcəkdi, onu öz himayəsinə götürəcəkdi... Çünki o Fərmanın gələcəkdə böyük uğurlar qazanacağına çox inanırdı. Fərman onun sevimli tələbəsi idi. Elə Fərmanın özü də yəqin Vaqif müəllim sağ olsaydı azad sənətkar olmaq fikrinə düşməyəcəkdi... Mən Fərmanı uzun illərdən bəri tanısam da, onun haqqında yazmağa çətinlik çəkirəm. Belə insanlar haqqında yazmaq çox çətindir. Fərman kimi istedadlar, qeyri-adı şəxslər barəsində söz deyəndə və yaxud yazanda onlara layiq sözlər, dərin cümlələr axtarırsan. Amma nə qədər dərin desən də, nə qədər dərin yazsan da dediklərin də, yazdıqların da onlardan qat-qat azdır. Fərman bu gün bizimlə olmasa da mən onun yoxluğunu qəbul eləmirəm. O bu həyatdadı... O bizimlədi... Bizim aramızdadı... Sən unudulmazsan...

***Azərbaycanın Əməkdar Artisti Ayşad Məmmədov:***

Fərmanla ilk qiyabi tanışlığım: Tələbə ikən İncəsənət İnstitunun dram-kino aktyorluğu fakultəsinin 3-cü kursunda oxuyanda mərhum müəllimimiz Vaqif Abbasov, Şəki Teatrının o vaxtki baş rejissoru, Şəki Teatrından bizə çox danışırdı. Mənə deyirdi ki, sənin iş metodun Şəki Teatrının aktyoru Fərmanın işinə oxşayır. Mənimçün maraqlı idi kimdir o aktyor?! Mərhum dramaturq, dostum Rəhman Əlizadənin Şəki Teatrında "Kəndimizin narları" pyesinin premyerası olacaqdı. Rəhmandan xahiş elədim ki, məni də özü ilə aparsın, gedib çatdıq gözəl Şəkiyə. Fərman həmin tamaşada baş rolu oynayırdı. Bütün tamaşanı nəql edirdi. Həqiqətən də ona qarşı yaxınlıq duydum. İnstitutu bitirib bir qrup uşaqlar Şəki Teatrına yollandıq, bizim içimizdə sonradan Fərmanın həyat yoldaşı olacaq İradə xanım da vardı. Beləliklə bir yerdə işləməyə başladıq. Elə Şəki Teatrında oynadığım ilk tamaşada, ilk rolumda

Fərmanla tərəf-müqabili oldum. Bu tamaşada M. F. Axundzadənin "Lənkəran Xanın Vəziri" tamaşasında Fərmanın oynadığı Vəzir rolu idi. Mən və dostum Ələkbər tamaşanın aparıcıları idik. Tamaşanın quruluşçu rejissoru o vaxt Şəki Teatrının baş rejissoru Hüseynağa Atakişiyev idi. Yeri gəlmişkən Fərman Hüseynağanın qiymətləndirdiyi, dəyər verdiyi aktyorlardan idi. Mübaliğəsiz deyirəm ki, mən neçə Vəzir ifası görmüşəm, amma Fərmanın ifası tam başqa idi. Eksentrika, qotesk onun ifasında güclü idi. Onun impravizə edərək işlətdiyi ifadələr sonralar aktyorların dilinə düşmüşdü. Bizim bu tamaşada, ümumiyyətlə, teatrda ilk rolumuz olduğuna görə, ondan da çox şey öyrəndik. Sonralar çox tamaşada tərəf-müqabili olduq, amma mənim Fərmanla bağlı yaddaşıma həkk olunan Teatr Studiyası oldu. O vaxt Hüseynağa Atakişiyev teatrın nəzdində studiya-laboratoriya açılması üçün şərait yaratmışdı. Teatrın öz tamaşalarından əlavə, həmin studiyada hər kim istəsəydi öz bacarığını sınaya bilərdi. Orada çox tamaşa hazırlandı, amma mənim iş birliyim əsasən Fərmanla idi. Fərmanın studiyada ilk işi müəllifi və rejissoru olduğu "Əyri Ağac" mono tamaşası oldu, bu tamaşada aktyor kimi Xanlar Həşimzadə çox böyük uğurla çıxış etdi. O vaxt Sovetlər Birliyinin tanınmış teatr tənqidçisi Solnseva Şəki Teatrının tez-tez qonağı olurdu. Solnseva, Larin, Stass kimi tanınmış teatr tənqidçiləri Fərmanın yaradıcılığını xüsusi olaraq izləyirdilər. Onlar Fərmanın tamaşalarına çox böyük qiymət verirdilər. Ümumiyyətlə, onlar Fərmanı aktyor kimi çox sevirdilər, çünki onun çox tamaşasına baxmışdılar. Sonralar Fərman Bakıya gələndə "Əyri Ağac" mono tamaşasını özü də ifa etmişdi. Studiyada bizim növbəti iş birliyimiz, onun rejissoru, həm də aktyoru olduğu Anarın "Yaxşı Padşahın Nağılı" tamaşası oldu. Tamaşa demək olar ki, plastika, pantomim elementləri üzərində qurulmuşdu, bu onun sevimli iş metodu idi. Fərmanın Azərbaycanda ilk pantomima yaradıcılarından birincisi olduğunu desəm yanılmaram. Bu onun müəllifi və rejissoru olduğu "Dahi" tamaşasında özünü çox biruzə verdi. Tamaşada üç aktyor Fərman, Xanlar və mən bir adamı oynayırdıq. Tamaşa tamamilə pantomima elementləri üzərində qurulmuşdu. O yorulmaq bilmirdi və hər dəfə yeni bir ideya ilə gəlirdi. Onun növbəti yeni tamaşasında, müəllifi və rejissoru olduğu "Olum, ya Ölüm" mono pyesində mən çıxış etdim. Həmin tamaşa ilə Fərman sonralar Bakıda keçirilən mono tamaşalar festivalında aktyor kimi uğurla çıxış edib, birinci yeri qazandı. Studiyada işləyərkən səhər 9-da teatra gəlib, 11-ə qədər məşq edirdik. On birdə teatrın öz məşqi başlayırdı. Teatrın məşqlərindən sonra yenə studiyanın məşqlərini davam edirdik. Çox böyük şövqlə iş prosesi gedirdi. Şəki Teatrında işləyərkən həmin bu tamaşalarla, Fərmanın tamaşaları ilə Bakıda o vaxtkı Tədris Teatrında qastrolda olduq, tamaşalar çox böyük uğurla keçdi. Moskvada

Şəki Teatrı ilə hesabat qastrolunda olanda çox böyük, sanballı repertuarla çıxış etmişdik. Həmin əsərlərin içində Fərmanın oynadığı bir-neçə əsər, o cümlədən, Kristofor Marlonun "Böyük Teymurləng" tamaşası da var idi.

Teymurləngi Fərman ifa edirdi. Moskvada həmin tamaşaya çox böyük dəyər vermişdilər. Bax, Fərman mənim xatirimdə bu cür qalıb, Teymurləng kimi, əsərlərinin müəllifi, rejissoru kimi, ondan çox şey öyrəndiyim bir sənətkar kimi. Əfsuslar olsun ki, onu Bakıda dəyərləndirmədilər. Onun çox güclü yaradıcı potensialı var idi. Bütün bu neqativ təsirlər onun səhhətindən yan ötmədi.

Sonra da Hamletin təbirincə desək: "Əbədi sakitlik... "

Görünür bir çox aktyorlar kimi bu da onun taleyi imiş...

***Əməkdar artist, Gəncə Dövlət Dram Teatrının aktyoru Novruz Cəfərov:***

Ağlıma heç vaxt gəlməzdi ki, mən Fərman haqqında xatirə yazmalı olacam. Ondakı enerjini, onda olan həyatsevərliyi, yaşamaq həvəsini görəndə onun belə tezliklə həyatdan köçəcəyinə inanmaq çox çətin idi.

... İnsanın fantaziyasının sərhəddi olmazmış. Oynadığı rollarını o qədər təbii, o qədər şirin, o qədər mənali, məntiqli, həvəslə oynayırdı ki, tamaşaçı gözünü ondan çəkə bilmirdi. Onun yazdığı, tamaşaya qoyduğu, oynadığı rolların heç biri, onun gördüyü heç bir iş, dediyi heç bir söz bayağı, mənasız, boş deyildi. O insan o qədər dolu, ağıllı, savadlı, məntiqli idi ki... O, dunya drammaturgiyasını çox gözəl bilirdi. Mütaliəni çox sevirdi. Ona görə də söz tapmaqda çətinliyi yox idi. Danışanda natiq kimi danışırdı. Dostluqda sədaqətli idi, aktyor kimi bildiyini əsirgəməz, səhnədə ən çətin vəziyyətlərdən ustalıqla çıxırdı.

1975-ci il Azərbaycan Dövlət İncəsənət İnstitutunun Dram və kino aktyorluğu fakültəsinin iyirmi beşə yaxın tələbəsi, o cümlədən mən də təyinatla Şəki Dövlət dram Teatrına gəldik. Biz Şəki teatrına gələndə teatrda bir çox yerli kadrlar işləyirdilər ki, onlardan biri də Fərman Abdullayev idi. Biz onunla ilk olaraq teatrın butafor sexində tanış olduq. Onun düzəltdiyi teatr əlbəsələrinə baxan kimi bilmək olurdu ki, Fərmanın çox gözəl əl qabiliyyəti var. İnsan əgər bir sahədə istedadlıdırsa, hansı sahədən yapışsa da onun istedadı mütləq özünü biruzə verəcəkdir. Belə də oldu. Onu bacarıqlı olduğu üçün, Opera Balet Teatrının nəzdində olan studiyaya, qrim üzrə rəssam kimi oxumağa göndərdilər. Bu kurssuz da onun çox gözəl əl qabiliyyəti var idi. Az keçmədən Fərman Abdullayev teatr studiyasında gənc aktyor kimi sənətin incəliklərinə yiyələnməyə başladı. Bir iki aydan sonra o, gördüyü əlavə

işlərlə vidalaşıb, teatr səhnəsində tamaşalara çıxmağa başladı... Professional bir aktyorun yetişməsi üçün bəzən illər lazım gəlir . Amma Fərman qısa bir müddətdən sonra nəinki istedadlı bir aktyor kimi fəaliyyətə başladı, hətta özü bitirdiyi aktyor studiyasında yeni gələn aktyorlara dərslər keçməyə başladı. O, qısa bir müddət ərzində özünün həm yaxşı aktyor, həm dramaturq, həm də yaxşı bir rejissor olduğunu sübut etdi... Onun yazdığı və quruluş verdiyi "Əyri Ağac" tamaşası mono tamaşalar festivalında aktyor oyununa görə birinci yerə layiq görüldü. Fərman Abdullayevin teatr və kino sahəsində gördüyü işləri saymaqla qurtarmaz. O, teatr sahəsinə bir çox yeniliklər gətiribdir. İlk pantomima tamaşası, klounada, xarici filmləri öz mətni ilə dublyaj etmək və onun ən təqdirəlayiq olan yeniliklərindən biri mono üslubunda yazmaq, tamaşaya qoymaq və oynamaqdır. Azərbaycanda mütəmadi olaraq keçirilən mono festivalların təşəbbüskarı Fərman Abdullayev özü olub. Mono tamaşanı oynamaq aktyordan istedaddan əlavə böyük cəsarət tələb edir. Fərman dəfələrlə dalbadal bu festivalların laureatı oldu. Məni ən çox onun aktyorluğu maraqlandırırdı. Çünki biz onunla bir çox tamaşalarda tərəf-müqabili olmuşuq və bir-birimizin gözəl oyunu üçün həmişə ideal zəmin yaratmışıq. Havayı yerə deməyiblər ki, aktyoru aktyor edən onun tərəfmüqabilidir. Biz onunla Xuqayevin "Arvadımın əri" (o Elbrusu, mən Kazbeki), S. Rəhmanın "Aşnalar" (o Anbar Hüseyni, mən Səməndəri) M. F. Axundzadənin "Lənkəran Xanın Vəziri" (o Vəziri, mən Hacı Salahı) komediyalarda və başqa bir çox tamaşalarda yadda qalan obrazlar qalereyası yaratmışıq. Bu gündə o tamaşaların canlı şahidləri var və təsdiq edə bilərlər ki, bizim birlikdə oynadığımız səhnələr həmişə tamaşaçıların gülüşləri və alqışlarıyla sona çatardı. Fərman ilə bir səhnəni paylaşmaq çox xoş idi, onunla tərəf-müqabili olmaq olduqca zövq verici və olduqca maraqlı idi. Həmin tamaşanı nə qədər oynasaq da, tamaşa yormurdu adamı. Çünki Fərmanın impravizasiyası o qədər rəngarəng, o qədər yerində olurdu ki...

Fərmanla mən təkcə sənət yoldaşı deyildik, biz həm də yaxın dost idik. Mən Şəki teatrının və aktyorlarının yaradıcılıq yolu haqqındqa üç bədii sənədli səhnə əsərləri yazmışam ki, onlardan ikisində Fərmanın unikal olan obrazı, birində isə gözəl bir aktyor kimi onun adı özünə yer tapıb . Fərman Abdullayevin həmin obrazların qısa bir parçanı sizin də oxumağınız üçün diqqətinizə çatdırıram.

Aktyor Fərman Abdullayev.... . saqqal alveri eləyirsən? !

1982-ci il. Şəki teatrı. Hüseynağa Atakişiyevin quruluşunda M. F. Axundzadənin "Lənkəran Xanın Vəziri" tamaşası oynanılır və demək olar ki, hər tamaşa anşlaqla gedir. Vəziri gözəl aktyorumuz Fərman Abdullayev

oynayır və o, bu vəziri o qədər duzlu, şirin və özünə məxsus bir xarakterlə yaradır ki, onun oyununa baxmaqla doymaq olmur . Mən bu tamaşada Hacı Salehi oynayıram və elə tamaşanın ilk epizodlarından biri Vəzirlə Hacı Salehin dialoqu ilə başlayır. Fərman bilirdi ki, mən bu obraza rezinli saqqal taxıb çıxıram və söhbətimizin şirin bir məqamında o, saqqalımın ucundan tutub, rezinini dartaraq;-Hacı Salah, -deyib, Birdən də saqqalımı buraxırdı və saqqal üzümə yapışırdı... və bu gözəl tapıntıdan ləzzət alaraq sözünə davam edirdi... Bir tamaşa belə, beş tamaşa belə... Bir gün, tamaşaların birində üzümə təzə bir saqqal kleylədim, onun üstündən də rezinli saqqalı taxıb səhnəyə çıxdım. Tamaşanın bir məqamında Vəzir-Fərman Abdullayev: "Hacı Salah,"- deyib saqqalımı dartanda, saqqalın altında ayrı bir saqqal görüb, şok vəziyyətdə dedi: "Bu nədi əəə?!" Rezinli saqqalı çıxarıb Vəzirə dedim: "Buyurun, ağam, saqqal xoşunuza gəlibsə, qurbandır sizə!" Vəzir Fərman gülməkdən uğunub getdi və tez özünə gəlib, dedi: "Hacı Salah, mən arvadım Şölə üçün mintənədən danışıram, sən mənimlə saqqal alveri eliyirsən?!"... O qədər bu tip impravizasiyalarımız olurdu ki.... Heç vaxt söz altında qalmazdı. Nə deyə bilərik ki... Heyif Fərmandan... Çox heyif!... Allah ona qəni-qəni rəhmət eləsin!

***Azərbaycan Rəssamlar İttifaqının üzvü, Monumentalçı rəssam***
***Əyyubov Natiq Cabbar oğlu (Qurubəy)***

1989-cu ildə mərhum dostum bəstəkar Emin Sabitoğlu bir xanımla mənim yaradıcılıq emalatxanama gəldi. Xanım Azərbaycan kinostudiyasında kostyum üzrə rəssam idi. Söylədi ki, kinostudiyada yeni bədii film çəkilir, baş rolun ifaçısı Fərman Abdullayevdir. (Mən Fərmanı hələ yaxından tanımırdım) Xanımla birlikdə filmin kostyumlarına eskizlər verməliydik. Hər şey hazır oldu, eskizlər qəbul olundu. Bir müddətdən sonra film çəkilib, hazır oldu. Gözəl də alınmışdı. Fərman rolu çox yaxşı oynayırdı. Lakin ekranlara (müəyyən səbəblərə görə) buraxılmadı.

1993-cü ildə Fərmanın aktyorluq potensialından şou yaradıb, faydalanmaq eşqinə düşən bir iş adamı mənə reklam afişası yaratmaq sifarişini verdi. İşlə əlaqədar Fərmanı görməyim lazım idi. Bir neçə gündən sonra o, Fərmanla emalatxanama gəldi, naturadan bəzi rəsmlər çəkdim. Reklam afişası hazır olandan sonra sifarişçi qeyb oldu. Alacağım qanarar batsa da, əvəzində Fərman kimi dost qazandım.

O, müsbət enerjili, çox səmimi, sadə, etibarlı, maraqlı ideyaları olan, müasir fikirli, savadlı, dinamik bir aktyor idi. Çox qeyri-adi pantomima

göstərmək qabiliyyəti var idi. Emalatxanaya tez-tez gələrdi. Bir sözlə, div qurbağaya aşiq olan kimi, mənə "aşiq" olmuşdu. Bu "aşiqlik" qarşılıqlı idi.

Tamaşaçılara mənalı gülüş bəxş edən aktyor diqqət mərkəzində idi. Biz küçəyə çıxanda hamı ona baxardı, hətta qəşəng qızlar da onu oğrun-oğrun süzərdilər. Fərmansa bunların heç birinə əhəmiyyət verməzdi. Ailəsinə çox bağlı adam idi.

Sara TV-də "Şurum-Burum" verilişini apararkən görürdüm onu necə çox istəyirdilər. Məni onunla görənlər, onunla tanış olmaq istəyərkən mənə müraciət edirdilər. Onların sayı hesabı yox idi. Həyatda hər uğurun bir uğursuzluğu da olur. Onun işlədiyi Sara TV bağlanandan sonra demək olar ki, o bütün televiziyalarda, hətta radioda da çalışdı. Bir neçə analoqu olmayan telelayihələr yaratmışdı, amma həyata keçirə bilmirdi. Bütün bunlar ona çox pis təsir edirdi. Gündəmdən düşmək onda ruh düşkünlüyü yaradırdı. Hamıya gülüş bəxş edən Fərman getdikcə qəm dəryasında idi. Onun dostlarından çoxu "novostroyka" vaxtı ölkəni tərk eləmişdilər. Onu da çağırırdılar. Dünyanın hər yerində onun dostları var idi. O. Azərbaycandan heç yerə getmək istəmirdi. Xalqının sənətkarı olmaq istəyirdi.

O, bəzi dostlarını mənim emalatxanama gətirib, mənimlə tanış edərdi . Onlardan biri də Polis Polkovniki Tahir bəy idi. Bizim "xatalı" bir işimiz olmasa da onu çox sevərdik, çünki o sənətə, sənətkara dəyər verməyi bacarırdı. Çox yaşasın!

Fərmanın televiziyada, radioda bir sıra müvəffəqiyyətli, sevilən layihələri, filmlərdə bir sıra uğurlu rolların yaradıcısı olmasına baxmayaraq, axır vaxtlar onu yaman yaddan çıxartmışdılar. Bu ona çox pis təsir edirdi. Amma o, özü heç vaxt heç kimin kabinetinin qapısını döyməzdi ki, "mən də varam!" Doğrudan axı, Fərman ən istedadlı aktyorlardan biri idi, amma çəkilişlərə dəvət almırdı.

Onun həyatı bir növ məhşur Fransız rəssamı Madelyaninin həyatına bənzəyirdi. İstedadı aşıb-daşır, amma itirib, axtaran yoxdur. Ölümündən sonra isə... Nə qədər maddi sıxıntı keçirsə də, qürurunu sındırmazdı. Bütün bunlara baxmayaraq zarafatımızdan da qalmazdıq. Bir dəfə mən ona dedim ki, sənə təzə təxəllüs tapmışam "Fərman Dərdli". O da gülərək dedi ki, hə... bəlkə bu təxəllüs mənə uğur gətirdi. O vaxtlar mən ara-sıra Ans TV-nin "Qulp" verilişi üçün yumorlu dekorasiyalar və karikaturalar çəkirdim. Bir dəfə Fərman emalatxanada olanda danışdı ki, oğlum əskərlikdə xidmət edir. Bəzi üzdəniraq komandirlər ondan pul qoparmaq istəyirlər. Bunun yaxşıca "Qulp"luq süjet olduğunu dedim. Mən bu haqda verilişin aparıcısı Mübariz Əskərova dedim. O da sağ olsun sözümü yerə salmadı, Fərmanın çox inandırıcı oynadığı "Bankomat" qısametrajlı süjet yarandı və efirə verildi. Yəqin ki, bütün acgözlər

öz paylarını götürdülər.

Son zamanlar Fərman emalatxanaya gəlmirdi. Düşündüm ki, yəqin başı seriallara qarışıb (axır vaxtlar seriallara dəvətlər almağa başlamışdı). Bir gün mənə zəng vurub, dönə-dönə tapşırdı ki, "mən ölüm, siqareti tərgit, istəmirəm ki, sən də xəstələnəsən!" Adətən xəstələr eqoist olurlar, Fərmanın ürəyi bambaşqa idi, özü xəstələnməyinə baxmayaraq, məni qoruyurdu.

Onu çox sevən ailəsi, çox mədəni, savadlı uşaqları var. Allah onlara səbr versin! Belə dostu, atanı, əri itirməklə barışmaq çox çətindir! Fərman həyatdan çox tez getsə də, arzuları ürəyində qalsa da, onu sevənlərin qəlbində, əbədi yaşayacaq.

Tarix boyu istedadlı sənət adamlarını sağlığında itirib, öləndən sonra tapırlar! Fərman da onlardan biridir.



## ŞARALMIŞ VƏRƏQLƏRDƏKİ ƏBƏDİ NAXIŞLAR.

***1984-cü ildə "PRAVDA" qəzetində tanınmış tənqidçi M. Şvıdkoy yazır:***

"Şəki teatrının Moskva qastrolunu "Əfsanəvi sınaq" adlandırmaq olar. İstedadlı kollektiv öz yaradıcı imkanlarını əsirgəmədən tamaşalara qoyduqlarına görə bu cür rezultata nail olublar... Mən xüsusilə K.Marlonun "Böyük Teymurləng" əsəri haqqında qeyd etmək istəyirəm ki, istedadlı rejissor H.Atakişiyev baş rolun ifaçısı F.Abdullayevin gənc olmasına baxmayaraq, bu manumental obrazı etibar etməsində yanılmayıb. Gözəl aktyor oyunu qaniçən, tiran, diktator, orta əsrlərin ilarxiyası olan Teymurləngin əsil sifətini, psixoloji vəziyyətini dəqiqliklə ifa edir.

F.Abdullayevi başqa tamaşada M.F.Axundovun "Lənkəran Xanın Vəziri" tamaşasındakı Vəzir obrazında görəndə inanmaq çətin idi ki, bu həmin aktyordur. Nəinki H.Atakişiyev, hətta mən onun talantına etibar etdim. F.Abdullayevi daha bir fərqli obrazda V.Şekspirin "Romeo və Cülyetta"nın Merkusiya obrazında görəndə onun yaradıcılığının sərhəddinin nə qədər geniş olduğuna daha da əmin oldum. Ümumiyyətlə, mən Şəki teatrının kollektivində əfsanəvi istedadlı aktyor qalereyası gördum. Onlar Moskva qastrolu sınağından şərəflə şıxdılar. Şəki teatrı, sizə uğurlar!"

***1986-cı ildə " Molodyoj Azerbaycana" qəzetində teatr şərhçisi K.Aslanov***

"Şəki fenomeni" məqaləsində yazir:... "Şəki teatrının istedadlı rejissoru Hüseynağa Atakişiyevin bu teatrın yaradıcılıq xəttindəki mövqeyi çox təqdirəlayiqdir. Onun Provensial teatr ənənələrinə sadiq qalaraq kütləvi rəqslər, gur musiqi, bir-birlərini səhnədə tamamlayan istedadlı aktyor ansamblı, gözqamaşdıran işıqlar, tez-tez dəyişən dekorasiyalardan ustalıqla istifadə etməsi tamaşaçının könlünü oxşayır, teatrı sevilən edir. Bütün bu rituallar

tamaşanın ümumu səviyyəsinə heç bir xələl gətirmir. Lakin bunlar Şəki teatrının bir rejissura teatrı olduğu anlamına gətirilir.

Teatrda olan bu qanunauyğunluğu teatrın aparıcı gənc aktyorlarından biri olan, öz aktyorluq bacarığını təsdiq etməyə nail olan Fərman Abdullayev pozdu. O, hətta dövrün müasir drammaturqlarının əsərlərindən qane olmayaraq özünün yazdığı "Tövbə" əsərini səhnələşdirməyi qərara alır. Onun bu debütü boyük müvəffəqiyyət qazanır. Teatrın gənc yaradıcı kollektivi bir-birinin ardınca öz bacarıqlarını sınamağa başlayırlar. Fərman Abdullayevin bu addımı əvvəlki "Rejissura teatrı" adını, yeni, " Bütünlüklə aktyor teatrı " adına dəyişdi. Bu, aktyorlara özlərini sınamaq üçün imkan verirdi . Sonradan teatra baş rejissorluq edən Cahangir Novruzovun "Aktyor teatrının yeni erası" dönəminə teatrın aktyorları artıq hazır idilər...

***Azərbaycan SSR Xalq Artisti Məmməd Bürcəliyev "Düzəlməyən ağac"***

... Şəki Dram teatrının kiçik səhnəsində teatrın aktyoru Fərman Abdullayevin "Əyri Ağac" monopyesinin tamaşasının başlanmasına beş dəqiqə qalıb. Tamaşaçılar yarıqaranlıq zala daxil olurlar. Səhnədə qabaq pərdə yoxdur; ortada darısqal, yarıqaranlıq bir komanı qəbirlər əhatə edir. Gözümüz qaranlığa alışdıqca bir cüt bel və kənarda sınıq-salxaq taxtın üzərində hərəkətsiz uzanmış bir qocanı görürük. Tabut düzəldən qozbel qoca donquldaya-donquldaya yuxudan ayılır. O hər şeydən narazıdır. Payızın girməsindən, taxtaların qiymətinin artmasından, ən başlıcası isə yaşadığı bu xırdaca kənddə heç kimin ölməməsindən.

Yavaş-yavaş aydın olur ki, bu qoca həmin komadaca doğulmuş, böyümüş, burada da qocalmışdır. Ömrünü çaqqal ulaşması, it hürüşməsi ilə dolu qəbiristanlıqda keçirən qoca, söz yox ki, insanlardan qaçır, ömrü puç və mənasız sayır. Evlənməyib, "başını bəlaya salmadığı üçün" fəxr edir. Qocanın ilk nəzərdə gülməli görünən fikirləri dərin mənaya və fəlsəfəyə malikdir. Lakin bu absurd fəlsəfədir.

Bir saat iyirmi dəqiqə gedən bu tamaşaya bir aktyorun ifasında yorulmadan, maraqla baxılmasına səbəb qoca rolunun ifaçısı Xanlar Haşımzadənin və istedadlı aktyor kimi tanıdığımız, bu əsərin müəllifi gənc rejissor Fərman Abdullayevin yaradıcılıq nəaliyyətidir. Aktyorun oyunu ikinci hissədə daha qüvvətlidir. Tamaşaçı diqqəti bir an da olsa, səhnədən ayrılmır. O həm komik, həm də faciə vəziyyətində inandırıcıdır. Qoca əzrayılın ayaq səslərini eşidərkən ömrünün sona çatdığını anlayır. Burada rejissor aktyorun köməyinə

gəlir. Biz tamaşa boyu yalnız burada musiqi səsi eşidirik. Musiqi aktyora bu səhnəni oynamağa çox kömək edir. Qeyd edə bilərəm ki, tamaşada rejissor işi həddindən artıq gözəldir.

Qoca ömrü boyu insanlardan qaçıb, heç kəsə yaxşılıq etməyib, ünsiyyət qurmayıb. Başqaları üçün düzəltdiyi tabutda özü yatmalıdır. Dəhşətə gəlir və "İlahi, bircə nəfər adam tapılacaqmı məni torpağa basdırsın?!"- deyə fəryad edir.

Heç kimə gərək olmadığını anlayan qoca dəhşət içərisində komadan çıxır. İlk dəfə quşların nəğməsini eşidir, insanlara rast gəlir, ilk dəfə günəş işığını görür, həyatın mənasını dərk edir. O, komadan bayıra atdığı hər addımında səhnədə bir işıq sönur. İndi o, nifrət etdiyi insanlara qoşulmaq istəyir. Onlara necə ehtiyacı olduğunu anlayır. Lakin nə səsi çıxır, nədə ki, tərpənə bilir. Hələ uşaq olarkən atasının əkdiyi düz ağacı əyri elədiyinə görə peşiman olur. "Düzəldəcəyəm onu, çıxarıb, düz basdıracam onu " deyir. Onun ağacı qucaqlayıb ağlamasını və ölüm səhnəsini aktyor məharətlə oynayır.

Müəllif demək istəyir ki, insan bir gün mütləq vicdanı ilə üz-üzə durmalıdır. Vay o adamın halına ki, öz vicdanının gözünə düz baxa bilməyə.

Bir aktyorla, bir məkanda iki hissəli tamaşa hazırlamaq və tamaşanı sevdirmək asan iş deyil. Bundan ötrü rejissorun güclü təxəyyülü olmalıdır.

Gənc aktyor Fərman Abdullayev tamaşanın müəllifi, rejissoru olmaqdan əlavə, həm də rəssamı və musiqi tərtibatçısı idi (Qocanı özü də ifa edirdi) .

***H. Ərtürkh*** *(jurnalist)* ***"Əkinçi əkməli, biçinçi biçməlidir!"***

*Müxbir:* Fərman bəy, xahiş edirəm özünüzü təqdim edəsiniz.

*Fərman:* Necə təqdim edim, deyim ki, yaxşı oğlanam?

*Müxbir:* Teatrımızın hansı problemləri sizi maraqlandırır?

*Fərman:* Məni teatrdan çox ölkənin problemləri maraqlandırır.

*Müxbir:* Sizcə bu iki problem bir-birindən ayrı həll olunmalıdır?

*Fərman:* Sözsüz! Hakim hakimiyyət, alim elm, aktyor sənət haqqında düşünməlidir. Bir sözlə, əkinçi əkməli, biçinçi biçməlidir! Təəssüf ki, indi bizdə belə deyil. Hamı bir-birinin işinə qarışır. Ona görə də ölkədə xaos yaranır. Yadınıza "Cırcırama və Qarışqa" təmsilinni salmaq istəyirəm. Cırcırama oxuyur. Qarışqa isə azuqə yığır. Müəllif isə cırcıramaya gülür. Bu düzgün yanaşma deyil ki... Cırcırama azuqə yığmaqla məşğul olsaydı, oxuya bilməzdi ki... Cizgi filmlərinin birində belə epizod var ki, dovşan səhərdən axşamacan kərpic daşıyır, işdən sonra gitaranı ona verib deyirlər: "çal!" Kərpic

daşımaqdan barmaqları qabar olmuş yazıq dovşan gitaranı necə çalsın?!

*Müxbir:* "Cırcırama və Qarışqa" təmsilində belə misralar var: "Kefə alışmış idi, başı qarışmış idi. Tutdu xəbər bir zaman, qış yetişib ay aman!" Sizin fikrinizcə cırcırama qabaqdan gələn qışın dərdini çəkməməlidir?

*Fərman:* Qətiyyən! Bunu hökumət etməlidir. Onun qayğısını dövlət çəkməlidir. Elə etməlidir ki, sənətkar nə yayın istisində yansın, nə qışın soyuğunda donsun. O ki, qaldı "kef" sözünə, bunu " zövqlə" əvəz etmək lazımdır. Bəli, sənətkar öz sənətindən zövq almalıdır... Elə etmək lazımdır ki, sənətkarlarımız ən çətin şəraitdə belə sənət haqqında düşünüb, onu davam və inkişaf etdirə, yaşada bilsinlər.

*Müxbir:* Fərman bəy, əslində mən sizi oxuculara Respublika Teatr Xadimləri İttifaqının keçirdiyi növbəti "Monotamaşalar festivalinin" laureatı kimi təqdim etmək istəyirəm. Və onu da oxucuların nəzərinə çatdırmaq istəyirəm ki, siz dəfələrlə bu festivalın laureatı olmusunuz. İstəyərdim sizdən eşidim, necə buna nail olmusunuz və axırıncı "Ölüm, ya Olum" tamaşasının afişasında adınız Şekspirlə yanaşı yazılmışdır və göstərilmişdir ki, variyasiyaların müəllifi sizsiniz. Və bu tamaşanın anşlaqla keçdiyinin şahidiyəm.

*Fərman:* Mən özüm deyə bilmərəm necə nail ola bilirdim, mən yalnız işimi mükəmməl görməyə çalışmışam. Axırıncı tamaşada nə etmişəm, nə etməmişəm onu da tamaşaçılar deyə bilər. Mən yalnız cox götür-qoydan sonra variyasiyalar sözündə dayandım. Tamaşanın sozlərinin səksən faizi Şekspirin "Hamlet" əsərindən istifadə olunur. Mən hadisələrin gedişini qrim otağında göstərirəm. Hamlet rolunda səhnəyə çıxmağa hazırlaşan aktyorun onu əhatə edən mühit, cəmiyyət, quruluş haqqında düşüncələri Hamletin monoloqları ilə ifadə olunur və çox aktual səslənir. Həyat yoldaşı tərəfindən tərk edilmiş, körpə uşağı ilə tək qalmış aktyorun dərdi yalnız ailə-məişət dərdi deyil. O, qlobal problemlər haqqında fikirləşir və Hamlet tez-tez onun köməyinə gəlir. Aktyorun düşüncələri çürümüş cəmiyyətə, üfunətli mühitə, faşizm üsul idarəsi olan quruluşa qarşı üsyandır. Axırda da Aktyor-Hamlet əsil tamaşada olduğu kimi qılınc yarasından deyil, İmperiyanın qırmızı bayrağının ucundakı oraq-çəkicli şiş ucluqdan ölür...

*Müxbir:* Maraqlıdır! Bu variyasiyalar-əlavələr yəqin ki, sizin həyat haqqında düşüncələrinizin təzahürüdür.

*Fərman:* Mən qəlbən, ruhən nikbinəm. Sabahımıza, hər şeyin yaxşı qurtaracağına inanıram. Uzun illərdən sonra müstəqillik əldə etmişik. Təki müstəqilliyimizi əldən verməyək. İlahinin bütün işlərimizdə bizə yar olacağına əminəm!

### *Şəki Teatrının baş rejissoru Mirbala Səlimov*

M. Səlimov Fərman Şəkili ilə eyni səhnəni bölüşdüyünü və sənətkarın özünəməxsus oyun tərzi olduğunu qeyd etdi. "O yaratdığı obrazları hərtərəfli göstərməyə çalışırdı. Obrazlarını heykəltəraş kimi yaradırdı. Yaradıcılığı səhnə plastikası, jestləri başqa aktyorlardan çox fərqlənirdi. Bir şeyi çox şişirtməyi və o obrazın bizə bəlli olmayan tərəflərini göstərməyi bacarırdı. Onunla Hüseynağa Atakişiyevin quruluşunda Şəkidə "Lənkəran xanın vəziri" tamaşasında oynamışıq. Onun ifasında vəzir obrazını çox bəyənirdim. Fərman yaratdığı obrazın iç üzünü göstərmək üçün hərəkətlərini akrobatik formada tənzimləyirdi. Obrazın hərəkətlərini şişirdib, qəribə jestlərini tapırdı. Vəzir obrazını yaradarkən ayağı xəlbirə dəyib əzilir. Onun axsamağını elə qəribə göstərirdi ki, adi halda elə axsamaq mümkün deyildi. O hərəkətləri təkrarlamaq mümkün deyil. Hər bir obraz üçün tapdığı detallar təkrarolunmaz və gözəl idi. Onun belə obrazları çoxdur. Hər bir obrazda başqa detallar tapırdı. Fərman həm Şəki tamaşaçıları, həm də digər teatrsevərlər tərəfindən sevilib və fərqlənib. "

Rejissor aktyorun daima yenilik axtarışında olduğunu dilə gətirdi: "Fərman boş durmağı sevmirdi. Bir yerdə oturub, paslanmaq istəmirdi. İçində daima nəsə qaynayırdı. İstəyirdi ki, yenilik yaratsın. Həmişə bizə deyirdi ki, oturmaq lazım deyil, yenilik etmək lazımdır. Onun sakit oturub, vaxt keçirdiyini görməmişəm. Hər zaman içərisində istək, enerji dolu idi. Özünü rejissorluqda yoxladı, aktyor kimi bir müddət telekanallarda çalışdı, filmlərdə çəkildi. Bütün bunlar məhz daxilinin aktivliyinə görə idi. Yeni tamaşa qoymaq istəyirdi. İçərisindəki Fərman sakit durmurdu. Sonradan eşitdim ki, xəstələnib. Çox təəssüfləndim. Ola bilsin xəstəliyi ona yorğunluq gətirmişdi. Fərmanın axıra qədər imkanı olmadı ki, özünü göstərə bilsin. Düşüncələrini həyata keçirsin. Dünya teatr tarixində sənətkarlar çox zaman kənar mühitdən asılı olub, hansısa proyektlərinə maliyyə tapa bilməyib. Ona görə də özlərini realizə edə bilməyiblər. Fərman hər zaman bu problemi yaşadı. Bizə maraqlı əhvalatlar, yeni lətifələr danışırdı. Şəki ləhcəsində danışdığı lətifələr maraqlı idi. Bir müddət həmin lətifələrdən televiziyada kiçik metrajlı filmlər də çəkmişdi. Haradasa videolarda da var. Vaxtı ilə o lətifələrə çəkilən filmlər satılırdı. Fərman kimi aktyorun imkanlarından istifadə olunmadı. Arzulayardım ki, yaşayan aktyorlarımızla Fərmanla baş verən hadisələr təkrar olunmasın. Yaşayan aktyorlarımız özlərini tam realizə edə bilsinlər".

***Rejissor Rövşən Almuradlı***

"Şəki Teatrı açıldıqdan sonra tərkibində yeni teatr studiyası yaranmışdı. Fərman bu studiyada bir müddət tələbə kimi olsa da, sonradan studiyanı ona etibar etdilər. Orada Fərmanın öz tələbələri var idi. Hikmət Nəbili, Xanlar Haşımzadə, Əbülfət Salayev, Çingiz və başqa aktyorlar o nəslin yetirmələri idi. Fərman həmin gənclərin içində öz çılğınlığı, səhnədəki temperamenti, aktyor oyununa görə seçilirdi. V.Şekspirin "Kral Lir" tamaşasında mən Kral, rolunu, Fərman Kralın təlxəyi rolunu oynayırdı. "Kral Lir" əsərində kralın təlxəyi ən böyük və çətin obrazlardan biridir.

Fərman özünün ayrıca teatrının olmasını istəyirdi. Şəki Teatrından sonra bizim yollarımız ayrıldı. Şəhərdə teatrların premyeralarında, televiziyalarda görüşürdük. Onun rəqsləri, mahnıları indiyə kimi mənim yadımdadır. O çox layihələr həyata keçirməyə çalışırdı. Fərman hansı sahəyə müraciət edirdisə, onun dəst-xətti seçilirdi. Çox çılğın insan idi. Bir yerdə qərar tuta bilmirdi. Özünə qapanırdı çox zaman. Hadisələrə çox sərt cavab verirdi. Amma çox sədaqətli insan idi. O, beynində düşündüyü layihələrin heç mində birini həyata keçirə bilmədi, şansı gətirmədi. Bilirsinizmi, toxum münbit torpağa düşəndə, o gözəl çiçək açır. Fərman öz münbit torpağına düşmək üçün çox çapaladı. Televiziyaya çıxdı, özü veriliş də hazırladı, filmə çəkildi, tamaşalarda oynadı. "Şurum-Burum" obrazı onun edə biləcəyi ən xırda aktyorluq məharəti idi. Fərman böyük sənət üçün yaranmış aktyorlardan idi. Daha böyük işlər görə bilərdi. O, hələ ali təhsil almayanda belə, onun plastikası, rəqsləri hər kəsi heyran edirdi. Mənim üçün hər zaman o uğurlu obrazları ilə seçilən Fərman var".

***Dramaturq Mehman Musabəyli***

Fərmanın teatrdakı uğurlarının artıq əfsanəyə çevrildiyini, aktyorun tələbkarlığı onu tanıyan aktyorların, sənət adamlarının qulağında hələ uzun müddət səslənəcəyini bildirdi: "Dostlarla görüşdüyümuz zaman elə bir söhbət olmur ki, Fərmandan sitat gətirilməsin. O, hələ öz sözləri, istəkləri, təşəbbüsləri ilə uzun müddət yadda qalacaq. Mənim bildiyim qədər, onun təşəbbüsləri birbaşa şəxsi yaradıcılığı ilə əlaqəli idi, yəni yaratmaq istədiyi nə var idisə mərkəzdə Fərmanın özü dururdu. Əlbəttə ki, yaradıcı insan kimi. Şəki Teatrında işlədiyi vaxt özünün teatr studiyasını yaratmışdı və ilk

olaraq "Yaxşı padşahın nağılı" tamaşası ilə özünü çox maraqlı rejissor kimi təqdim etmişdi. Sonra bu tamaşası ilə Bakıya qastrola gəldi və böyük uğur qazandı. Fərmanın quruluşundakı özəllik aktyor bacarığından maksimum istifadə üzərində qurulmuşdu. Onun etdiklərini danışmaqla qurtarmaq olmaz. Fərmanın təşəbbüsləri bununla bitmirdi, hələ onun bir-neçə monopyesi, ssenarisi, felyetonları, nəsr əsərləri var. Yeri gəlmişkən, Azərbaycandakı teatr festivalları onun təşəbbüsü ilə start götürmüş mono-tamaşalar festivalı ilə ənənəyə çevrilməyə başlayıb. Birinci mono-tamaşalar festivalında Fərman Abdullayevin iki pyesi oynandı: "Əyri ağac" və "Hamlet"ə variasiyalar". Sonrakı eksperimental və s. festivallar məhz bu monofestivaldan sonra hər il keçirilməyə başladı. O, Şəkinin ilk yerli filmini çəkən rejissordur. Əlbəttə ki, yenə də mərkəzdə özünün aktyorluq sənəti ilə. Bu filmi çəkməzdən qabaq isə artıq külli miqdarda onun özünün topladığı lətifələr, deyimlər, dialektlər, xarakterlər bazası var idi. Onların içində isə ən unikal əmək Şəki dialektindəki nadir sözlərin lüğətidir. Bu lüğəti mən çox önəmli bir iş sayıram, siz də razılaşarsız. Axı bu gün o sözlər artıq itmək üzrədir."

M. Musabəyli bu gün Fərman Şəkilini yada salmaq üçün çox əziyyət çəkmədiyimizi söylədi: "Fərman bir xarakter kimi çox sirayətli, maksimalist, emosional idi. Özünə və ətrafdakılara qarşı patoloji şəkildə tələbkar idi. Ola bilsin ki, çoxları elə bu üzdən onunla işləməkdən çəkinirdi. İntizamı çox sevirdi. "Şurum-Burum" uşaq personajını o özü yaratmışdı. Bununla respublika televiziyasında və uşaq evlərində tamaşalar göstərirdi. Bu gün onu yada salmaq üçün çox əziyyət çəkmirik. Bu gözlənilmədən olur, bir sitat deyirsən və onu deyərkən bu sözləri də əlavə edirsən: "Fərman demişkən". Fərmanın sözləri də, qənaətləri də özü kimi emosionallığı ilə diqqət çəkir. Heç istəməzdim ki, onun haqqında keçmiş zamanda danışım".

Elə biz də...

*Kaspi qəzeti 4-6 may 2013. Xəyalə Rəis (yuxarıdakı müsahibələri yazdı)*





***Sənət. "Sənət tale ilə mübarizədi, sənət antitaledir,"***
***kulis. az saytından. Aliyə** (jurnalist)*

Antonen Arto

Biz onu unutmuşduq: son müsahibə derkən 7 il əvvəlki müsahibəsini tapdıq. Başımız lazımlı adamlardan səs-küylü müsahibələrə, sorğulara qarışmışdı. O, ölümü ilə unutduğun bir adamın itkisinin nə qədər acı olmasını anlatdı. Sanki o, özü üçün addım-addım yaxınlaşan, bizim üçünsə qəfil olan ölümü ilə hamıdan qisas aldı. Unutmağımızın qisasını.

Amma tanıyanlar deyir, aktyor Fərman Şəkili keçmişin nisgili ilə, inciklikləriə yaşayan, küsən adam deyildi, o da anında unudurdu, haqsızlığa, laqeydliyə üz çevirib gedirdi və belə qisas onun janrında deyildi. Amma elə bu özü də acı idi-biz qisas almağa dəyməzdik. Onun dəyərləri yanında bunlar nə idi ki?

O bu dəyərlərə görə nələrdən keçmişdi, bunu bir ailəsi, dostları, yaxınları bilir. İndi sənət fədaisi sözünə kim inanır? Amma Fərman Şəkilinin belə bir fəxri adı var və bu, onun yeganə və tərtəmiz qazancı idi....

İlk pantomim tamaşası Fərmanın imiş.

Fərman Abdullayev 1954-cü ildə Şəkidə doğulmuşdu. Şəki Aktyorluq Məktəbində, Gürcüstanda Mixail Tumanişvilinin aktyorluq kursunda təhsil

almış, uzun müddət Şəki Dövlət Teatrında çalışmışdı. Şəki teatrının Avropa səfərlərində truppanın aparıcı aktyorlarından biri kimi böyük əmək qoymuşdu. Bizim 92-cı illərin əvvəlindən başladığını dediyimiz Azərbaycan pantomima tarixində sən demə ilk tamaşanı o, 1980-ci illərin əvvəllərində hazırlayıbmış.

"Dahi" adlı pantomim pyesin müəllifi də özü imiş.

Teatr Xadimləri İttifaqının Monotamaşalar festivalında Bakının teatr ictimaiyyəti aktyor Fərman Şəkilini "Hamlet" tamaşası ilə kəşf edir. Və elə ilk uğurdan laqeydlik başlayır, festivalın qran-prisini qazansa da ona mükafatda nəzərdə tutulan məbləği vermirlər. Halbuki, Şəkidən Bakıya təzəcə köçən-həm də o paytaxta ki, sənətkarları qollarını ürək açıqlığı ilə ona açmamışdılar-Fərman Şəkilinin ailəsinin bu məbləğə ehtiyacı vardı. Sonra teatra total laqeydlik Hüseynağa Atakişiyevin son illərində olduğu kimi eyni ssenari ilə davam edir. Onu görməzliyə vurmaq, edilən cəhdlər, uğursuzluqlar...

Fərman Abdullayev efirdə göstərilən "Fransız", "Həm ziyarət, həm ticarət", "Yalan"dan başqa "Zirzəmi", "Sarı gəlin", "Aşkarsızlıq şəraitində", "Otel otağı", "İstanbul reysi", "Ölümə dəvətnamə" və rejissoru və ssenari müəllifi özü olan "Mışovul ovu" filminə çəkilmişdi ki, bu filmlər müxtəlif səbəblərdən ekrana çıxmamışdı. Amma "Fransız"da da, "Yalan"da da, "Həm ziyarət həm ticarət"də də, "Sarı gəlin"də də, elə bütün filmlərində də Fərman Abdullayev bir-birindən kəskin fərqlənən maraqlı obrazlar yaradır. Bu asan deyil-aktyorun həmişə bir ştamplaşmaq qorxusu var. Məşhur rejissor Tarantino müsahibələrinin birində "bir dəqiqəlik ekranda görünən obraz üçün bütöv bir bioqrafiya yazıram" demişdi. Aktyor Fərman Şəkili öz qəhrəmanlarını bu qədər bitkin edə bilirdi. Epizod üçün belə bitkinlik nə qədər vacibdir-bunu bilənlər bilir...





## *Sınıq Şüşə*

İstedadlı adama uğursuz demək olarmı? Niyə uğursuz? Həyat yoldaşı İradə xanım yalnızca "O, hamıya inanırdı... Sənətinin fanatı idi... Qazanc üçün heç vaxt işləmədi, varını paylaşanlar kimi, özündəki mənəvi var-dövlətini tamaşaçılarıyla bölüşdü. Həqiqi sözümdür, təmənnasız bölüşdü. Onsuz da onu dünya malıynan heç cürə təəccübləndirmək mümkün deyildi, o qədər gözü tox idi ki... Onun ehtiyacı ancaq səmavi, əlçatmaz şeylərə idi. Ancaq yaratmaq ona sevinc verirdi."- deyir. "Teatrın pis vaxtlarına düşdü" də demək olar. Amma bir həqiqət dəqiqdir-onun arzuları, dəyərləri ətrafdakılarla ziddiyyətdə idi. Daxilən faciəvi dünyası olan aktyorun komik ampluada tanınması kimi... Yoxsa bu doğrudan tale idi? Özünün danışdığı lətifədəki kimi şüşəsi qırıq idi? "Dəliləri təyyarə ilə Şəkiyə aparırlar ki, başları qarışsın. Onlara yolda içməyə "Sirab" alırlar. Yarı yolda görürlər ki, heç kim yoxdur təyyarədə, təkcə biri qalıb. Ondan soruşurlar ki, yoldaşların hanı, cavab verir ki, şüşələri mağazaya qaytarmağa getdilər. Deyirlər, bəs sən niyə getmədin? Cavab verir ki, mənim butulkamın ağzı sınıqdır".

Bulvarda yay teatrı açmaq istəyirdi...

Kölgə teatrı yaratmaq istəyirdi...

Uşaq teatrı layihəsi vardı...
Analoqu olmayan onlarla layihələri vardı…
İradə xanım təəssüf və həyəcanla əlavə edir: "Aparıb layihəni ideyadan nizamnaməyədək təqdim edirdi, deyirdilər, gözlə. İnsan nə qədər gözləyər? Ömür gözləmir ha... Bir də baxırdıq ki, götürüb özləri işləyiblər. Amma onlar Fərmanın inamını qıra bilmirdilər. O hər dəfə ilk dəfəymiş kimi yenidən başlayır, yenidən insanlara inanırdı..."
Uşaq kimi -KİŞİ kimi.
Bu uşaqlar hardan bilsinlər yaxınlarda savaş başlanacaq, "Sizlərə tuşlanıb yer üzündəki bütün mərmilər" desən yenə güləcəklər, öz karton evciklərində gizlənəcəklər. R. Qaraca.
Uşaqları güldürmək, onları xoşbəxt görmək üçün tullanıb düşən gülməli adam... Onun haqqında gedən verilişlərdən birində göstərilən bu kadrlar sanki onun bütün çabalarının qısa məzmunu idi - bu fani dünyada yeganə dəyəri olan körpə gülüşü, o balaca, təmiz insanın indiki və gələcək xoşbəxtliyi idi. Fərman Şəkili adında bir adam bütün vücudunu, enerjisini, həyatını buna xərcləyirdi.
İradə xanım deyir ki, bəziləri ona başqa cür yanaşır, amma Fərman Şurum-Buruma (Aktyorun Uşaq verilişində yaratdığı kloun obrazı nəzərdə tutulur-A. ) əlacsızlıqdan keçmədi:
"O bu sahədə boşluğun olduğunu görürdü. Klounada sənətini ilk dəfə o Azərbaycana gətirmişdi. Klounlar bunu bilirlər. Bir dəfə şənlikdə idik, klounlardan biri yaxınlaşıb Fərmana hərbi qaydada salam verdi və dedi- Siz bizim müəllimimiz, komandirimizsiz! Bu elə təsirli idi ki... İndiki uşaq verilişlərinə baxa bilmirdi. O, uşaqların baxa biləcəyi veriliş istəyirdi. Uşaqları həddən çox sevirdi. Uşaqlara qoşulub uşaqlaşa bilirdi. Amma uşaqları avara buraxmağın əleyhinə idi. Evdə nəvələri üçün də cədvəl düzəltmişdi-idman, yemək, rəsm, musiqi saatları. O heç vaxt uşaqlarının üstünə kiminsə yanında acıqlanmazdı. Onları azad böyüdürdü. O uşağı aşağılamağa dözə bilmirdi. Deyirdi ki, uşağı sındırmaq olmaz. Oğlan uşağıdırsa onunla kişi kimi rəftar etmək lazımdır, qızsa xanım kimi.
Onun ölümü uşaqlarına, nəvələrinə çox ağır təsir etdi. Oğullarım, gəlinim (Fərman onu çox istəyirdi) həmişə özlərini ələ almağa çalışıb, mənə təsəlli verirlər. Məni çox ərköyün öyrətmişdi. Kaş öyrətməzdi. İndi mənim üçün bu vəziyyət daha dözülməzdir. O, mənim həyat yoldaşım olmaqdan əlavə, dostum, sirdaşım, kolleqam idi. Heç bilmirəm nəvələrimə necə izah edim, çox darıxırlar onun üçün, mənim kimi… Deyirəm ki, gedib Allahın yanına, yuxarıdan bizə baxır, şəklinin qabağında şam yandıranda sizi görür, özünüzü



ağıllı olun, qoy baba sevinsin! Onlar da inanıblar. Bəzən onun şəkli ilə danışırlar, mənim kimi..."

Fərman müəllimin evində qonaq olduğumuz gün nəvəsi 4 yaşlı Türkanın sevincli günü idi. O, gimnastika yarışında birinci yeri tutub, mükafat qazanmışdı. Olduqca sadə evdə bir ürək genişliyi var. Bir də şirin Şəki ləhcəsi. Fərman Şəkilinin oğlu Edqar, (kişik oğlu Elvin universiteti bitirib, orduda xidmətdə idi) anası Natella xanım, bacısı Tamilla xanım mənimlə birgə İradə xanımı dinləyirlər. Bəzən adam illərlə bir yerdə olduğu insan haqqında daha çox şeylər öyrənir.

İradə xanım danışdıqca tələsir, onu anlatmaq həyəcanvericidir həm də. Axı o İradə xanımı dəyişə bilmişdi. Fərman Şəkili ilə necə tanış olmaları haqda danışdırmaq istəyəndə İradə xanım eyni sevgi və heyranlıqla onu təsvir edir.

Fərman Abdullayev Şəki Teatrının məşhur, sevilən aktyoru. İradə xanım təyinatla Şəki Teatrına gəlmiş gənc aktrisa. Hamının gözü Fərmanda ikən, o İradə xanıma vurulur.

İradə xanım deyir ki, bu mənim üçün gözlənilməz idi: "Onun sevgisini hiss edəndə mən artıq uçurdum."

Fərman Şəkilinin bacısı Tamila xanım əlavə edir: "İradə çox gözəl idi o zaman."



İradə xanım söhbəti bağlamağa çalışır: "Gözəllik müvəqqəti şeydir. Fərman mənə dünyanı başqa cür tanıtdı. O, məni çox dəyişdi. Qadınam, hərdən yaxşı ev, rahatlıq və başqa şeylər arzulayırdım, deyirdi ki, mən utanaram elə evdə yaşasam".

Fərman Şəkilinin qadını belədir, o keçirdikləri günlərdən danışanda yaşadıqları maddi ehtiyacları sözlərin arasında gizləməyə çalışır. Çünki əri ona mənəvi dəyərləri göstərib, onu, onun dəyərlərini bu XIRDA-XURUŞ maddi ehtiyaclarla aşağılamaq olmaz. O bunu yaxşı bilir. Bir qadının belə bir narahatlığı dəhşətli dərəcədə gözəldir. Və bu gözəlliyi görəndə həqiqətən də onun Tamilla xanıma etirazına haqq verirsən.

Həqiqət isə budur ki, İradə xanım keçmişdə qalıb, Fərman müəllimlə birgə keçirdiyi günlərdə: "Mən onsuz yaşamağı təsəvvür etmirdim, həqiqətən də yaşaya bilmirəm. Sevgililərə yar deyirlər, onlar bir-birinin yarısı deyildi, hamısı o idi... O qürurlu adam idi, icazə də vermədi ki, xəstəliyi haqqında kimsə bilsin. Özünü də sona kimi mərdanə apardı. Yalnız mənə əziyyət verir deyə narahat olurdu. Əlbəttə anası məndən çox zəhmətini çəkdi. Haqqını halal eləsin! Hərçənd o, nə xəstəxanada yatdı, nə də bir şey. Özü istəmədi. Sonadək də evdə, ayaq üstə oldu”.



### *Son nəfəsdə*

Filmin sonu.

"Canını tapşırmazdan on dəqiqə əvvəl zorla başa düşüləcək tərzdə "İra, mən səni çox istəyirəm" dedi... ... Əllərini sinəsində çarpazlayıb göz qapaqlarını sıxıb açdı. Mən anlamadım. Sən demə o "bitdi" demək istəyirmiş. Bir neçə saniyə keçmədi ki, dedilər, ruhunu tapşırıb."

Həyat yoldaşı İradə xanımın Fərman Şəkilinin həyatının son dəqiqələri haqqında danışdığı bu epizod Qodarın "Son nəfəsdə" filmindəki Belmandonun qəhrəmanı Mişelin ölümünə bənzəyir.

Mişel yaşamaq üçün şans verən hər şeydən imtina edə-edə gedir və bununla o, təslimçi həyatı yox, etirazçı ölümü qəbul edir. Son nəfəsdə təxminən oxşar mimikalar edir. Rolunu sonadək şərəflə oynayır. Aktyor Fərman Şəkili kimi. Kimsəyə qoşulmur. Necə ki, Fərman Şəkili yazının sonu üçün seçdiyimiz bu fotoda kənarda əyləşib, sadəcə seyr edir və illah ki, bu yazıya qoşulmur. İndi sadəcə və laqeydcə seyr etmək onun növbəsidir...



*Fərmanın yazdığı əsərlərdən bəziləriini oxuculara təqdim edirəm:*

**Fərman Adullayev**

## "DAHİ"

İştirakçılar: *Gənc*
*Qoca*
*Uşaq*
*Qadın*

Tamaşa yeknəsək çarx cırıltısı ilə başlayır. Cırıltı get gedə güclənir.

PƏRDƏ AÇILIR

Səhnədə üç baget çərçivə var. Qoca, Gənc və Uşaq səhnənin ortasındakı bagetin içində çabalayırlar. (Ürək tubbultusu) Qoca, gənc və uşaq təsəvvür edilən şüşəni sındırıb yıxılırlar. Yerdə "Yaralı Axill" pozasında yatıb, ağır-ağır nəfəs alırlar.

*Uşaq:* İlahi, nə gözəl güllərdir? Hələ bir ətrinə bax...

*Gənc:* Üfunət qoxulu zir-zibildir onlar.

*Qoca:* Zibillikdə çiçəkdir, çiçəklikdə isə zibil... (cırıltı)

*Uşaq:* O nə cırıltıdır?

*Gənc:* Su quyusunun çarxı...

*Qoca:* Zamanın çarxıdır, o cırıldayan...

(Cırıltı davam edir, onlar yerdə çabalayaraq biri digərinə yoğrulur)

*Gənc:* Təngə gəldim!!! Lənətə gəlmiş yeknəsəklik! Ağ qurd tək didir, parçalayır, əfi ilan tək yalayır məni...

*Qoca:* (qalxıb) İstirahət edək...

(Hər üçü əllərini arxada çarpazlayaraq var-gəl edirlər)

*Qoca:* Zəncir səsləri...

*Uşaq:* Qoca, həyat nə deməkdir?

*Gənc:* Sizif zəhməti...

*Qoca:* Bəs onda niyə çırpınırsan həyat eşqi ilə?

*Uçaq:* Sizif kimdir?

(Qoca və Uşaq çərçivənin kənarlarında "Qul pozasında")

*Gənc:* Qədim zamanlar insanlara xeyirxahlığı və başqasına kömək əli uzatmağı öyrətdiyinə görə Sizif adlı birisinə Allahların qəzəbi tutur. Onu

cəzalandırmaq məqsədi ilə Sizifə yumru, böyük bir daş verərək, əmr edirlər ki, onu yüksək dağın zirvəsinə qaldırsın. Sizif dağın zirvəsinə çatar-çatmaz daş onun əlindən çıxaraq, aşağı diyirlənir. (Qoca və Uşaq "Ölən qul pozasında") Sizif daşa dağın ətəyində çatır. Onu təzədən yuxarı qaldırır... Daş əlindən yuvarlanır. Beləliklə, o bütün əbədiyyət boyu bu puç və mənasız bir işlə məşğuldur.

(Hər üçü "Ölən qul pozasında")

*Uşaq:* Niyə elə?

*Qoca:* Bir qaniçənlə xeyirxah yaşardı. Hər ikisi öldü. İnsanlar üçün itki hansıdır?

*Uşaq:* Xeyirxahın ölümü.

*Qoca:* Ay sağ ol! (Cırıltı)

(Gənc və uşaq "dünyanın yaranması" pozasında)

*Uşaq:* Mən əllər çəkəcəyəm. Arıq, sürsümüklü əllər, nimçədə xörək uzadır başqasına.

*Gənc:* Kök əllər çəkmək lazımdır, arıq əllərdən yemək qopartsın,

*Qoca:* Bu mövzu deyil...

("Hücuma atılan aslan" pozasında. Hər üçü başqa səmtlər göstərib)

*Hər üçü:* Bax, oradan gələcək mənim mövzum.

(Qadın daxil olur)

*Hər üçü:* Mane olma. Çıx get!

*Qoca:* Dayan, hanı boyunbağın?

*Qoca və Gənc:* Səndən soruşuram. Biçarə. Niyə ağlayırsan? (Musiqi)

*Gənc:* Yadındadır? Onu sənə bağışladığım gün?.. Aylı bir gecə idi, gözəl və əsrarəngiz yay gecəsi... Bir sən idin, bir mən idim, bir də dəniz...

*Qadın:* Ayın əksi ləpələrdə oynaşır, sanki xoşbəxtliyimizə sevinirdi...

*Gənc:* Mən onda səni ilk dəfə öpdüm və boyunbağını sənə bağişlayib dedim: "Qoy bu sevgimizin rəmzi, xoşbəxtliyimizin göz muncuğu olsun."

*Qadın:* Mən çox xoşbəxt idim. O dərəcədə xoşbəxt idim ki, qorxurdum öləm, davam gətirə bilməyəm bu səadətə...

*Qoca:* Sənsə itirdin boyunbağını...

*Qadın:* Yox! İtirmədim... Ev sahibi gəlmişdi... Qovurdu bizi evdən... Girov qoydum...

*Qoca:* İlahi... Bağışla məni səni xoşbəxt edə bilmədim... Mən səni kraliçalara tay etmək istəyirdim, amma... Görürsən ki, əfələm, vecsiz adamam. Bazar işlərindən də başım çıxmır!

*Hər üçü:* Axı nə görmüsən məndə?! Get özünə xoş bir güzaran qazan!

*Qadın:* Yemək gətirmişəm.

*Uşaq:* Sən mələksən!
*Gənc:* İlahəsən!
*Qoca:* Bəlkə də Allahın özüsən.
*Hər üçü*: Lakin çox adisən, mövzum deyilsən... Bax, oradan gələcək mənim əsərim...
*Qadın:* Tərəvəzsatan gəlmişdi. Badımcan çəkməyini sifariş elədi.
(Cırıltı. Hər üçü çərcivənin içində Girdab rəqsi)
*Gənc:* Ey sənət, lənətlər olsun sənə ki, qanmaz tərəvəz satana qulluq edirsən!
*Qoca:* Badımcan, xiyar çəkməkdən çirkaba döndük. Ağ qaradan işıqlı olduğu tək, yaşamaq da ölməkdən yaxşıdır.
*Gənc:* Ən adi mədə tələbi, bazar zənbili. Pul cingiltisinə rəqs edən bəşəriyyət.
*Qoca:* Sən bu badımcan, xiyarı o ikonanın yerindən as, altında da şam yandırıb, səcdə et onlara ki, sağ qalmağına səbəb onlar olub!
*Uşaq:* Təhqir etmir bu münasibət səni? (Pauza)
*Gənc:* Məhv olacaqsan, Qoca!
*Qoca:* Mən də insanların bu cür prometeyiyəm.
(Sizifin daşı. Hər üçü "Davud" pozasında)
*Hər üçü:* Sizifin daşı...
(Təsəvvür edilən daş üçünün də başından basır, onları əyir)
*Uşaq:* Qoca, həyat nə deməkdir?
*Gənc:* Dar bir çərçivə...
*Qoca:* Həyat ucsuz-bucaqsız bir səhradır ki, nə əvvəli var nə də ki, sonu.
(Axır ki, daşı çiyinlərindən atırlar. Taqətsiz "bəkləmə" pozasında oturub)
*Uşaq:* Mən dünya çəkəcəyəm, güllü-çiçəkli...
*Gənc:* Bir səhra çəkmək lazımdır. Qızmar günəş altında kiçik bir şam yansın... Əsərin də adı olsun avtoportret...
(Uşaq tavana, Gənc yerə, Qoca zala baxıb)
*Hər üçü:* İnsanlar...
*Uşaq:* Onlar hara tələsir?
*Gənc:* Özlərini aldatmağa...
*Qoca:* Alıb satmağa...
*Gənc:* Gör bir necə tələsirlər... Hara tələsirsiz, ay bişarələr? Onsuz da həyat elə bir yaşayış tərzidir ki, arzuların qızılcadır, qazancınsa quruşca.
*Qoca:* İlgəkdə boyun...
*Uşaq:* Niyə elə?
*Qoca və Gənc:* (Göyü göstərib) Bax, ondan soruş! (Kareta səsi, hərəsi bir

çərcivədən baxıb)

*Uşaq:* O kareta kimindir?

*Gənc:* Ölümün!

*Qoca:* Ömürün!

*Hər üçü:* İşləmək lazımdır. Çəkmək!

*Gənc:* Elə bir əsər yaratmaq ki, bütün bəşəriyyət onun qarşısında baş əysin.

(Qadın daxil olur.)

*Qadın:* Tərəvəzsatan gəlib şəkilin dalıyca.

(Hər üçü gülür.)

*Qoca:* (Zarıyır) Al, apar...

(Qoca və Uşaq Pikassonun "Güllələnəcək adam" pozasında)

*Gənc:* Puçluğunu qanaraq işləyəsən.

*Uşaq:* Nə vaxta qədər badımcan, xiyar çəkmək olar?

*Qoca:* Məqsədə çatanacan!

*Gənc:* Bir bataqlıqda gözəl bir çiçək yetişibmiş, nə qədər ki, balaca imiş, bataqlığın üzərini örtən tüstünün altında o, asudə yaşarmış. Borandan, qardan xəbərsiz. Elə ki böyüdü başı giribmiş tüstüyə, az qalıbmış ki boğulsun. İstəyirmiş ki, dartınıb başını çıxartsın tüstüdən. Lakin... Kökləri torpağa bərk pərçimlənibmiş... Beləliklə, çiçək başını yerə dikib, rahat nəfəs alırmış. Qərara alırmış ki, belə əyri halda böyüsün, zoğu lap uzun olan tək, dikəlib çıxardar başını... Bir gün tüstünü bu yerlərdən qovan külək, istəyibmiş ki, düzəltsin çiçəyin əyri qəddini. Güc verən kimi, çiçəyin zoğu bölünübmüş ortadan.

(Hər üçü ortadan qopmuş tək yıxılıblar.)

*Uşaq:* Niyə?

*Gənc:* Çünki, qartıyıbmış biçarənin donqarı. Çox sənətkar tanıyıram həmin çiçək tək donqarlaşan... Pulları var... Hökmləri var... Amma... Cəsarətləri yoxdur...

(Hər üçü sürünərək biri digərinə yaxınlaşırlar)

*Uşaq:* Bu sifarişçilər nə vaxtacan bizləri bədbəxt edəcəklər?

*Gənc:* Əbədiyyət boyu. Şəkil gərək satılsın ki, mən yaşaya biləm. Sözün dəhşətini anlayırsanmı, Qoca? Sa-tıl-sın! Bir fahişə tək, bir neçə quruşa, hansısa bir əbləhə qismət olsun!!!

*Uşaq:* Axı sifarişçilərin nə haqqı var?

*Qoca və Gənc:* Var!

*Gənc:* Çünki, pul onlardadır!

*Uşaq:* Bu gedişatı dəyişmək olmaz?

*Gənc:* Ha-ha-ha-ha

*Qoca:* Mən susuram...

(Hər üçü "Yaralı Axil" pozasında. Şarmanka musiqisi)

*Gənc:* Ey şarmankaçı, melodiyani dəyiş!

*Qoca:* Quruş at ki, sözünün kəsəri olsun.

*Gənc:* (Pul tullayıb) Melodiyanı dəyiş!

(Şarmanka tezləşir.)

*Gənc:* Melodiyanı dəyiş!

(Şarmanka yavaşayır.)

*Qoca:* Şarmanka elə qurulub, o biçarənin nə günahı var?

*Gənc:* Şarmankanı dəyişmək lazımdır. ( Qalxıb) Lənətə gəlmiş çərçivə?

*Uşaq və Gənc:* Qoca, gəl məhv edək bu çərçivəni

*Qoca:* (Acı-acı gülür) Çərçivəsiz mümkün deyil. Hər şeyin bir səddi var, o da çərçivə deməkdir.

(Gənc və Uşaq taqətsiz çökürlər. "Skorçivşiysya malçik". Hay-haray)

*Uşaq:* Onlar kimlərdir?

*Gənc:* Tənqidçilər. Cavan oğlanı boğurlar.

*Uşaq:* Niyə?

*Qoca:* O, deyib ki, bu rəssamda istedad var. Bunlar da onu boğaraq söyləyirlər ki, ola bilməz. Cünki məhşur deyil.

(Qoca və Uşaq "Ölməz Giqant" pozasından keçirlər "Ölmüş Paşnik" pozasına. )

*Gənc:* Siz, ey karetalı ağalar və xanımlar, içi nəcislə dolu tuluqlar! Tələsin! Qardaş qanından yoğrulmuş daş-qaşlı bəzək-düzəklərinizi də taxmağı unutmayın!!! Son modalı donlarınızı geyinin! Nə qədər olsa kütlə qarşısına çıxırsız! Kor gözlərinizdəki qızıl sağnaqlı eynəkləriniz sizə çox yaraşır, ağalar! Maraqlı və gülməli əyləncə!!! Əsrin sonuncu naliyyəti! Gənc istedadın göz qabağında məhvi! Növbəti qurban!!! Onsuzda boğulmuş bu biçarənin məhvini siz tamamlayın, ey dünyadan bixəbər savadlılar!!! (Külək) Ancaq çox ehtiyatlı olun! Birdən işdir-şayət bu bədbəxt inkişaf etsə, məhşurlaşsa, ona altdan yuxarı baxaraq, onu boğduğunuz, didib parçaladığınız əllərinizlə, onu alqışlamalı, onun üstünə "Rədd ol, kafir"- deyə, çığırdığınız üfunətli ağzınızla "Bravo" deyə, bağırmalı olacaqsız!!! Lakin hansı üzlə? (Acı-acı gülür) Sizdən nə desən gözləmək olar... Gombul ağalar və qızıl zəncirli xanımlar!!! (Külək az qala onları götürüb tullasın. Çərçivədən yapışıb.) Qoca, mən bunlara deyirəm ki, bisavaddırlar! Onlarsa məni yumruqlayaraq deyirlər ki, yeddi ustadan dərs alıblar!!! Mən onlara bu fırçanı göstərirəm. Cünki bu fırça ilə doqquz dahi işləyib, lakin o firça olaraq qalır... Fırça... (Hər üçü "Quru ağac" pozasında) Bir su pərisi çəkmişdim, sifarişçi götürmədi. Dedi ki, divarımın rənginə uyuşmur. Siz, ey buqələmunlar, köstəbəklər və yarasalar! Diş-dodaqlarınızı

gəmirə-gəmirə, paxıllıqdan ölə-ölə alqışlayacaqsız. Ona görə ki, başqa çarəniz qalmayacaq... Çünki bu bazar işləri, alıb-satmaq məsələləri, karyera oyunları deyil ki, sizə bərabər tapılmasın. Bu sizin ulu babalarınızın belə ömürləri boyu anlamadıqları incəsənətdir!!! (Pauza) Gör kimlər qiymət verir mənim sənətimə? Mənə deyirlər ki, sənin şəkillərində ilahəlik əks olunmayıb!!! Hansı ilahəlikdən gedir söhbət? Ac qarnımdan, ya dan yeri söküləndən gün batanacan yan-yörəmdə işləməkdən can verən qardaşlarımın istirablarının ilahəliyindən? Sevinin, qiyyə çəkin, şənlənib gülün ki, buqələmunlar belə sizdəki çoxüzlülüyə həsəd aparır... Ey oğru başı sifarişçilər!!! Kor tənqidçilər!

(Monoloq boyu qollar sınır, nəhayət qasırğa gənci və uşağı çərçivədən tullayır)

*Uşaq:* Qoca, istedad nə deməkdir?

*Qoca:* Allahlar öz nəşələriyçün müxtəlif cəzalar və bəlalar icad edərək, yer üzərinə səpələyirlər. Bir gün cəza qurtarır . Allahlar təzə bir şey fikirləşib tapa bilmirlər və nəhayət şeytana üç gün vaxt verib tələb edirlər ki, çox dəhşətli bir əzab fikirləşib tapsın. Üç gün tamam olur, şeytan Allahlara deyir: "Gözəl bir əzab tapmışam. Bu əzaba düçar olanlar, özləri özlərini məhv edir, çırpıntılar, axtarışlar içində çabalayır, qısası, öz qarınlarına çörək tapmağa qadir olmadıqları halda səmalarda əlləşirlər, tonqala atılmış nazik bir şama bənzərlər ki, yanmağa macal tapmamış, əriyib yox olurlar. Ən maraqlısı isə odur ki, həmin şəxslər o əzabdan ləzzət alırlar. Həmin əzabın adi isə istedaddır. Şeytanın bu əməli Allahların xoşuna gəlir. Onu bir oxa çevirərək, yayını da məsum bir mələyə tapşıraraq, əmr edirlər ki, onu hər on min nəfərin içindən yalnız bircəciyinin içindən sancsın. Səni əhatə edənlərdən zərrəcə belə artıq qanmaq, savad yox, şərəfsiz ölüm deməkdir."

*Uşaq:* Qoca, həyat nə deməkdir?

*Qoca:* Həyat, qızmar günəş altda bir gölməçədir ki, surətlə buxarlanır.

(Sizifin daşı yuvarlanır. Ürək tuppultusu. Hər üçü qopub yıxılır)

*Gənc:* Mən günəşi görürəm!!!

*Hər üçü:* Mən günəş çəkmək istəyirəm!

(Biri digərinə yoğrula-yoğrula)

*Qoca:* Hər şeyi olduğu tək, öz işığında, öz rəngində, artirmadan, azaltmadan: koru kor, gözlünü gözlü. Dahidə düha tapmaq istəmirəm mən. Onu hamı bacarar. Mən adidə göstərmək istəyirəm dühanı. Mən günəşdə görürəm gücü-qüvvəti!

*Gənc:* Lakin bu bədbəxtlər inkar edir günəş kimi bir varlığı! Qondarma işıq tələb edirlər şəkillərimdə.

*Uşaq:* Niyə?

*Gənc:* Çünki həmişə həmin rəngdə görüblər şəkilləri. Hünərin var təzə bir şey göstərmək istə onlara. "O İlahi,"- deyə bağıraraq qaçacaqlar .

*Hər üçü:* Yarasa günəşdən olmur xəbərdar. Bunun üçün günəşin nə qüsuru var? Məncə kor yaxşıdır, o gözlüdən ki, göz yumub günəşi eyləyir inkar!

(Qoca "Skorçivshiysya malçik" pozasında)

*Qoca:*Yarasalar, köstəbəklər və bayquşlar günəşə görə gündüzlər qaçıb, gizlənməyə məcbur olurlar. Aralarındakı bir ağıllısı təklif edir ki, nəhəng, çox nəhəng bir tor toxuyub, günəşi tutaraq dənizin dibinə bağlasınlar ki, o bir daha onların gözünü qamaşdırmasın, zülmət dünyada kef çəksinlər özləriyçün. Gecə-gündüz iş gedir. Tor toxunub qurtarır. Və bu biçarələr gecədən hündür bir dağın zirvəsinə qalxırlar ki, günəş görünən kimi tutsunlar onu. Lakin günəş görünər-görünməz, hamısı toru tullayıb, üz tuturlar qaçmağa. Daşın altına soxulan hansı, bağrı çatlayıb murdar olan hansı... Günəşsə bütün bunlardan xəbərsiz elə hey qalxır və qalxırdı.

*Gənc:* Gəlin oyanaq! (Hər üçü "Ana bətnindəki uşaq" pozasında yatırlar)

*Uşaq:* Hansıdı Dünya?!

*Qoca:* Yuxuladığım, ya oyandığım?!

*Gənc:* Qovduğum, ya qaçdığım? !

*Uşaq:* İtirdiyim, ya taapdığım? !

*Gənc:* Ağ qaradır.

*Qoca:* Mavi qırmızı.

*Uşaq:* Mavi dərinlikdir.

*Gənc:* Dərinlik boşluq.

*Uşaq:* Boşluq heçlik.

*Gənc:* Heçlik puçluq.

*Qoca:* Puçluq əbədi, əbədi mənasız.

*Gənc:* Rənglərin sayı qədər.

*Qoca:* Rəqsi qədər, vəhdəti qədər.

*Gənc:* Güclü və incə.

*Qoca:* Röya qədər şirin.

*Gənc:* Həqiqət qədər acı.

*Qoca:* Hər şey gülməlidir.

*Uşaq:* Kimdir haqlı?

*Gənc:* Mən, ya tərəvəzsatan?

*Qoca:* Güclü haqlıdır!

*Uşaq:* Haqlı haqsız!

(Xəyal qadın gəlir. Dəniz səsi.)

*Qoca:* Bir sənsən, bir mənəm, bir də dəniz.

*Qadın:* O vaxtkı kimi.
*Qoca:* Dəniz genişlikdir, azadlıqdır. Qayğısızlıqdır dəniz.
*Qadın:* Günəş lap göz qamaşdırır.
*Qoca:* Günəş...
(Qadın etüdlə nəsə yiğir.)
*Uşaq:* Sən nə edirsən?
*Qadın:* (gülümsünüb) Çiçək yığıram.
(Hər üçü etüdə qoşulur. Gülləri onun başından aşağı səpirlər.)
*Hər üçü:* Mən səni gül-çiçəyə qərq edəcəyəm. Lakin... heyhat!...
*Uşaq:* Hanı elə bir gül ki, sənə layiq olsun?
*Gənc:* Hanı elə bir ulduz ki, sənin qədər şölə saçsın?
*Qoca:* Hanı elə bir günəş ki, sənin qədər isitsin məni, yandırıb- yaxsın?
*Gənc:* Yuxuda hər şey gözəl görünür. Rəngli, qayğısız.
*Uşaq:* (həyəcanla) Sən pərvanəsən?
*Hər üçü:* Pərvanəsən?
*Gənc:* Bilərəkdən özünü oda, alova yaxan.
*Qoca:* Bilərəkdən yanıb kül olan pərvanəsən sən.
*Uşaq:* Qoca, niyə əmələ gəlib təbiətin bu qurbanı? Neyçün məhv edir özünü pərvanə? (Pauza. Cırıltı. Var-gəl edirlər.)
*Uşaq:* Qoca, həyat nə deməkdir?
*Gənc:* Həyat elə bir yaşayış tərzidir ki, arzuların qızılcadır, qazancınsa quruşca. İlahi, nələr arzula, nə qazan. Nələr istə, nəyə müəssər ol! Ey şarmankaçı, kişisən melodiyanı dəyiş...
*Uşaq:* Darıxıram.
*Gənc:* Partlayıram.
*Qoca:* (Susur)
*Gənc:* Ora bax. Gic şair gedir.
*Uşaq:* Niyə gic?
*Gənc:* Ona görə ki, həmin biçarə öz şerlərini heç kimə oxumur. Sadəcə olaraq yazdığını gil qablara dolduraraq torpağa basdırır ki, bir zamanlar kimsə o qablardan birini tapsa, bilsin ki, yer üzərində belə bir şair də varmış.
*Qoca:* Nahaq gülürsən. Bax, o adamdan öyrənmək lazımdır təmənnasızlığı. O, əməyinə görə insanlardan heç nə ummur, sadəcə olaraq öz işlərini bağışlayır gələcək nəsillərə. Təmənnasız bağışlayır. Necə ki, Məryəm ana İsa Məsihi bu Dünyaya bağışladı.
*Uşaq:* Məryəm ana doğrudan yaşayıb?
*Qoca:* Onun doğrudan yaşayıb yaşamaması vacib deyil. Əsas odur ki, insaniyyət Məryəm ananın timsalında, gözünün ağı-qarası olan bircəsini, ən

dəyərli, ən qiymətli bir bəhrəsini belə bəşəriyyətə təmənnasız qurban verən bir ana obrazı yaradıb. İstedadın parlamasını gecikdirmək olar, məhv etməksə qeyri-mümkündür! Qeyri mümkün!

(Həyəcan)

*Uşaq:* O cavan oğlana bax, özünə qanad düzəldib uçmaq istəyir...

*Gənc:* İnsan özünü dərk edəndən bu günə qədər elə hey səmalara qalxmaq istəyir. Ay bədbəxt, nə var o yüksəklikdə boşluqdan savayı, nə?

*Qoca:* Biçarə anlamır ki, səmaların da qartalı, quzğunu, bayquşu, yarasası var.

*Gənc:* Nicat yolu da görünmür.

(Tuppultu)

*Uşaq:* Qoca, həyat nə deməkdir?

*Gənc:* Bir bazardır ki, hər şey satılır.

*Qoca:* Həyat mizan tərəzisidir. Hər kəsi öz işi, öz əməli ilə saf çürük edir.

Hər üçü: Bax ordan gələcək mənim əsərim!

(Qadın gəlir. Yemək gətirib. Var-gəl edirlər. Arxası zala)

*Qoca:* Yadındadırmı...

*Uşaq:* İstəyirdik ki, ən hündür dağın zirvəsinə qalxaraq, əlimizi səmaya vuraq.

*Gənc:* Sonra başa düşdük ki, bu mümkün deyil.

*Qoca:* Və nəhayət anladım ki, mümkündür. Bütün müqəddəslər tək... İndi isə çıx get. (Qadın gedir)

*Hər üçü:* İşləməliyəm!

*Uşaq:* Şəkildə ən əsas günəşdir?

*Gənc:* Ən əsas fikir.

*Qoca:* Ən əsas günəşli fikirdir.

*Hər üçü:* Yorulmuşam!

*Gənc:* Ən adi şeyləri isbat eləməkdən təngə gəlmişəm.

*Qoca:* Kepmenə bax, gör bir atları necə qamçılayır?

(Qeyri-şüuri ləngər vuraraq biri digərinə çırpılır)

*Uşaq:* O atların günahı nədir, axı?

*Gənc:* Heç nə. Sadəcə olaraq həmin kepmen gendə oturan o yekəqarından bir-neçə quruş artıq qoparmaq xəyalındadır. (Gülür) At isə dözür... Bilirsən neyçün? Çünki, əhliləşib, əhliləşdiriblər o bədbəxti...

*Qoca:* Həmişədən belədir. Cıdırda qaçan, qan-tərə batan atdır, amma mükafatı alansa onun belində həyasızcasına oturan jokey. (Tuppultu) Ey şarmankaçı... Hünərin var melodiyanı dəyiş! Allah insanı yaradanda onları üç yerə bölüb: birincilər görməyənlərdir ki, bu dünyaya heç nə gətirmədən, bu

dünyadan piydən başqa heç nə aparmayanlardır. İkincilər görüb susanlardır ki, onlar bu dünyaya heç nə gətirməyib, heç nə də aparmayanlardır. Üçüncülərsə görüb bağıranlardır ki, bəziləri onları dəli çağırır, bəziləri isə dahi... Bu gözəlliyi görməyən ondan zövq almayan insan, bədbəxt insandır!

*Uşaq:* Qoca gözəllik nə deməkdir?

*Gənc:* Gözəllik, elə bir qüvvədir ki, qarşısındakı insanın bütün heyvani ehtirasını üzə çıxarır. Hər bir şəxs həmin gözəllikdən daha artıq dadmaq, daha çox udmaq eşqiylə özü də bilmədən qorxunc bir eybəcərə çevrilir.

*Qoca:* Gözəllik elə bir qüvvədir ki, vəhşiləri belə yumşaldır, acları doyuzdurur, donmuşları isidir. Canverənləri belə yaşamağa ruhlandırır!

(Hər üçü əvvəlki kimi "Yaralı Axill pozasında)

*Uşaq:* İlahi, balıqlar göydə uçurlar.

*Gənc:* Balıq deyil, xəzan yarpaqlarıdır onlar.

*Qoca:* Yox yarpaq da deyil, bu ilham pərilərinin şıltaqlığıdır. Yaratmaq eşqiylə şırpınan bir beynin yorğunluğudur. Məni uçunma tutur... buna yaradıcılıq uçunması deyərlər... Mənim ilham pərim yaxınlaşır, lakin dözə biləcəyəmmi bu görüşə... Davam gətirə biləcəyəmmi? (hər üçü "polojenie vo qrob" pozasında. Qadın gəlir.) Nə bildin ki, təkəm? Eh qadınlar, qadınlar... İncə-incə, zəif məxluqlar, güclü-güclü kişiləri doğan da onlar! Sən olmasaydın...

*Hər üçü:* Məhv olardım mən...

*Qadın:* Sənin mövzun gələcək. Mən buna inanıram. Bir az da döz... heyif ki, sənə heç bir köməyim dəymir.

*Qoca:* Sənin nəhəng ürəyin var. Sən o qədər geniş qəlbli bir insansan ki, özünün böyüklüyünü belə başa düşmürsən.

*Gənc:* Sən oldun məni gözlü korlardan, bu tox aclardan, əlli-ayaqlı şillərdən qoruyan... Öz titrək əllərini mənə uzadıb dedin: Biçarə, mənsiz məhv olarsan, bu yırtıcı həşəratların arasında, gedək mən səni aparacam. Həyatın kələ-kötür, qana susamış, cadar-cadar yollarıyla səmaya doğru...

*Qoca:* Məni təzədən uçunma tutdu. İlhamdan gələn uçunmadır bu... (Musiqi) Pərvərdigara, bu nə deməkdir? Mənim mövzum. Mənim mövzum... Dayan görüm. Mən ömrüm boyu Yudifi çəkmək xəyalında olmuşam. Lakin, (Gənc və uşaq "Dünyanın yaranması" pozasında) Yudifin qəhrəmanlığını yox, onun lirik tərəfini göstərmək istəyirdim. Mən onu iş görən vaxt yox, Olaferin başı kəsik halda ayağının altında... Mənə təmizlik, sədaqət və gözəllik timsallı qadın lazım idi... Həmin qadın sənsənmiş... Mən səndən gözəlini, təmizini tapmayacağam! İlahi... Bağışla məni... Mümkünsə hamını korluqda təqsirləndirən bu koru bağışla! (Uşaqla gəncin əlləri bir-birinə toxunur.) Sənsən mənim Yudifim... Gəl... Gəl mən səni əbədiləşdirim... Bax, budur mənim

bəşəriyyətə bağışlayacağım əsər... (Hər üçü əl-ələ verib xəyal qadını çərçivəyə salır. Diz çökürlər.)

*Uşaq:* Şəkil nə imiş?

*Qoca:* İşıqla kölgənin rəqsi. Rənglərin oyunu. Qaranlıqla işığın kəsişmə nöqtəsində alınan rənglərin sayı və təkraredilməzliyi. Həmin rənglərin özlərində gizlətdiyi mənalar o qədər dərin, gözəlliyi o qədər hədsiz, gücü o dərəcədə əvəzedilməzdir ki, insan adlanan varlıq həmin bu müqəddəs üçlüyün bizə söylədiklərinə heç bir şey əlavə edə bilməz. Heç bir əlavə!. . Bu müqəddəs üçlüyün yaratdığı nuru isə insanlara yalnız idraka qulluq edən bacarıqlı əl çatdıra bilər! Bütöv, ali bir insan əli! Yəni gücü və həvəsini idrakına qovuşdura bilən tək xoşbəxtliyə malik bir insan əli!...

*Gənc:* Şəhərdə taun var!!!

*Qoca:* Mən bir sənətkar tək indicə doğulmuşam... Yaşayıb-yaratmaq eşqi məndə o qədər güclüdür ki, heç bir taun mənə bata bilməz!...

Səs-küy: Taun!!!!

*Hər üçü:* (Kəndirdən yapışaraq) Taun!!! Lənətə gəlmiş xəstəlik... Sən çox pis vaxtda gəldin!!!

*Gənc:* Aman ver, mənim bəşəriyyətə deməli bir-neçə sözüm var axı...

*Qoca:* Qədim Afinaya varvarlar basqın edəndə, məhşur bir riyaziyyatçı düstur həll edirmiş. Riyaziyyatçı varvarı görən kimi ondan düsturu həll edib qurtarıncaya qədər möhlət istəyib... Lakin... Varvar...

*Uşaq:* Qoca, həyat nə deməkdir?!

*Qoca:* Həyat bir məşəldir ki, hər gələn onu mahnıya çevirib bəşəriyyətə bağışlamalıdır. Elə bir mahnıya ki, izi əsrlər boyu qalsın!

*Gənc:* Xoşbəxtsənmi qoca?!

*Qoca:* Əlbəttə!!!

*Gənc:* Xəstəlik səni bərk incidir?

*Qoca:* Yox!! Çünki mən zərrə-zərrə, damla-damla öz işlərimə paylanmışam... Mən doğrudan da xoşbəxtəm!!!

*Uşaq:* Qoca, bəs bədbəxt kimdir?

*Qoca:* Bədbəxt o kəsdir ki, öz mahnısını bəstələməmiş köçsün bu dunyadan!!!

(Hər üçü "Laokon" pozasında. Musiqi güclənir.)



**Fərman Abdullayev**

# "ÇƏLLAD"

Qaranlıqda həbsxana qapısının açılıb örtülməsi səsi.

Həbsxana kamerası. Dustaq təzəcə kameraya salınıb və qapı arxadan bağlanıb. Dustaq bir müddət bağlı qapının arxasında donub qalır. (Pauza) O, istehza ilə gülümsünür. Birdən ciddiləşir. (Pauza).

Dustaq: (gülümsünür)... Ölüm cəzası!... Mənə?!. (gülərək) Mənə olüm cəzası... Ən ağır cəza... Dayan görüm, hakim necə dedi?... Ən ağır cəzaya... Yox... Deyəsən Ən yüksək cəzaya... Eh, axmaq kimi hakimin hökmünü diqqətlə dinləmədim... (gülür) Bəlkə də, mən ölüm cəzasına məhkum olunmuşların içində yeganə adamam ki, öz ölüm hökmümü diqqətllə dinləmədim... (gülür) dəhşətdir! (ciddi) Nədir dəhşət?... Mən nə haqda isə danışırdım?... Dayan görüm... Hə, ölüm hökmündən... Dayan, dayan... mən dedim ki, hakimin hökmünü diqqətlə dinləmədim. (Gülür) dinləmədim... (Pauza) Bəlkə də ona görə ki, mən həmin hökmü gözləyirdim. Zarafat deyil üstümdə on altı qız ölümü var, onun da doqquzu azyaşlı. (Çevik və şən) Uxx!!!... Həmin hadisələr barədə fikirləşəndə belə ehtirasım cuşa gəlir... (Şən halda adamyeyənlər sayağı səslər çıxararaq kamerada qaçır.) Qəzəblə: "Dilini çıxar, it qızı, dillini çıxar!" (dişləyirmiş kimi) Xırp! Qan belə (göstərir) axır, (Şən halda rəqs etdikcə get-gedə qəzəblənir. Gözləri çevrilir, hiss olunur ki, özündə deyil.) Yoxdur... Heç kim yoxdur... Qız yoxdur, qan yoxdur... (Get-gedə xırıldayır, nəhayət sakitləşib, bir an harda olduğunu anlamır. Çox sakit tərzdə) Sərin pivə olsaydı içərdim. (Hirsli) Əclaflar, bircə banka pivə versəydilər dünya dağılardı bəyəm?! Cinayət törətmişəm, cəzamı da alacam, ancaq pivəyə nə gəlib? Bircə banka sərin pivəyə?!... Eh... (Çarpayıya atılır) Bax... Bax... Həmin o fahişə yadıma düşdü... Dəmiryolu vağzalından qapazlayıb evimə gətirdiyim... Çaqqal hələ mənimlə pul davası eliyir... Yumruğu başına elə çırpdım ki, kəsilmiş kötük kimi yerə sərildi... Buna bıçaqla bir zərbə, birini də... sonra biri... Dilini çıxar, it qızı dedim, dilini!!!Dilini!!!Xırp... Ulu-lu-lu-lu... İt qızı lap hündürdən çığırırdı... Ağzını kəsən kimi səsi kəsildi. Sonra rəqs edirdim. (Aramla qollarını açıb rəqs edir.) Az qala qonşular başa düşmüşdü. O

hadisədən sonra daha heç birini evə gətirmədim... Onları şaqqalamaq (şövqlə) ləzzət verirdi mənə... Şaqqalıyıb döşəkağına bükürdüm... Qəşənkcə... Qədim filmlərdəki hamam boğçası kimi... (Dilxor) Həmişə beynimdən keçirdi ki, törətdiklərimi videoya çəkim, lakin heç vaxt imkan düşmədi. Həmin boğça, kəsik başlar, qan... (təəssüflə) Yoxdur... yox... dur... (Get-gedə xırıldayır, nəhayət özünə gəlir, qollarını ovuşdurur) Lənətə gəlmiş qandal! İt uşağı baş sındırıb, yuxularına haram qatıb gör nə icad ediblər. Qandal! Qollarını tərpətmək bir yana nəbz vurduqca da get-gedə sıxır. Konvoy da qəsdən qandalı tez-tez dartırdı ki, qollarım biləkdən üzülsün. İnsaf deyilən şey yoxdur əjlaflarda, ağrıdır axı!... Özləri də humanistlikdən dəm vururlar! (Koridordan addım səsləri eşidlir.) Gəlirlər nədir?! (Gülümsünür) Belə tez gəlməzlər. Hökm oxunan heç iki saat deyil... Dəhşətdir! Bu qalınlıqda səs keçirməyən divarlar... Amma mən adicə addım səslərini aydınca eşidirəm... (xəyala dalaraq) İşə bax, həmin bu koridorlarla mən gələrdim... adam güllələməyə... Eh!... On il dörd ay can qoymuşam bu koridorlarda. Yox, dayan görüm... Hə də, düz on il dörd ay iki gün. Hə... əsgərlikdən qayıdandan bura işə düzəldim. Cəlladlığa. Sənətin adına bir bax! Cəllad! Cəl-lad. Fikir ver, gör ağız necə dolur, bu sözü deyəndə?! Cəl-lad! Ulu-lu-lu-lu-lu!!! Dəhşətdir! Aşağıda adını oxuyursan filan kamera, filan dustaq. Makarovu doldurub qoyursan cibişdana, o dəqiqə bütün dünya gözündə kiçilib, oyuncağa bənzəyir. Və başlayırsan koridorda qəsdən tıqqıltı salaraq irəliləməyə. (Gülür) Bütün koridor boyu kameradakılar başlayırlar əsim-əsim əsməyə. Ürəyi gedən hansı, sarılıq keçirən hansı?!... (Gülür) Özüm qəsdən hansısa kameranın qapısı önündə bir anlığa ayaq saxlayırdım və təsəvvür edirdim ki, içəridəki nə hallara düşdü. Bir dəfə də bir kameranın qarşısında dayandım... içəridən küt səs gəldi. Dustaq idi. Qorxudan bayılmışdı. Sonradan məlum oldu ki, bayılmayıbmış. Qorxudan ürəyi partlayıb ölübmüş! Ondan sonra ayaq saxlamağı qadağan etdilər. Ölümünü gözləmək hər adamın işi deyil. Bircə cırıltı, bircə taqqıltı bəsdir. (Qürurla) Ancaq buna baxmayaraq hökm icra etməyə gedəndə özümü Allah sanırdım. Gəlirsən bir bəhanə ilə kameradan çıxarıb koridorla aparırsan, ancaq gərək aktyorluğun da olsun belə ki, gərəkdir dustaq heç nədən şübhələnməsin. Yoxsa qorxu pis şeydir, insan vahiməyə düşür. Əməlli başllı xəsarət ala bilərsən. Həm də solaxaylığım da mənə kömək edirdi. Sol əldən zərbə gözləmirlər axı... Pilləkanlarla aşağıya enəndə keyfim istəyən nöqtədə tapançanı çıxarıb, boyun fəqərəsinə part bir güllə. Ulu-lu-lu-lu... Un çuvalı kimi aşıb düşürdülər. Heç cınqırlarını da çıxarmağa macal tapmırdılar . Ha-ha-ha! (Çarpayıya uzanır.) Cəzanı bizdəki kimi icra etmək yaxşıdır. Çünki dustağın xəbəri olmur. Yoxsa başqa ölkələrdəki kimi bir sürü adam gəlir dustağı götürüb aparırlar. Eh!

Yoldaca ölər ki, qoduq. Yox. Oranın cəlladları məncə heç bir ləzzət tapmazlar. (Qalxır) Hələ bizdə elə ola-ola hiss edirlər ölümlərini. Yadımdadır bir cavanı çıxaranda elə koridordaca batırmışdı şalvarını. İyrəndim də... Onu elə koridordaca güllələdim. Heç bir ləzzət də anlamadım... Ancaq bir dəfə bu qonşu kamerada öküz boyda bir pəzəvəng vardı. Onu güllələməyə aparanda özümü vahimə bürüyürdü. İnanmağım gəlmirdi ki, bir gülləyə yatıra bilərəm onu. O irəlidə, mən arxada gedirik... ürəyimin guppultusunu eşidirdim. Birdən bağırıb gülləni atdım. (Gülür) Boyun fəqərəsi elə şey deyil. Bazıburuda zada baxmır. İkinci fəqərə ilə üçüncünün arasından dəydi ha, heç cınqırın da çıxmır. Cəlladlıq çox əla peşədir. Həm adam öldürürsən, həm də maaş alırsan. Özü də əməlli başlı. At doyunca! Du-duf, Du-duf!!! (Barmağını tapança kimi tutub atır.) Du-duf-du-duf!!! Yoxdur, daha heç nə yoxdur!... Nə tapança var, nə bıçaq, nə qan!!! (Get-gedə o qədər donquldayır ki, tutması tutur. Divara söykənib bir müddət donub qalır. Nəhayət özünə gəlir. Bir an harada olduğunu araşdıra bilmir. Qapıya doğru gedir. Açmaq istəyir . Birdən harada olduğunu anlayır.) Tfu! (Gülür) Lap yadımdan çıxmışdı. Divarlarıln qlınlığına bir bax, koridorda top atsan da içəridə eşidilməz!!! (Pauza) Cəlladın addım səslərindən başqa! (Pəncərədən baxır.) Yaxşı ki, hava təmizdir. Belə havada özümü ələ ala bilirəm. Elə ki, sır-sırlar başladı, vəssalam... Qana susayıram... (Həyəcanlı) Özümdən asılı olmur... Bu dəfə tutulanda da... sır-sır idi... Dəmiryolu vağzalında kimə yaxınlaşdımsa, alınmadı. Sanki, belimi baxışlar deşirdi... Ürəyimə dammışdı ki, tutulacam. Sır-sır olduğundan özümü ələ ala bilmirdim. Cumdum aeroporta. Orda da əlimə bir şey keçmədi. Təzədən qayıtdım dəmiryolu vağzalına. Heç bir qadın, heç bir qız ələ gəlmirdi. Sır-sır idi... Təzədən aeroporta qayıtmaq istəyirdim ki, yaxaladılar əjlaflar. !!! Demə mən düz hiss etmişdim. Məni izləyirlərmiş! Hava sır-sır olmasaydı özümü ələ ala bilərdım. Nahaq videokamera ilə çəkmirdim qurbanlarımı. Heç olmasa əlimə heç kim keçməyən məqamlarda baxıb sakitləşərdim. Mən neyləyim ki, burada güllələdiklərim mənə ləzzət vermirdi? Gərək bircə güllə atasan, dustaq da dərhal ölsün... Bir az aşağı, ya da yuxarı atmağa qoymurdular əjlaflar. Nə var, nə var insana zülm etmək olmaz! İnsan deyil ki, qaniçəndir axı bu... Mənə isə onların can verməkləri ləzzət verir. Qana bulaşmış bədən, hədəqələrindən çıxmış gözlər, yerə sərələnmiş halda, qorxu içərisində diqqətlə sənin hər bir hərəkətini izləyir. Həmin məqamda sənsən ağa!!! Sənsən hökmdar!!! İstəyirsən öz qurbanının gözlərini çıxart, istəyirsən burnunu, qulağını kəsib, at!!! (Ehtirasla) Ulu-lu-lu-lu!!! (Tədricən aramla rəqs edir. Sakitləşmiş halda çarpayıya uzanır.) Eh ürəyimə yatan, mənə ləzzət verən bircə məşğuliyyətim var idi, onu da əlimdən aldılar... Di gəl indi ömrünün sonuna qədər yaşa bu

kamerada, boş divarlara baxa-baxa... (Pauza. Gülür. ) Ömrünün sonuna qədər... Nə ömrüm qalıb ki, guya mənim... Uzağı iki həftə... Ondan tez güllələməzlər... Yox, niyə? İstəsələr elə güllələyərlər... Yadımdadı... bir dəfə (Dəhşətlə) Bu kameradan bir oğlanı güllələdim. Onun ölüm hökmünü oxuyandan heç iki saat keçməmişdi, rəis çağırdı ki, hökm təcili yerinə yetirilməlidir. Gəldim... Biçarə donub qalmışdı. Güllələnəcəyini dərk etməmişdi deyəsən. Mən onu çağırdım... kaş gözlərim sataşmayaydı onun gözlərinə... Deyən heç bir təqsiri yox idi biçarənin. (Pauza) Biçarənin... nə biçarə? Biçarənin burda nə ölümü var... Məhkəmə olub, təqsiri isbat olunub, cinayətkardır, vəssalam, güllələnməlidir. Yaşamamalıdır elə adam həyatda. Dayan görüm... Mən o oğlan barədə niyə söhbət saldım?... Hə, yəni demək istəyirdim ki, hökm tez də icra oluna bilir... Demək... hər an məni də aparmağa gələ bilərlər... Məhkəmədə dedilər axı, hökm qətidir... Şikayət qəbul olunmur. Qələt eliyirlər! Mən kimə neynəmişəm?! Burda güllələdiklərim canilər olub, bayırda öldürdüklərim də fahişələr!!! Onlar onsuz da bir gün bir kolun dibində gəbərəcəkdilər. Neçə-neçə sadəlövh oğlanları, kişiləri barmaqlarına dolayıb, min cür axmaq xəstəliklər yayıb, sonra gəbərəcəkdilər. Mənsə bu qədər cinayətin qarşısını almışam onları öldürməklə... Əslinə baxsan mən gündən-günə həyasızlaşanları, namus və qeyrətdən uzaqlaşanları qırmaqla cəmiyyətin sanitarı olmuşam! Bəli, sanitarı!!! İsa Məsih günahkar bəndələrin günahını yumaq üçün çarmıxa çəkildiyi tək, mən də qana bulaşıb, həmin nankorların öz qanlarıyla onların günahlarını yumuşam. Mən sanitaram! Onların məni güllələməyə ixtiyarları yoxdur! (Koridorda addım səsləri.) bu səsə fikir vermək qadağandır! İş ondadır ki, gərək susmayasan, nə barədəsə danışasan. Əks halda dəli ola bilərsən. Onların ixtiyarları yoxdur!... Siz hələ mənim kimilərini şirnikləndirməlisiniz... Öz xilasınız üçün! Öz xilasınız üçün!!! (Addım səsləri get-gedə yaxınlaşır) Getməyəcəm! Bu kameradan çıxmayacağam! Siz həmin nömrələri mənə gələ bilməzsiniz!!! Aldadıb koridora çıxara bilməzsiniz!!! Un çuvalı kimi yerə sərə bilməzsiniz!!! Bu çox bişərəf, eybəcər ölümdür!!!Vijdansızlar!!! Şərəfsizlər!!! Aa!!! İstəmirəm!!! Ölmək istəmirəm mən!!! Yaşamaq istəyirəm!!! (Addım səsləri kəsilir) Yaşamaq istəyirəm!!! Yaşamaq istəyirəm!!! (Yerdə çabalayır. Çarpayının ayağından yapışır. Az qalır ulasın. Nəhayət tutması tutur. Gözləri çevrililr. Sakitləşir. Qalxanda yıxılır. Təzədən qalxır. Təəccüblə sağ qoluna, sağ ayağına baxır. Ağzı əyilib. Təəccüblə) Bu nədir? İflic... iflic... məni iflic vurdu... Hm... iflic vurdu məni... Bircə bu çatışmırdı. Bu vəziyyətdə cəlladın qabağına düşüb necə gedim mən... Gülünc görünmək istəmirəm!!! Uşaqlıqda gülünc olmuşam bəsimdir. Mən həmişə gülünc olmaqdan qorxmuşam. Həmin qorxu məni məcbur edirdi ki, tay tuşlarımdan yan gəzim. Məktəbdə də

hamıdan çox bilirdim, amma cavab verə bilmirdim. Həddi buluğa çatanda da qızlar mənə yaxınlaşdıqca gülünc olmaqdan qorxub, onlardan da qaçırdım. Mən yalnız bıçaqlayaraq yerə sərdiyim ağır yaralıların, peysərindən atıb öldürdüklərimin qarşısında özümü kişi hesab edə bilirəm. Mən gülünc olmaq istəmirəm!!! Birdən işdir, məni güclə də olsa bu kameradan çıxarmaq istəsələr, mən diqqətlə cəlladın gözlərinə baxacam. Onsuz da hamısını əla tanıyıram, bu qədər vaxt bir yerdə işləmişik. Əgər onlardan hansı olursa olsun, gözlərindən zərrəcə də olsa istehza hiss etsəm, dişlərimi onun xirtdəyinə keçirib, məhv edərəm onu! Bu qurumuş qolumla, bu çolaq qıçımla onun sümüklərini ovaram!!! Qanını içərəm məmnuniyyətlə!!! Onsuz da tutulan gündən qana susamışam!!! Mənə istehza ilə baxmaq olmaz!!! Olmaz!!! Mən özümü gülünc yerinə qoymayacam! Belə aciz bir görkəmlə getməyəcəm koridorla! Mən xəstəyəm! Xəstəyə gülməzlər!!! (Get-gedə daha da qızışır donqultusu. Əsmə tutur onu) Xəstə... xəs-tə... Xəstəni güllələməzlər!!! (Bu cümləni tez-tez təkrar edə-edə get-gedə sevinir. Ekstazdan rəqs eləməyə baçlayır. Çox eybəcər və tükürpədici rəqs alınır. ) Xəstəni güllələmirlər. Tam sağalınca! Qanunda yazılıb. (gülür) Rəqsin sonunda əli-ayağı açılır, ağzı düzəlir. (Tam sağlam halda var-gəl eləyir.) Həyatımda belə sevinməmişdim! (Gülür) İflic ildırım sürətiylə sağalsa belə azı iki, üç aya sağalar. Ondan tez sağalan hələ anasından olmayıb. Deməli, ən azı iki-üç ay ömrüm uzandı. (Gülür.) O vaxtacan da çox işlər ola bilər. Onsuz da dünya aləm bir-birinə qarışıb!!! (Gülür. Gözü qoluna sataşır. Diqqətlə gözdən keçirir. Qalxıb rahatca yeridikcə ayağına, qoluna diqqət yetirir. Qorxu işində) Hə? Hə? Hə noldu? Sağaldı axı! Sağaldı?! Hə?! Sağaldı... İflic sağaldı... Yox! elə şey olmur!!! İflic bir andaca sağalmaz... Sağalmaz... Sa-ğal-maz... Aaa!... Mən istəmirəm ölmək istəmirəm... (Hönkürür) İstəmirəm... Yaşamaq istəyirəm... (Yerdə çapalayır) Yaşamaq istəyirəm!!! (Tədricən sakitləşir.) Yox! Bir şey fikirləşmək lazımdır! Belə yaramaz... (Kamera boyu nə isə axtarır.) Dayan görüm... Mən nə axtarıram? . . Hə çarə... Əlac... Belə yaramaz... Gəldilərsə güllə peysərimdədi... Aa... sındıracağam qolumu. (Çalışır, amma ürəyi gəlmir.) Ya da qıçımı... (Heç cür ürək eləmir.) Yox, qolumu. Qol asandır... (Heç cürə cürət edə bilmir.) Ağrıyacaq axı... Xudaya, sən mənə cürət ver... Ey böyük Yaradan, gedirəm axı... Sən mənə qüvvət ver, mən bu ağrıya davam gətirə bilim! Yox... bacarmıram. Getməli oldum deyən... Ağrıya dözümüm yoxdur. Deyəsən bir azdan güllələnəcəyimi tam dərk edə bilmirəm, yoxsa qolum nədir, lap qıçımı da sındıraram. Bacarmadığım iş deyil ki... Başqlarınınkını o qədər qırmışam ki... Yaxşısı budur, mən yoqlar kimi özümə ölümümü anladım, dalısı asandır. Məktəbdə oxuyanda yoqun pozalarını edərdim. Görək də, bədənim

qartımayıbsa, pozanı ala biləcəyəm. ("Lotos" pozasını alır). Mənə ölüm cəzası kəsiblər, bir azdan cəllad gələcək. (Tədricən danışığı donqultuya çevrilir. Get-gedə eşidilməz olur. Gözlərində heyrət qarışıq qorxu) Mən caniyəm... əsl cani... Ölümümü dərk etdiyim andaca anladım bunu... qaniçən cani... (Pauza) Of! Mən nə qədər qanlar tökmüşəm... Neçə-neçə cavan ömürləri puç eləmişəm... İlahi?! Yox, dayan görüm! Axı mən bu qədər alçaq, bu qədər rəzil ola bilmərəm! Dayan görüm, axı mən həmişə haqlı idim. Öldürdüklərim kimlər idi? Canılər, fahişələr! Ona görə də mən... (Pauza) Nə mən? Mən kim oldum axı, onlara cəza kəsib, icra elədim?! (Pauza) U-u... bir gün Roma prokuratoru Pontiy Pilat, İsa Məsihi silist edəndə dedi: Çox göylə gedirsən. Unutma ki, həyatın bir tükdən asılıdır. İsa ona cavab verdi: Bizim hamımızın həyatı bir tükdən asılıdır. Pilat qəzəblə bağırdı: "Lakin mən o tükü kəsə bilərəm." İsa sakitcə: "Onu yalnız asan kəsə bilər!"-dedi. Mən bu sözləri dəfələrlə eşitmişdim, axı... Lakin heç vaxt fərqinə varmamışdım. Tfu, nadan insan! (Pauza) Asan kəsə bilər... (Pauza. Sevincək) Demək asan məsləhət bilibmiş ki, mən kəsə bilmişəm. ( Sevincək var-gəl edir. Tədricən tutulur.) Yaxşı, nə üçün məhs mənim əlimlə?! Nə üçün mənim əlim məhs kəsən oldu, tikən yox?! Niyə?! (Pauza) Yox, mən heç bir vəchlə, özümü öldürsəm belə, haqlı ola bilmərəm. Mən həmin o öldürdüklərimin bircəsinin o taleyi ilə maraqlandımmı? Nə üçün bu yola düşdüklərini soruşdummu? Bəlkə həmin qızlar təcrübəsizliklərindən bu yola vadar olmuşdular. Bəlkə onlar kimə isə ərə gedib, tövbə edəcəkdilər?! Az olur bəyəm elələri?... Mən öz alçaqlıqlarımı ört basdır eləmək üçün uydurduğum səbəblərdir onlar. Axı atam biçarə peyğəmbərlərin sözlərini mənə dəfələrlə demişdi. Özünlə necə rəftar olunmağını istəyirsənsə, başqaları ilə də o cür rəftar et. Məhəmməd peyğəmbərdən soruşurlar kimə hörmət edim? Dedi: "Anana." Sonra? "Anana." Sonra? "Anana." Sonra? "Atana"... Mən neynədim?.. Anamı mən çərlədib öldürdüm, mən! Baxmayaraq ki, Quranda aydınca yazılıb ki, "Cənnət ananın ayaqları altındadır!" Həmin cənnətin qəlbinə tüpürdüyümdən öldü biçarə! Axı, mən bu sözləri hər gün atamdan eşidirdim, amma bircə dəfə də olsa fərqinə varmamışdım. O insan var gücüylə məni Allaha tərəf çağırdı, mənsə üz çevirdim... Məhkəməmə gəlməmişdi... Mərc gələrəm ki, törətdiklərimi eşidib deyən ölüb! Bəlkə də cəllad işlədiyimdən də xəbər tutub. O bilirdi ki, burada işləyirəm, amma nə işində?! Bilmirdi! Heç kim bilmirdi, həmkarlarımdan başqa... Yaxşı tutaq ki, guya onlar günahkar idilər. Bəs anam, atam, özümdən beş yaş kiçik qardaşım, hamısının ki, başına it oyunu açırdım? ! Gündə bir bəhanə ilə Şil-küt eləyirdim yazığı. Acizliyimin heyfini ondan alırdım. Çünki qəlbim çürük idi! "Bxaqavat Qitada" deyilir ki İnsan cildində dünyaya gəlmək

ən böyük xoşbəxtlikdir!" Lakin mən bilmədim bu xoşbəxtliyin qədrini! Qəlbimi iblisə satdım... Özümü inandırmağa çalışdım ki, mühit məni bu kökə salıb. Bəs anam, atam, balaca qardaşım bu mühitdə böyüməyiblər?! Müqəddəs Budda doğru deyir: "Ömrün boyu, rastına yalnız özün kimisi çıxacaq." Kəlilə və Dimnədə deyilir: "Elə həyat var, ölüm ondan üstün tutulur." (Qəzəblə) Mənsə, iki, üç ay da artıq yaşamaq üçün min cür fırıldaq fikirləşirəm, qolumu sındırmaq (lap qəzəblə) Bu da qol! (Dartıb çıxarıır) Bu da qol!!! Amma yox! Müqəddəs Budda demişkən, əməlimdən yer xəbərdar olmaya bilər, göy xəbərdar olmaya bilər. Mən də xəbərdar olmaya bilərəm, lakin özün ki, xəbərdarsan əməlindən! (Qolunu ağriyla yerinə salır) Mənə güllə də azdır... Gəldiyim cilddə köçməyə də idrakım çatmadı... Heyif ki, imkanım olmayacaq, yoxsa peysərimdən güllə çaxılan məqamda da olsa insanlara deyərdim: "Allaha qayıdın, peyğəmbərlərin dediklərini qavrayın, anlayın və əməl edin!!!" Mənim kimi bir alçaq belə ölüm qabağı özünə hesabat verdisə, demək hamı verəcək! Vay o şəxsin halına ki, özü kəssin ölüm hökmünü... Yox, parıltılı cümləyə oxşamaz... Bir də kimdir mənə o imkanı verən?! Öz başıma sayıqlayıram. Ora bax, deyən gözümə pişik göründü... (Gözləri ilə axtarır.) Deyirəm axı, burda pişik nə gəzir?.. A... pişik... Pişt, pişt burdan, sən bura hardan düşmüsən? A! Gör bunlar nə qədər imiş?! Aman Allah, bu qədər də pişik olar? ! Ora bax tavandan qarışqa dəstəsi tək tökülürlər... Pişt! Pişt, burdan!!!(Qovmaq istəyir, tədricən mırıldayır. Nəhayət dörd ayaq üstə durub, it kimi hürür. (Dəli olur) Hiss olunur ki, pişiklər ona güc gəlirlər. Küncə sıxılıb əsil it kimi hürür, get-gedə ulartıya çevrilir. Tükürpədici ulartı. . İşıq sönür) Son.



**Fərman Abdullayev**

## TÖVBƏ *("Əyri ağac", yaxud "Qoca")*

Səhnənin sol tərəfində tamam əyri, quru, qoca bir ağac. Tən ortada kiçik olmayan koma. Komanın qapısı öz proporsiyasına görə bir az böyükdür. Petlyaları açıq aşkar görünür. Komanın qapısında dəmir barmaqlı kiçik pəncərə. Qara rəngli pərdə komanın eni qədər açılıb. Avanssenadan istifadə edilir. Tamaşaçılar zala girəndə, qoca komada yığılmış taxtaların üstündə yatmış olur. Komanın ortasında yarımçıq qalmış tabut var. Tabutun ətrafında çəkic və mismarlar var. Qocanın yatışından onun öldüyü zənn edilir. Koma demək olar ki, bom-boşdur. Masa, stul yaxud başqa mebel, heç nə yoxdur. İkonanın tam görünməsi də vacib deyil. Tamaşa tamamilə musiqisiz başlayır. Qoca tərpənir. (Pauza) Tələsmədən qalxan qoca ikonaya yaxınlaşıb xaç çəkir. Taxtaların dalından çıxardığı boxçanın bir qatını açır. Sonra ikincini, üçüncünü, dördüncünü nəhayət pendir və qurumuş çörəkdən bir parça qopararaq, əvvəlki kimi boğçanı bağlayıb, yerinə qoyur. Tələsmədən, iştahasız yeməyə başlayır. Pəncərəyə yaxınlaşır. Narazılıqla üz-gözünü turşudur.

*Qoca:* Zəhrimara qalasan ha... Sır-sırlar da düşdü. Bir azdan qış da gələndən sonra taxtanın da qiyməti artacaq. Eh, heç kim görünmür. Bu payız da girəndən sonra səhər açılmaq bilmir ki... Bütün günü gözləyirəm, amma bir nəfər də sifarişçi gəlmir. Çər dəymişlər... (Ani pauza) Mənim ağlım olmadı. Mənə deyən gərək: "Ay əfəl, gərək elə doğulduğun xırdaca kənddə qalaydın ki, ayda-ildə bir nəfər ya ölə, ya ölməyə?! Odeeey ha, zadın oğlu... nə idi o ölmüşün adı... Belə bir təhər adı var ha... Xostəringiyə zada oxşayır... daşlara yazılmışın adı... Mənə deyən gərək nəyinə lazımdır qutu qayıracağın adı? Sən sözünü danış ki, həmin onun şəhərdən topal qayıdan oğlu (Gülür. Pendirlə çörəkdən bir dişlək alıb) heyvan oğlu heyvan, yeriyəndə o zad arvadın axsaq ördəyinə oxşayır. (Gülür, sonra ciddi.) Deyir şəhərdə bir çaxnaşma, bir basabas var ki, gəl görəsən. Ölənlərin də sayı yox, hesabı yox. (fikirli) Deyirəm tabut qayıranları bax belə yaşayır ha. (Əli ilə xirtdəyini göstərir.) Yoxsa mənim kimi? Allah kəssin belə yaşayışı. Bir dəlişeytan deyir, götür şələ şüləni cum şəhərə. Bəs onda bu komanı neyniyim? Zarafat deyil ha, filan qədər pul eləyir. Satmaq

fikrinə düşsəm heç kim bu komaya yaxın gəlməz. Nə var, nə var qəbiristanlığın içindədir. Çaqqal uşağı möhkəm-möhkəm mıxlanmış qutunun içindəki cansız, nəfəssiz sür-sümükdən qorxurlar... Düzdür, hərçənd qutuya işlədəcəyim mıxlardan soxuşdururam. Nə olsun? Əvvəla mən özgədən yox, özüm-özümdən soxuşdururam. Çünki ölü üçün nə isti, nə soyuğu ki, onun yatdığı qutuda beş-on mıx əksik gəldi. Day ölü mənim gorbagor olmuş analığım deyil ki, gecə durub, ağacdakı meyvələri saysın. Hələ mən uşaq ikən atam deyirdi ki, soxuşdurmasan, başını girləyə bilməzsən. Götürək elə müqəddəs atanı. Özü düzgünlükdən dəm vurur, özü də o gün məni çağırıb deyir: "Oğlum kömək etsənə zənbilim ağırdır." (İstehza ilə) Ağırdır. Bu da mənim əməyimi "kömək" adı altında soxuşdurmaq istəyir. Elə bilir ki, hərifəm. Guya bilmirəm ki, kömək birinin əməyinin müftə müsəllam başqasına verilməsidir. Özü də bu tək mənim fikrim deyil ha, rəhmətlik atam da belə deyərdi. Çünki dünya elə əvvəlcədən belə qurulub.

Odey ha, Müqəddəs atanın hər gün sitat gətirdiyi İncilin özündə yazılıb ki, Cənnət bağında Adəm tamahını saxlaya bilməyib, almanı oğurlayıb. (Gülüb) Tülkü oğlu tülkü öz günahını yıxır şeytanın boynuna ki, guya onu şeytan azdırıb. (Ciddi) Yalan deyir: oğrudur.

“Sevirəm”i çox dedi, amma qarnına uşağı salan kimi çəkilib durdu kənarda. And içib aman elədi ki, mənim xəbərim yoxdur. /İrişir/ Ləçər canını güclə qurtardı, müqəddəs atamızın qəzəbindən. /Gülüb/ İndi nə biləsən harada, hansı kolun dibindədir?! /Təəccüblə/ Adamdakı həyasızlığa bax ha. Müqəddəs atamız qızı elə günahlandırdı ki, sanki o yoluq dayçaya oxşayan, qarğaburun qıza bic doğduraraq aləmə car çəkən ki, bəs “Bu da Məryəm anamız kimi müqəddəsdir”-deyən və qızla indi də altdan-altdan görüşən bu deyil. Gözlərimlə görmüşəm. O qızı elə müqəddəs adı ilə sırıdılar o çəpgöz oğrubaşıya. Çəpə bu da azdır. Kafir oğlu qonum-qonşuda oğurlamadığı toyuq-cücə qoymamışdı, amma deyəsən işi duyub. Müqəddəs atanın evinin həndəvərində çox fırlanır. Əşi kim bilir. Bəlkə toyuq-cücədən ötrü vurnuxur?! Onu da qınamaq olmaz o da yaşamalıdır ya yox? !Hərə özü üçün bir ruzi deşiyi tapıb əmir ha, sovurur o ki var. Axmaq uşağı axmaq siçan kimi gəmirib, daşıyırlar komalarına. Adama deyən gərək “Ay qurumsaq nəyinə lazımdır bu qədər var-dövlət? Öləndə nə aparacaqsan özünlə? Aslan aslandır ki, o da mədəsindən artıq istəmir. Bəs sən niyə belə acgözsən? Onsuz da ölüb gedəcəksən də, çürüyüb gorbagor olacaqsan, qoy bir az da qalsın başqalarına”. Yox. Qarınları doyur, gözləri yox. Ölün! Hanı onlarda o mərifət?! /Pəncərəyə yaxınlaşıb/ Heç kim görünmür. Mənlik nə təqsir ki, biri ölməyəndə başqası dirçəlmir?! Başlayan bir şeyin bir vaxt qurtardığı tək, verilən bir şey də haradansa alınmalıdır. Dünya özü belə qurulub. Bax kimsə ölməlidir ki, mən

ona tabut qayırım. Demək mənim yaşamağımçün kimsə çezməlidir. Necə ki, tabutçün taxta düzəldilməsinə görə meşədəki ağaclar öz ömürlərini qurtarmalıdırlar ki, sonra çürüyərək gübrə əvəzi torpağa qarışıb onu bərəkətli etsin ki, əkinçi də həmin bərəkətli torpaqda taxıl yetişdirib aparsın dəyirmana. Dəyirmandaşı da buğdanı üyütdükcə özü də yeyilib yox olsun, çünki dəyirmandaşı düzəldən də yaşamalıdır axı. Gördün? Haradansa alındı, harayasa verilməkdən ötrü. Elə götürək Xudavəndi-aləmi. Yeri-göyü heçdən yaradan Allah-taalanı. Adəm atamız Həvva anamızın canından-qanından olaraq yaratdığı ilk qardaşları. Habillə Qabili. Onların haqqında atam mənə danışırdı. Deyirəm atam donuz oğlu sağlığında sərt olsa da kəlləli adam idi. Hə. Habil qoyun otaran idi. Qabilsə yer şumlayan. İkisi də torpağın hesabına əldə etdikləri məhsulu, qoyun da ot yeməsə kökəlməzdi ki hə?! İkisi də bu məhsulları öz adlarına yazaraq getdilər Allahın yanına. Bəs Allah nə etdi?! Habilin apardığı qoyun xoşuna gəldi deyə, Qabilin də məhəbbət payını alıb verdi ona. Əslinə baxsan onda da təqsir yoxdur, çünki birini çox istəməkdən ötrü gərək başqasını az istəyəsən. Buna görə də Qabil paxıllığından öz qardaşı Habili öldürdü, çünki ondan güclü və bacarıqlı idi. Həmişədən belədir ki, güclü zəifi məhv edib. Haqq güclünün olub. Eh dünyanın işləri elə qarmaqarışıqdır ki... /Pəncərədən baxır/ Tfu. Artıq gün günorta olur, lakin heç kim gəlmir sifariş üçün. Bu lənətə gəlmiş dünyada müharibədən zaddan da yoxdur ki, bazarım bir az açıla. /Əsnəyir/ Dünyada bekarçılıqdan pis şey yoxdur. Deyirəm bu tabutun əyər-əskiyini düzəldim vaxtım keçsin. Allahın köməkliyi ilə mən tabutu düzəldib qurtaranacan ona bir müştəri çıxmamış olmaz. /Taxtaları götürür/ Qəribədir. Mən Allaha da bir o qədər inanmıram, amma nədənsə həmişə onun adını çəkir, dəfələrlə özümə söz verib deyirəm ki, bu ikonaya baxıb xaç çevirməyim, amma olmur. /Taxtaları qoyur/ Ta uşaqlıqdan bu sözləri beynimizə o qədər səylə yeridirlər ki, bu şəkilləri gözümüzün önündə o qədər saxlayırlar ki, bu şəkillərdən başqa heç nəyi görmür, həmin sözlərdən qeyrisini eşitmirik. Bir sözlə kor edib buraxırlar həyat adlandırdıqları bu iztirab dünyasına ki, sonra ha tərəfə istəsələr, o tərəfə də sürsünlər. /Tabutu düzəltməyə başlayır. Mismarları götürüb/ Bax bu məftil parçası nədir ki, onun da qiyməti gündən-günə qalxır. Hə? Çünki camaat günü gündən tülküləşir. Az işləyib çox qazanmaq istəyir. Hələ bir azdan lap pis olacaq. Hər şeyin qiyməti ərşə qalxacaq. Di onda yaşasınlar görüm necə yaşayırlar. Varlılar bir az da varlanacaq, kasıblarsa acından barmaqlarını soracaqlar. Düzü onlarda da təqsir yoxdur. Kasıb qonşusuna baxar, özünü oda yaxar deyiblər. Bax bir də görürsən heyvan sürüsündə hansısa heyvan, nədənsə hürküb qaçdı. Qalanları da qanar-qanmaz götürülürlər qabaqda qaçanın dalısıyca. Qabaqdakı isə ondan sonrakıların

götürüldüyünü görərək başlayır daha da möhkəm qaçmağa... Axırda da partlayıb mundarlanırlar. İnsanlar da heyvandırlar. Özü də lap acgözündən. Heç vaxt heç nədən doymayanından. Yadımdadır. Gənc vaxtından qonşuluqda bir kişi yaşayırdı. Yaşayırdı deyəndə ki, əlsiz-ayaqsız kötük kimi bir şey idi, amma can verəndə dişi-damağı ilə didirdi torpağı. "Yaşamaq istəyirəm"-deyə bağırırdı axmaq oğlu. /Tabuta mıx vurur/ Gic balasına dedim ki, ürəyimdə ay axmaq heç ölməsə öl ki, canın qurtarsın da bu məşəqqətdən heyvan kimi başını soxursan nimçəyə yemək yeyəndə. Kimin nəyinə gərəksən axı?! Yox. Nə vecinə kimin nəyinə gərəkdir?! Acgözdür də, amma ürəyimdə yamanca söydüm onu. Hündürdən deyə bilməzdim axı, çünki dünya belə qurulub. Onda elə həqiqətlər var ki, demək olmaz. Demək olmaz deyəndə ki, baxır kimə. Əgər deyəcəyin adam səndən asılıdırsa, heç çəkinib eləmə, heç fikirləşmə də, dişinin dibindən çıxanı döşə qabırğasına. "Düzdür-düzdür, düz buyurursuz deyə baxıb şit-şit hırıldayacaq... Amma o da ürəyində söyəcək səni. Yox əgər sən ondan asılısansa, gərəkdir ki, hər axmaq sözünə də "müdrik kəlamdır" söyləyəsən. /Mıxı vurub/ Əks təqdirdə bu başmağı /tabutu göstərir/ bədəninə geyməli və qara torpaqlara gömülməlisən. /Çəkici qoyub/ Torpaq da torpaqdır ha. Yaşayan bir şey ömrünü tapşırmalıdır. Ağac öz kökü üstündə böyüməyə başlayır, kollar torpaqdan şirə alır. Biz camaatda nə ki, var hamısı torpaqdan alınır. Bəs belə olan surətdə niyə tükənmir, məhv olmur torpaq? /Gülüb/ Çünki işin çəmini yalnız o tapıb. Torpağın bizə verdiyi hər bir şey müvəqqətidir. Daha doğrusu ondan ötürüdür ki, biz həmin şeyləri həzm rabedən keçirək, peyin halına salıb, təzədən torpağa boşaldaraq gübrələyək onu ki, o da ətə-qana gələrək qudursun, zəl-zələ, tufan yaratsın. Biz-iki və dörd ayaqlı heyvanatı hürküdüb nəşələnsin özüyçün. Belədir də Xudavəndi-aləm də, insana burun pərdələrindən ruhu elə yeridib ki, sonra çıxarmaq çətin olmasın, çünki o da torpağın tərəfindədir, o da onunla əlbirdir. /Tabuta mıx vurur/ Hər şey boş və mənasız, hər şey puç olduğu halda bu kəntdəki başıdaşlar da mənə kinayə ilə baxır. O gün də o zadın mışovula oxşayan gədəsi mənə deyir ki, "Sən Allah bizim komanın yanından keçmə. Sənin o zəhrimar tökülən nəs sifətini görəndə elə bilirəm ki, kimsə öləcək, yenə yeyəcəksən kiminsə başını. Deyirəm sən də özünə sənət tapıbsan da, o biri də o yarım tabutluq bislə əlavə etdi ki, "O qədər tabut düzəltmisən ki, artıq gəzən tabuta oxşayırsan. Qoca kişisən, get özünə başqa sənət tap." /Gülür/ Day zay uşağı qanmır ki, bu işi mən görməsəm də, bir başqası görəcək. Gic uşağı elə sanır ki, mən düzgün yaşamıram. Mən də ürəyimdə dedim ki, onlara ay gorbagor olmuşlar guya özünüz düzgün yaşayırsız?! Sərxoş adamlar içkini içib özləri üçün yalançı dünya quraraq sanırlar ki, guya dünyanın qəm kədərindən uzaqdırlar. Bəli, bəli! Bax birdə görürsən dəyirmanda hamı növbəyə

durub buğdanın üyüdülməsini gözləyir. Vaxtı öldürməkçün hərə bir şeylə məşğuldur. Kimisi corab toxuyur, kimisi qeybətlə məşğuldur, bir başqası kiminsə başını yeməkçün hiylə qurur. Buğda üyüdüldümü? Çıxıb gedirlər. Həyat da belədir də, hərə başını bir şeylə aldadır. Əslində isə onlar hamısı öz növbələrini gözləyir. Siz isə, siz hamınız öz ölümünüzü gözləyirsiniz. Siz peyinin altında qalmış xırdaca cür-cücüdən, selin axıb-gətirdiyi əlsiz-ayaqsız çör-çöpdən başqa bir şey deyilsiniz. /Mıxı tabuta vurub/ Sonu puç olan bir şey mənalı ola bilməz. Müvəqqəti bir şeysə əbədi. Hər gün dolub-boşalan bu dünya da əbədi ola bilməz, çünki o da nə vaxtsa başlayıb, ona görə də qurtaracaq. /Düşüncəli/ Kim bilir, bəlkə də qurtarmadı?! Çünki Adəm və Həvva cütləşərək bir lomba çirkabdan yaratdıqları adamlardan Nuh Nəbili zadlı çox adam qırılıb, gələnlərin hamısı qarışıb torpağa, ancaq bu yekəqarın, acgöz doymaq bilmir ki, bilmir. Məni düşündürən yalnız bircə şeydir. Bax, bu dünyada günah işləyənlərin yeri cəhənnəmdir. Orada onları odlar-alovlar gözləyir. Bu dünyada günah işləyənlər o qədərdir çətin ki, cəhənnəmə sığalar. Cənnət üçünsə əl boyda yer kifayətdir. Bəs cəhənnəmdə günah işləyənlərin yeri haradır?! Yəni xeyir və şər ağacının barını yemiş Həvvanın qarnından çıxanlar, bu dünyada etdiklərini o biri dünyada tərgitdi? İnsanlar cəhənnəmdən qorxduqlarından bir balaca özünü yığışdırırlar, çünki xofsuz insan qızmış əjdahaya bərabərdir. /Gülüb/ Vay o haldan ki, onların canından bu qorxu çıxa. /Tabuta mıx vurub/ Maraqlıdır görən cəhənnəmdəkilər özlərini necə aparırlar? Çünki islanmışın yağışdan nə qorxusu-deyiblər. /Gülüb/ Hər halda inkir-minkirlərin, mələyin zadın gözündən bir az yayınan kimi, bir-birilərinə badalaq gəlməmiş deyillər. Eh, hamımızın axırı budur... /Düşüncəli/ Görən bu insan niyə belə axmaqdır? Hə? Bu müvəqqəti dünyaya ayaq basdığı gündən bilirlər ki, gedəcəklər, amma yenə yaşayırlar. Köstəbək kimi oyub-eşirlər, cütə gəlirlər. Özləri bu həyatdan kam alıbmış kimi, yataqda bir-birini murdarlayaraq dünyaya yeni-yeni biçarələr gətirir və bununla fəxr edirlər. O gün, o zad təzə ayaq açan körpəsinə baxıb keçinir sevindiyindən. Balam böyüyür deyir. /Gülüb/ Kəf gəlir də özünə. /Hirslə/ Gic oğlu gic nə üçün sevinirsən? Böyüyürsə demək ölümü yaxınlaşır, çünki hər yaşadığımız gün. Ölümümüzə tərəf atılmış iri bir addımdır. O de, o, yekeqarın nə idi onun adı?! Götürüb arvadını boşadı ki, nə var nə var uşağı olmur. /Gülüb/ Nə fərqi varmış ki, oldu, ya olmadı. Bax sən uşaq olub atana-anana neyləyirsən ki?! /Tabuta mıx vurub/ Hələ istəyirlər ki, məni də özlərinə oxşatsınlar... "Evlən" deyirlər mənə... Nə üçün?!... Hansı səbəbə?!... Mən bir zamanlar tanımadığım özgəni gətirib saxlamalıyam öz komamda ki, o da payımı əlimdən alıb yesin. /Gülür/ Beş-altı uşaq da doğsun ki, onlar da başıma bəla olsunlar. Eh. Hər şey yalandır, hər şey puçdur, puçluqsa həqiqət. (Pəncərəyə yaxınlaşır.) Sır-sırlar da başladı. Qabağı

qışa gedir. Deyirəm belə havada bazarın yaxşı gedə, oturasan komanda, günbatanacan dağ anbarı tabut qayırıb yığasan. Sifarişçilər də gələndə başlayasan özünü naza qoymağa, giley-güzar edəsən vaxtının çatışmamazlığından. Bəh-bəh. İnsan belədir də, ona asanlıqla müəssər olan bir şeyi qiymətləndirməyi bacarmır. Gərəkdir boş bir şeydən ötrü çalışsın vuruşsun, ilan kimi dəridən qabıqdan çıxsın ki, sonra bu vəziyətlərinin müqabilində qorxaraq ondan dörd əlli yapışsın, çünki yenə qiymətləndirməyi bacarmadı. Qorxdu! O de rəhmətlik atam, həmişə belə edərdi. Hamı onun hörmətini saxlıyardı. Saxlıyardı diyəndə ki, nə hörmət?! Yaltaqlanırdılar, amma mən belə etmirəm deyə heç kim məni saya salmır. Əslinə baxsan, mənim əlimə belə bir imkan düşməyib. Yoxsa insan ola, imkan ola ondan istifadə etməyə?! Atam həmişə mənə deyərdi: "Oğul sən haqdan, düzgünlükdən danışanlara qulaq asma, çünki onların hamısı əllərinə fürsət düşməyən oğrubaşılardır." Onların bütün bu kəlmələri ondan ötrüdür ki, birtəhər başlarını girləsinlər. O de müqəddəs atadan çox vicdan, namus haqqında danışan yoxdur, amma nəzir-niyaz qəbul edəndə heç soruşmur nəzir gətirənin vəziyyətini?! Elə onu bilir ki, desin: "Allah əvəzini versin." Olmaz ki, həmin şeyləri qaytarsın sahiblərinə?! Allahın verəcəyi əvəzi isə özü üçün götürsün?! Axmaq deyil ki?! Qırılıb üzüləsiniz... Gör heç bir donuz oğlu bu tərəflərə gəlir?... Ehh... Daha çətin ki, gələn olsun. Yatım əşi. (Dilxor) Qabaqlar qancıq uşağı içib dalaşar, bir-birlərini öldürüb eliyərdilər, indi onu da tərgidiblər. Biri digərindən o qədər qorxur ki, içəndə də ehtiyatlı tərpənirlər. Lap bərk dilxor olanda da tez evlərinə cumur, arvad-uşaqlarına beş-altı qapaz salaraq sakitləşirlər. Ölün... Ehh, belə ki, görürəm yəqin hamısı qurdla-qiyamətə qalacaqlar. Əşi. Yatım e...

Tamaşanın əvvəlindəki kimi yatır. Musiqisiz.

***Antrakt***

Tamaşanın əvvəlindəki kimi yuxudan oyanır. Musiqisiz. Yeməyi çıxarır. Yeyir. Gözü dolçanın içində gəzən qarışqaya sataşır.

*Qoca:* (Qımışıb) Ora bax, ora bax, ora bax... Gör necə çapalıyır. Eh, qarışqa ki, qarışqa. (Qımışır) İndi bu bap-balaca dolça onun gözünə dərya boyda görünür. Əgər burdan çıxsa, gedib dost aşnalarına goplayacaq ki, dəryanı üzüb keçmişəm. Ay bat! (Barmağı ilə qarışqanı dolçanın dibinə basıb qımışır) Ale, gördün? Bircə barmağım bütün ümidlərini puç etdi. Nə üçün? Çünki səndən güclüyəm. Ona görə də, elə-belə, məzə üçün öldürdüm səni. Əgər sənin ağlın olsaydı min bir əzab-əziyətlə ordan-burdan şey-şüy tapıb komana daşımayacaqdın. Hər an hansısa nəhəngin altında qalaraq əzilməkdən

qorxmayacaqsan? Ehh... (Çörəyi dişləyib) Əslinə baxsan biz də elə sənin kimiyik. Hansısa güclünün qurbanı olmamaqdan ötrü, buqələmunlartək min bir dona girir, boş başımızı çiyinlərimizdə daha çox gəzdirməkdən ötrü onu hansı çirkaba gəldi soxduğumuzdan, güzgüyə baxmağa, üfunət qoxuyan başımızı görməyə köpək dəyənəkdən qorxduğu kimi qorxuruq. Yəqin bu səbəbdəndir ki, dörd gözlə pisləri axtarırıq ki, özümüzə şükür deyib təsəlli tapaq. Kəndin bütün camaatının məndən zəhləsi gedir. Nə üçün? Onə görə ki, mən onların etdiyi kimi yox, özüm istədiyim kimi edirəm. Ehh... Atam danışardı ki, bir gün İsa peyğəmbər Allah taalanın yanına gedib deyir: "Xudaya bu dozanqurdunu nə deyib yaratmısan de görək?" Xuda isə cavabında gülür. İsa peyğəmbər ona baxıb xəbər alır: "Xudaya axı mən gülməli bir şey demədim." Xuda isə ona belə cavab verir: "İndicə o qapıdan çıxan dozanqurdu isə, səni nə üçün yaratmağımın səbəbini soruşurdu." (Gülüb çörəyi dişləyir) Ehh... Hamısı boş şeydir. Ya səndən zəhlələri gedir, ya da sənin zəhlən gedir, nə fərqi varmış ki?! Ehh... (Büküb yerinə qoyur, pəncərəyə yaxınlaşıb baxır) Ehh... Sır-sırlar da başladı, qabağı qışa gedir. Bir azdan taxtalar da bahalanacaq. (Hirsli) Onlara deyən gərək, ay kafir uşağı ağac əkmisən ki, onun qiymətini də qaldırırsan? Meşənin ağaclarıdır da. Sağını-solunu bir balaca yonub, taxta düzəldirsən də. (Lap hirsli) Azğın uşağı azğın. Harda mal gördülər (düşüncəli) o saat sahib çıxırlar. Ehh... Heç kim görünmür, amma öz aramızdır belə havada ölənin vay halına. Hər yer palçıqdır. O ki, var söyüləcək ha. Onu basdırmağa gələnlər palçığa batdıqca hamısı deyəcək: "Bu donuz oğlu da vaxt tapdı ölməyə." (Pauza) Axmaqlar da iş tapıb da. Biri öldümü o saat hamısı yığışıb gəlirlər basdırmağa. Ağlayan kim, saçlarını didən kim. Ay axmaq uşağı, guya əvvəlcədən bilmirdiz ki, bu gorbagor olmuş öləcək, hə? Bu nə camaatdır yığıb gəlmisiz? Müharibəyə gedirsiz, ya ölü basdırmağa? Dördcə nəfər kifayətdir də (gülüb) özüm ölüm zaydır, hamısı başdan xarabdır. (Addım səsləri. Cəld pəncərədən baxır. Addım səsləri kəsilir. Diqqətlə baxıb) Ehh... Qulağıma səs düşüb. Deyirəm bir nəfər kasıb ölsəydi əla olardı, çünki kasıbın qohum-qardaşı xəsis olmur. Çalışırlar hamını razı salsınlar ki, o dünyada behiştlik olsunlar. Varlı isə əksinə bilsələr ki, atalarının başları yaxşı pula gedir, o saat uf demədən kəsib satarlar. Varlı adamla sümük gəmirən köpək eynidir. Sümük gəmirən itə yaxınlaşdıqca sümüyü onun ağzından alacağını güman edərək, başlayır mırıldamağa. Varlılar da elədir. Ya pulu getsin, ya da kı canı. Eyni şeydir onlarçün. Yəqin elə bu səbəbdəndir ki, öləndə də üz-gözlərini turşudub qulyəbaniyə oxşayırlar da. Gəbərəndə də bu dünyada qalan pullarının dərdini çəkirlər. (Gülür) Onlara hələ bu da azdır. Əlinə keçdi mi ud. Kimə saxlayırsan, ay sarsaq? Mən olmayandan sonra cəhənnəm olsun dünya da, hamısı da. Azğın uşağı, bir balaca xeyirlərindən

ötrü doğma qardaşlarına da fırıldaq işlədirlər. Köpək uşağında insaf deyən şey yoxdur də. Hər şey puçdur. Puç. (Addım səsləri. Qoca pəncərəyə yaxınlaşıb baxır.) Bu nə səsdir e çəkilmir qulağımdan. Artıq qulaqlarım da məni aldadır. Yəqin ölümüm yaxınlaşır. (Birdən) Aa, yəqin bu addım səsləri əzrayılındır. Hə, düzdür. Əzrayılın. Mən dəfələrlə eşitmişəm ki, insan ölənə yaxın bu addım səslərini eşidir. Bir azdan əzrayıl öz çəngəli ilə gələcək və hər şey bitəcək. Eh... Onsuz da bir gün gəlməli idi. Tez, ya gec nə fərqi varmış ki? Artıq heç kimə tabut qayırmayacağam. Sifariş almayacağam... Eh, doğurdan a, başqası üçün düzəltdiyim bu tabuta özüm girməli olacağam. Eh, dünyanın da işlərindən baş açmaq olur ki? Heç gəlməsəydim bundan min faiz yaxşı idi. (Addım səsləri) Gözlərim də məni aldadır. (Xaç çəkir) Bu nə deməkdir? Sanki otaq birdən-birə böyüməyə başladı. Mərc gələrəm ki, otağım başqa günlərlə müqayisədə çox işıqlıdır. Bir azdan bu komanı hörümçək toru basacaq, heç kim buraya yaxın düşməyəcək. Kim bilir, bəlkə də kim isə söküb yandıracaq komanın taxtalarını? (Addım səsləri) Bu köpəkoğlu da gəlməyə vaxt tapdı da. Yəni doğrudan hər şey bitdi?... (Bütün tamaşa boyu yalnız və yalnız indi zərif, lirik, orqan musiqisi. Musiqi yalnız indi) Bu haranın arsızıdır elə musiqi çalır? (Addım səsləri) Eh, bu da qoymaz ki, son nəfəsimdə musiqiyə qulaq asım. Qəribədir, qabaqlar musiqidən zəhləm gedərdi... Lənət şeytana. Bu nə qoxudur belə? Sanki yüz min gül çələnginin ətri birdən dəyir burnuma. Oxay!... (Addım səsləri) Eh, bir azdan bütün bunlar heçə dönəcək və mən bir də heç zaman bu ətri hiss etməyəcəyəm, bu musiqini eşitməyəcəyəm. (Addım səsləri) Səni də görüm lənətə gələsən. Gəlməyə vaxt tapdın? (Hirsli) Sanki bütün dünya sevinir köçməyimə. Bütün bu səsləri bir azdan inkir-minkirin sorğu-sualı əvəz edəcək. Məndən soruşacaqlar "O dünyada nə etmisən?"- deyəcəyəm "Heç nə, başımı girləmişəm"... Heç nə? Eh, nə təfavütü varmış ki? (Addım səsləri) Yəni doğurdan hər şey bitdi. (Musiqi səsi) Ömrüm boyu hiss etidiyim sükunəti indi musiqi səsi, gül ətri əvəz edir! Nə olaydı, bütün bunları əvvəllər də hiss edəydim. (Addım səsləri) Eh, deyirəm o gəlməmiş, özüm üzü sulu girim tabuta, çünki bunu özüm etməsəm heç kim etməyəcək. (Girib uzanır.) Eeeh, zəhrimara qalmışın qapağı da varmış ki... Tfu! Görürsən bir kəs yoxdur ki... Yox gərəkdir ki, üç gün tabutun ağzı açıq qalsın. Doğurdan da, bir kəs tapılmayacaq ki, içinə girdiyim bu tabutu beş-altı addım apararaq basdırılsın? Bəlkə nə vaxtsa, kimsə ölsə, tabutçün sifarişə gəlsələr meyidimi görüb basdıracaqlar. Bəlkə bu lap çox çəkdi və meyidim üfunət qoxumağa başladı? Eh, onda heç meyidimə yaxın da gəlməzlər ki... Əşi, istəyirlər gəlsinlər, istəmirlər yox, mən ki, heç bir şey hiss etməyəcəm.

(Uzanır) Bura çox darısqaldır. (Hirsli) Bax, indi burda bircə nəfər adam olsaydı rahat ölərdim də...Ürəyim bərk sıxılır. Nə olaydı bircə nəfər adam

olaydı yanımda və mən ona deyərdim: Artıq ölürəm. O isə başını tumarlayaraq söyləyəydi: "Ölmə nə olar, ölmə!" Mən də gülümsəyərək onu tumarlayıb deyərdim... (güclü musiqi səsi) Nə gözəl havadır. Adam qulaq asdıqca ağlamaq istəyir. (Qalxıb, tabutdan çıxır. Avansenaya tərəf gəlir.) İlahi, nə gözəl musiqidir?! Heyif, bu musiqini əvvəllər eşitməmişəm. (Avansenaya çıxır. Pərdə açılır. Səhnə nağılvari ağac, gül-çiçək dekorları ilə doludur. Həddən artıq al-əlvan, lap uşaq nağıl tamaşalarında olduğu kimi. Quşların cəh-cəh səsləri)

*Qoca:* (karıxmış) Bu nədir? Mən hara gəlib çıxdım? Bəlkə haqqında eşitdiyim cənnət buradır? Amma mən elə sanırdım ki, cəhənnəmə vasil olacağam. Atam Müqəddəs kitabdan oxuyurdu axı "Allah mərhəmətlidir. O insanlara rəhm edəndir." Yaxşı bəs onda mən öldüyümü neyçün hiss etmədim, əzrayılın gəlişını niyə görmədim? (Cəh-cəhlərə qulaq asır, uzaqdan gülüş səsləri gəlir.) Aa, yəqin ki, bunlar mələklərdir. (Diqqətlə baxıb) Bu ki, qonşumuzun oğlu ilə kəndimizin ayağındakı qızdır. (Gülümsünüb) Ay tutdu, tutdu. Qızdakı cəldliyə bax ha, gör necə sivişib, çıxdı oğlanın əlindən? Heyif ki, çox qocayam, yoxsa gedərdim onların yanına xahış edərdim, yalvarardım ki, məni də qoşsunlar özlərinə. Bəlkə, onları səsləyim? (Çağırır) Ehe-he-hey! Ay eşitdilər ha. Bir gör necə də xoşbəxtdirlər? Dayan görüm, bəs bunlar nə vaxt ölüblər? Lənət şeytana! Mən ölmüşəm, ya yox? Əgər sağamsa, bəs buradakı qəbiristanlıq hanı? Axı burada qəbiristanlıq olmalıydı. İçərisində doğulub, boya-başa çatdığım qəbiristanlıq. Gözümü açandan, daha doğrusu özümü dərk etdiyim gündən, içərisində yaşadığım, it ulaşması, çaqqal çığırtısı ilə dolu qəbiristanlıq nə tez yox oldu? Nə tez qeybə çəkildi? Bax, o qaçıb-tutan cavanlar nə tez öldülər? Yox, əgər ölmüşəmsə, bəs onda içərisində yaşadığım bu koma buraya necə düşüb? Həmin koma ki, onun içərisində analığımın zəhrimar yağan, qaradinməz sifətindən, bir də atamın lənətlər yağdıraraq, hər gün səhərdən-axşamacan dünyanın puçluğundan, həyatın mənasızlığından dəm vuran o yeknəsək və cansıxıcı səsindən başqa səs eşitməzdim. Həmin koma ki, onun içərisinə tabut sifariş etməyə gələn qara geyimli, dünyanın bütün qəm və kədərini özündə cəmləşdirmiş sifətlərdən qeyrisi girməyib. Hələ bu ağac?.. Əyri və eybəcər ağac?.. Yaxşı yadımdadır. Bu ağacı kimsə, bəlkə də atam təzəcə əkmişdi. Nap-nazik idi. Mən isə bekarçılıqdan bu ağacı çıxararaq, təzədən əyri basdırdım. O elə də böyüməyə başladı. (Diqqətlə baxıb) Gör bir necə eybəcər görünür? Yox, gördüklərimin hamısı həqiqətdir, mən ölməmişəm. (Özünü çimdikləyir.) Yox, ölməmişəm...ölməmişəm!!! (Ağlayır) Yox, yox! Burada qəbiristanlıq olmalıydı. Qəbiristanlıq idi buralar! Olmalıydı. Yaxşı axtarmaq lazımdır. Yoxdur!!! Yox..dur...r... Gül-çiçək bağı imiş, laləzar imiş bura! Mənimsə xəbərim yox imiş. Aman Allah!.. Kaş bütün bunları

anlamayaydım. Gec anladım, çox gec! İndi isə ölməliyəm... Aman Allah! Məni heç basdıran tapılmayacaq, qurd-quş yeyəcək cəsədimi. Bəlkə haray salım, çağırım camaatı? Ay camaat!!! Hay verən yoxdur! Adamlardan o qədər uzaqlaşmışam ki, indi səsimə hay verən də tapılmır. Bəlkə adamlar yoxdur, hə? Bəs onda o qaçdı-tuttdu oynayanlar kim idi? Bu ağacları əkən, uzaqda sayrışan o evləri tikənlər kimlərdir? Adamlar var, özü də çox. Çox olduqları qədər də, uzaqdırlar onlar. Uzaq... Bir də...mən kimin xeyir-şərinə yaramışam ki... Bir azdan mən öləcəyəm, onlarsa yaşayacaq və yaradacaqlar. Hamısı öz əməllərinə, əllərindən çıxan işə baxıb, özləri də sevinəcək, başqalarını da sevindirərək xoşbəxt yaşayacaqlar. Xoşbəxt? Qabaqlar mən bu sözün mənası haqda heç düşünməmişdim də... Bəs mənim əməyim hanı? Mən heç olmazsa ölərkən, heç olmazsa son nəfəsimdə hansı işimə baxıb rahat ölüm? İşlərimin hamısı torpağın altındadır. Öz əllərimlə onları torpağa gömmək üçün düzəltmişəm... Of... Torpağın üstündə, insanların gözü qabağında qalan yeganə işim bu əkdiyim ağacdır, o da əyri, eybəcər. Düzəldəcəyəm onu! Qaldırıb, düz basdıracağam onu! (Güc verir) Kəsəcəyəm onu! (Qaçıb, komaya girir. Burnunu tutub) Yəni mən doğrudan ömrüm boyu burada yaşamışam? Bəlkə haqqında eşitdiyim qıl körpüsü bu imiş və mən öz əməllərim uçun cavab verirəm. Yəqin indicə buradan kəllə-mayallaq gələrək, əbədi odlar-alovlar içərisinə gömüləcəyəm. (Ağaca diqqətlə baxıb) Uşaq idim. Qanmadım. Səni mən əydim, əyri basdırdım, bağışla! Bəs məni? (Uzun pauza. Qoca tərpənmədən ağaca baxır.) Əyri əkilmisən deyə bar da vermirsən...Gəlmişik gedəcəyik. Gəlməyimizlə getməyimiz öz ixtiyarımızda deyil. Lakin həmin bu dövr arasındakı, ömür adlandırdığımız vaxtı necə yaşamağımız öz əlimizdədir. İnsan gərək elə yaşasın ki, bu dünyadan köçəndə onu tanıyanlar peşiman olsunlar. Onun xatirəsini əziz tutsunlar. Onu... (Ağlayır) Bağışla məni!..Barını insanlardan gizləyən ağac, başqalarına xoşbəxtlik gətirmədən, çiyinlərdə sağ-salamat gəzmək üçün yalnız özünü saxlayan bir baş qopub düşsə, kəsilib atılsa yaxşıdır. (Baltanı ağaca vurur) Heyf ki, gec başa düşdüm... (Vurur) Gec!.. (Vurur) Gec! (Vurur) Gec... (Vurur, vurur...)

İşıqlar yığılır.

(Baltanın ağaca dəyəndə çıxartdığı səslər.

İşıqlar sönür.

Səs bir az da davam edib, tam kəsilir)

Son.

# SON SÖZ

Fərman, sən o qədər uca, böyük sevgiyə layiqsən ki... ömrüm boyu mən də bu sevgiyə cavab verməyə çalışacam. Bütün bunları yazmağı özümə borc bildim. Məqsədim bu idi ki, öz tamaşaçılarının, xüsusilə yeni nəsil tamaşaçılarının yaddaşından çıxmayasan. İstədim ki, onlar bilsinlər sən öz sənətini necə ilahi məhəbbətlə sevdin. Stanislavskinin dediyi kimi səhnəyə məbəd kimi baxdın, heç vaxt ona xəyanət etmədin. Hətta o sənə qarşı laqeyd, etibarsız, qəddar olanda belə. Yazdım ki, qoy tamaşaçıların bilsinlər ki, səni təkcə Azərbaycanda deyil, başqa ölkələrdə də sevirdilər, tanıyırdılar. İstədim ki, bilsinlər sən nə qədər vətənpərvər və təvazökar idin. Sənə başqa ölkələrdən dəvətlər olsa da, Azərbaycanı tərk etmək istəmədin. Və heç yerdə heç vaxt bu haqda demirdin. Əksinə, bütün varlığını Vətəninə bağladın. Ən çətin vaxtlarında da hər şeydən, hətta ailəndən əvvəl teatrı tuturdun. Mənim üçün çətin olsa da, sənin iradənə, dözümünə əhsən deyirdim. Sənə dəstək olmağa çalışırdım. Sənin kimi şəxslə bir həyatı paylaşmaq mənə xoş idi. Mən səni dərk etməyə macal tapa bilmədim. Sənə dəyər vermək üçün heç olmasa sənin yarısın qədər olmalıyıq.

Sən kimsən, Fərman?!

Sən Tanrının yaratdığı mükəmməl şəxslərdən birisən! Sən dünya içində öz dünyanı yaratmağı bacaran birisən. Sən elə bir şəxsiyyətsən ki, səndən yalnız öyrənmək, bəhrələnmək, işıq almaq mümkün idi. Sən hamını ancaq tərəqqiyə səsləyən vətənpərvər bir maarifçi idin. Sən başqalarının xilası naminə, ümumu işin xatirinə özünü qurban verməyə, qeyriləri üçün əlçatmaz olanları kəşf etməyə qadir olan, yenilməz idin. Sən yaratmaqdan doymayan, yaradıcılığının sərhəddi olmayan ərköyün, həssas bir sənətkar idin.

Bədbəxtlikdən ilham pərisinin atdığı ox sənin qəlbinin lap ortasına sancılmışdı. Ömrünün sonuna qədər sən onu dözülməz ağrıyla daşıdın. Axırda bu ox sənin üçün həyatla ölüm arasında bir körpü oldu.

Səni ancaq əzizlərin, doğmaların deyil, sənətə dəyər verən həmkarların, Azərbaycan incəsənətinin inkişafında maraqlı olan hər kəs itirdi. Toxunulmamış, ağzı açılmamış bir xəzinə kimi! Onlar sözün əsil mənasında itirdilər! Sən

zamanın aktyoru deyildin. Zamanı qabaqlayan aktyor idin! Sən məkanla məhdudlaşan aktyor deyildin! Sən dünyəvi aktyor idin! Sən zamanında doğulmamışdın. Amma sənin dəyərini zaman verəcəkdir. Mütləq verəcək! Mən inanıram ki, vaxt gələcəkdir ki, Fərman sənəti zirvələrdə olacaq! Sən dəyərləndiriləcəksən! Sən bizim üçün həmişə var olan və var olacaq əzizimizsən! Sonsuza qədər birlikdəyik! Ölüm heç də son deyil! Ölüm yeni həyatın başlanğıcıdır! Sən doğrudan da fədaisən! Sənət fədaisi!!!





"Sarı gəlin"



"Həm ziyarət, həm ticarət"



"Zirzəmi"



"Sarı gəlin"



"Həm ziyarət, həm ticarət"



"Otel otağı"



"Həm ziyarət, həm ticarət"



"Zirzəmi"


14
14
14A
13A